# 26 İyun - Silahlı Qüvvələr Günüdür

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 134 (9013) BAZAR, 26 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Müzəffər, qüdrətli, modern



## 104 yaşlı Azərbaycan Ordusu dünyanın ən güclüləri sırasındadır

26 İyun - Qafqazın ən güclü, ən hazırlıqlı ordusunun şərəf günüdür!

Hərb salnaməmizdə parlaq səhifə açan Silahlı Qüvvələrin qürur tarixidir!

Bu gün 104 yaşını fəxarətlə qeyd etdiyimiz Müzəffər Ordunun yazdığı Zəfər tarixinin təntənəsini yaşamaqdayıq. Cənubi Qafqazda 200 illik münaqişəyə, 30 illik işğala son qoyan qüdrətli Azərbaycan Ordusu ildönümünü qalib qüvvə kimi qeyd edir.

### Gücümüzün simvolu

"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin vaxtilə torpaqlarımız işğal altında olarkən səsləndirdiyi bu fikirləri bəlkə də o vaxt çoxları xəyal kimi qəbul edirdi. Amma zaman göstərdi ki, o fikirlər söz xatirinə səsləndirilən fikirlər deyildi, Ali Baş Komandan tərəfindən deyilən bu sözlərin arxasında böyük həqiqətlər dayanırdı. Çox keçmədi ki, sözü imzası qədər keçərli olan İlham Əliyev yaratdığı Müzəffər Ordu ilə əsl sərkərdə məharətini dünyaya nümayiş etdirdi. Beynəlxalq birliyin ən böyük təşkilatı olan BMT-nin çıxardığı və icrasını yerinə yetirə bilmədiyi qətnamələri İlham Əliyev cəmi 44 gün ərzində həll etdi və bununla da tarixi ədalət bərpa olundu. Bacarıqlı, təcrübəli komandanlıq altında idarə edilən döyüşlərə atılan cəsur hərbçilərimiz düşmənin illərlə hazırladığı eşelonlaşdırılmış müdafiə xəttini qısa müddətdə yararaq irəliləməyə başladı. Döyüş meydanından vahimə içində qaçan düşmənin yüzlərlə müxtəlif döyüş texnikası, silah-sursatı məhv edildi və ya qənimət kimi ələ keçirildi. Həm canlı qüvvə, həm də döyüş texnikası sarıdan böyük itkilərə məruz qalan Ermənistan ordusu darmadağın edildi. Beləliklə, "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı.

Bu gün 104-cü ildönümünü qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələri cəmi 44 gün ərzində sübut etdi ki, bu ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

→ 12

## Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib.

## Zəfər Ordusu

Tarixi səhifələdikcə görürük ki, xalq olaraq itirdiklərimizin kökündə ordumuzun olmaması mühüm yer tutur. Ordumuzun olmamasının kökündə isə əsarətində olduğumuz imperiyaların siyasəti dururdu. Məsələn, çarizmin əsarətində yaşadığımız yüz ildən çox müddətdə onun Azərbaycan xalqına vurduğu ən böyük zərbə, şübhəsiz ki, azərbaycanlıların orduya cəlb edilməməsi idi. Məhz ona görə də Azərbaycan Xalq Cümhuriyyəti yarandıqda onu müdafiə edə biləcək öz ordusu yox idi. Belə bir ordunu yaratmaq üçün isə hərbi işi bilən milli kadrlar çatışmırdı. Buna görə də ordu təşkili çox çətin bir iş idi, lakin ordusuz da öz müstəqilliyini qoruyub saxlamaq mümkün deyildi. Yeni yaradılmış dövlətin qarşısında duran ən əsas vəzifə müstəqil ordunun yaradılması idi.

Bu çətin işin təşkilini görkəmli azərbaycanlı generallar Səmədbəy Mehmandarov və Əliağa Şıxlinski öz üzərlərinə götürdülər. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlandı. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştə göstərdilər, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdilər.

→ 3

## Ordun varsa, yurdun da var

Ordu gücdür, qüdrətdir. Ordu qürurdur, xalqın ümid, güvənc yeridir. Dövlətin isə əsas atributlarından biridir. Müdriklər ordunun bir millətin taleyində və tarixində rolunu dəyərləndirərkən "Ordun varsa, yurdun da var" demişlər. Bu gün bizə qələbə sevinci yaşadan, yağı düşmənə layiq olduğu yeri göstərib yurda fərəh gətirən, Qarabağımızda bayrağımızı ucaldıb üzümüzü ağardan Azərbaycan Ordusunun yaranma günüdür.

1918-ci il mayın 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndə qeyd edilmişdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bu qərar Şərqin ilk demokratik dövlətinin öz ordusunu yaratmasına hüquqi əsas verdi.

Amma yaradılan ordu nə müstəqilliyi, nə də özünü qoruya bildi. İşğalçı bolşevik ordusu 1920-ci ildə Azərbaycanı ilhaq etdikdən sonra Müdafiə Nazirliyi də ləğv edildi. "Qırmızı"lara müqavimət göstərən Milli Ordu zabitlərinin bir qismi güllələnərək öldürüldü, bir qismi həyatını sürgünlərdə, zülm və zillət içində keçirdi.

→ 4



# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Ələkbərov Fərid Tahir oğlu - mayor (ölümündən sonra)

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Əlifov Rüfət Sehun oğlu - əsgər (ölümündən sonra)
Əliyev Nihad Heydər oğlu - əsgər (ölümündən sonra)
Əsədov Ruslan Rövşən oğlu - əsgər (ölümündən sonra)
Quliyev Hüseyn Həsən oğlu - əsgər (ölümündən sonra)
Mehdiyev Əhliman Rəhman oğlu - əsgər (ölümündən sonra)
Şahbazov Kənan Natiq oğlu - əsgər (ölümündən sonra)

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Cəbrayılov Aqil Ağacəfər oğlu - polkovnik
Əsədov Əli Hacı oğlu - polkovnik
Kərimov Elşad Əzizxan oğlu - polkovnik
Əliyev Rəşad Əmiralı oğlu - kapitan (ölümündən sonra)
Mikayıllı Samir Sabir oğlu - kapitan (ölümündən sonra)
Bayramov Ruslan Azər oğlu - baş leytenant (ölümündən sonra)
Əfəndiyev Adil Qədir oğlu - tibb xidməti leytenantı (ölümündən sonra)
Feyzullayev Zahir Eyvaz oğlu - leytenant (ölümündən sonra)
Quluzadə Kamran Pərviz oğlu - leytenant (ölümündən sonra)
Yaqubov Mayis Rəhim oğlu - leytenant (ölümündən sonra)
Abdurahmanlı Sübhan Mahir oğlu - gizir (ölümündən sonra)
Mehdiyev Zahir Zakir oğlu - gizir (ölümündən sonra)
Məmmədov Elşad Əvəz oğlu - gizir (ölümündən sonra)
Tarverdiyev Cabir Səmid oğlu - gizir (ölümündən sonra)
Əhmədli Elməddin Gülverən oğlu - çavuş (ölümündən sonra)
Əliyev Yadigar Səfxan oğlu - çavuş (ölümündən sonra)
Xanalıyev Ziyəddin Ariz oğlu - çavuş (ölümündən sonra)
Abışov Asif Əlövsət oğlu - kiçik çavuş (ölümündən sonra)
Əsgərov Şəhriyar İsa oğlu - kiçik çavuş (ölümündən sonra)
Hüseynli Şahin Vaqif oğlu - kiçik çavuş (ölümündən sonra)
Qasımzadə Nicat Höccət oğlu - kiçik çavuş (ölümündən sonra)
Məmmədov Zaman Habil oğlu - kiçik çavuş (ölümündən sonra)
Abbasov Şamxal Xasay oğlu - əsgər (ölümündən sonra)
Axundov Eşqin İntiqam oğlu - əsgər (ölümündən sonra)
Babayev Ağaşirin Firuz oğlu - əsgər (ölümündən sonra)
Babayev Babaxan Əlövsət oğlu - əsgər (ölümündən sonra)
Babazadə Xaqani Anar oğlu - əsgər (ölümündən sonra)
Baloğlanlı Elşad Elşən oğlu - əsgər (ölümündən sonra)
Cəfərov Ülvi Habil oğlu - əsgər (ölümündən sonra)
Cəfərzadə Tarif Qədim oğlu - əsgər (ölümündən sonra)
Əhmədli Qardaşxan Elxan oğlu - əsgər (ölümündən sonra)
Əkbərov İbarət Faiq oğlu - əsgər (ölümündən sonra)
Əliyev Lətif Oruc oğlu - əsgər (ölümündən sonra)
Əsgərov İbrahim Məzahir oğlu - əsgər (ölümündən sonra)
Gülməmmədov Eşqin Rabil oğlu - əsgər (ölümündən sonra)
Həsənov Elməddin Elşən oğlu - əsgər (ölümündən sonra)
Xaməmmədov Şirxan Xaməmməd oğlu - əsgər (ölümündən sonra)
İbrahimov Ayaz Sultan oğlu - əsgər (ölümündən sonra)
İbrahimov Seymur Zamin oğlu - əsgər (ölümündən sonra)
İlyasov Fərid İbad oğlu - əsgər (ölümündən sonra)
İsayev Rahət Rafət oğlu - əsgər (ölümündən sonra)
İsmayılov Bahaləddin Temraz oğlu - əsgər (ölümündən sonra)
Qarayev Elnur Qalib oğlu - əsgər (ölümündən sonra)
Qasımov Səbuhi Telman oğlu - əsgər (ölümündən sonra)
Qənbərli Vüsal İlkin oğlu - əsgər (ölümündən sonra)
Qulamzadə Afərin Müqəddəs oğlu - əsgər (ölümündən sonra)
Quliyev Ağamirzə İlham oğlu - əsgər (ölümündən sonra)
Quliyev Hüseyn Aydın oğlu - əsgər (ölümündən sonra)
Qurbanov Tərxan Zabit oğlu - əsgər (ölümündən sonra)
Mehdiyev İsmayıl David oğlu - əsgər (ölümündən sonra)
Mədətli Zülal Rəhim oğlu - əsgər (ölümündən sonra)
Məmmədov Əli Abbas oğlu - əsgər (ölümündən sonra)
Məmmədov Xaqani Mürşüd oğlu - əsgər (ölümündən sonra)
Məmmədov Rüstəm Müsəllim oğlu - əsgər (ölümündən sonra)
Məmmədzadə Pərviz Zahid oğlu - əsgər (ölümündən sonra)
Mirzəyev Eltac Fizuli oğlu - əsgər (ölümündən sonra)
Mirzəyev Sarvan Əli oğlu - əsgər (ölümündən sonra)
Orucov Elmir Elyar oğlu - əsgər (ölümündən sonra)
Poladov Elçin Adil oğlu - əsgər (ölümündən sonra)
Rəhimov Yalçın Elçin oğlu - əsgər (ölümündən sonra)
Sadıqov Elvin Namiq oğlu - əsgər (ölümündən sonra)
Səfərov Oktay Əhməd oğlu - əsgər (ölümündən sonra)
Səttarov Səxavət Qüdrət oğlu - əsgər (ölümündən sonra)
Şirəliyev Kənan Telman oğlu - əsgər (ölümündən sonra)
Tarverdiyev Feyruz İslam oğlu - əsgər (ölümündən sonra)

**"Vətən uğrunda" medalı ilə**

Atakişiyev Elşən Rafiq oğlu - polkovnik
Məmmədov Kamil Sədiyar oğlu - polkovnik
Ağayev Rüstəm Elşad oğlu - polkovnik-leytenant
Həsənov Temraz Ənvər oğlu - polkovnik-leytenant
Bağırov Fuad Allahverdi oğlu - baş leytenant (ölümündən sonra)
Səfərov Namiq Mübariz oğlu - baş leytenant
Feyzullayev Aydın Zakir oğlu - əsgər (ölümündən sonra)

**"İgidliyə görə" medalı ilə**

Dünyamalıyev Əziz Dünyamalı oğlu - polkovnik
Fərəcov Qabil Şərafəddin oğlu - mayor
Hüseynov Elşən Yaşar oğlu - mayor
Daşdiyev Aqil Adil oğlu - kapitan
Pirsaatov Elsevər Yavər oğlu - gizir

**"Suqovuşanın azad olunmasına görə" medalı ilə**

Əhmədov Abdulla Əhməd oğlu - əsgər (ölümündən sonra)

**"Cəbrayılın azad olunmasına görə" medalı ilə**

Bayramov Cəlal Yaqub oğlu - əsgər (ölümündən sonra)
Manafov Cavid Faiq oğlu - əsgər (ölümündən sonra)
Məhərrəmov Elməddin Şahlar oğlu - əsgər (ölümündən sonra)

**"Xocavəndin azad olunmasına görə" medalı ilə**

Əbilzadə Sübhan Arif oğlu - əsgər (ölümündən sonra)
Qənbərzadə Heydər Ağahüseyn oğlu - əsgər (ölümündən sonra)

**"Füzulinin azad olunmasına görə" medalı ilə**

Mecdunov Xalid Zahir oğlu - çavuş (ölümündən sonra)
Teyyublu Çərkəz Vidadi oğlu - kiçik çavuş (ölümündən sonra)
Feyzullayev Aydın Zakir oğlu - əsgər (ölümündən sonra)
İsmiyev Emil Elman oğlu - əsgər (ölümündən sonra)

**"Qubadlının azad olunmasına görə" medalı ilə**

Bayramov Cəlal Yaqub oğlu - əsgər (ölümündən sonra)

**"Şuşanın azad olunmasına görə" medalı ilə**

Hüseynov Ruslan Vəli oğlu - kiçik çavuş (ölümündən sonra)

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Balayev Saday Fazil oğlu - polkovnik
Hümbətov Müşfiq Mürsəl oğlu - tibb xidməti polkovniki
Kələntərov Saleh Rəşid oğlu - polkovnik
Rəsulov Azər Mustafa oğlu - polkovnik
Şərifov Etibar Vaqif oğlu - ədliyyə polkovniki
Abdullayev Tural Zakir oğlu - polkovnik-leytenant
Alıyev Rövşən Şirxan oğlu - polkovnik-leytenant
Hüseynov Yaşar Qənbər oğlu - polkovnik-leytenant
Səfərov Sədi Nizami oğlu - polkovnik-leytenant
Gülməmmədov Ramin Ramiz oğlu - mayor.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2022-ci il*

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" hərbi rütbəsi**

general-mayor Zakir Samiddin oğlu Ağayevə
general-mayor Azər Əli oğlu Əliyevə

**"general-mayor" hərbi rütbəsi**

polkovnik Nicad Kamandar oğlu Qarayevə
polkovnik Akif Səməndər oğlu Pirverdiyevə
polkovnik Zaur Zeynalabdul oğlu Rüstəmova
polkovnik Eldəniz Telman oğlu Yəhyayevə
polkovnik Zaur İlham oğlu Zeynalova

**"tibb xidməti general-mayoru" hərbi rütbəsi**

tibb xidməti polkovniki Firudin İsaxan oğlu Nəbiyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2022-ci il*

# Baş nazir Əli Əsədov Ələt Azad İqtisadi Zonasında və Bakı Beynəlxalq Dəniz Ticarət Limanında görülən işlərlə tanış olub, qarşıda duran məsələlər müzakirə edilib






İyunun 25-də Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Baş nazir Əli Əsədov Ələt Azad İqtisadi Zonasında görülən işlərlə yerində tanış olub.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müvafiq qurumların rəhbərləri ilə Ələt Azad İqtisadi Zonasına ayrılan torpaq sahəsi, maliyyə vəsaiti, su və enerji təchizatı məsələləri və qarşıda duran vəzifələr müzakirə olunub, konkret tapşırıqlar verilib.

Daha sonra Baş nazir Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində terminalların iş prinsipi və icra edilən infrastruktur layihələri üzrə görülən işlərlə tanış olub. Azərbaycanda nəqliyyat və logistika sahəsində infrastrukturun hazırkı vəziyyəti, rəqəmsallaşma, beynəlxalq yükdaşımalarda mövcud potensialın artırılması, artan tranzit yüklərin sürətli buraxılması üçün lazımi tədbirlərin görülməsi və bu sahədə qabaqcıl dünya təcrübəsinin, müasir innovativ həllərin tətbiqi və perspektiv layihələrlə bağlı müzakirələr aparılıb, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

Görüşlərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri, rəqəmsal inkişaf və nəqliyyat naziri, sahə üzrə məsul şəxslər və rəhbərlər iştirak ediblər.

# İnformasiya cəbhəsində növbəti uğur

## Azərbaycan saxta erməni təbliğatına zərbəni bu dəfə Rusiyanın informasiya məkanında vurdu

Rusiyanın xarici işlər naziri Serqey Lavrovun Azərbaycana səfərinin əsas hadisələrindən biri "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"in imzalanması oldu. İki dövlətin xarici işlər nazirlərinin imzaladıqları sazişin məqsədi informasiya təhlükəsizliyi sahəsində mövcud olan təhdidlərin qarşısının effektiv şəkildə alınmasıdır.

Güc və təsir vasitəsi kimi informasiya uzun müddətdir ki, özünü ən effektiv şəkildə göstərməkdədir. Təsadüfi deyil ki informasiya müharibəsi qlobal səviyyədə, dövlətlər arasında siyasi, iqtisadi və ideoloji mübarizənin əsas elementlərindən biri kimi çıxış edir. Xüsusən texnologiyaların inkişafı, internet və sosial şəbəkələrin yaranması informasiya müharibəsini yeni müstəviyə yüksəldib.

Dövlətimizə və xalqımıza qarşı işğal siyasəti yürüdən, soyqırım cinayətləri törədən ermənilər və ümumilikdə dünya erməniliyi onilliklərboyu Azərbaycana qarşı həm də informasiya müharibəsi aparıblar. Lakin bu gün vəziyyət fərqlidir. Son illərdə Azərbaycanda dövlət səviyyəsində həyata keçirilən tədbirlər, Prezident İlham Əliyevin hücum diplomatiyası, beynəlxalq təşkilatlarla işin genişləndirilməsi, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, Heydər Əliyev Fondunun layihələri respublikamıza informasiya müharibəsində mühüm uğurlar qazandırıb. Bütün bunların nəticəsi olaraq erməni yalanlarının qarşısı qətiyyətlə alınıb, beynəlxalq ictmaiyyət ölkəmizin və xalqımızın üzləşdiyi ədalətsizliklərlə daha yaxından tanış olub, ermənilərin Xocalıda törətdiyi cinayətlər bir sıra dövlətlər və ABŞ-ın bəzi ştatları tərəfindən soyqırım kimi tanınıb.

Azərbaycan dövləti Ermənistanla informasiya müharibəsində ən böyük qələbəsini isə Vətən müharibəsi dövründə qazandı. 44 günlük savaşda Azərbaycanın informasiya cəbhəsində qalibiyyətini təmin edən əsas amil isə Prezident İlham Əliyevin xarici ölkə KİV-inə verdiyi müsahibələr və xalqa müraciətləri oldu. Müzəffər Ali Baş Komandanın jurnalistlərə müsahibələri, müraciətləri dövlətimizin döyüş meydanındakı hərbi uğurlarına paralel olaraq informasiya müharibəsində də ölkəmizin üstünlüyünü təmin etdi. İlham Əliyevin 30-a yaxın xarici KİV-ə verdiyi müsahibələrdə tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan açıqlamaları ölkəmizin haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Bu, informasiya məkanında düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

İnformasiya müharibəsi bu gün də davam edir. Azərbaycan dövləti Vətən müharibəsində bu cəbhədə həyata keçirdiyi uğurlu siyasəti hazırda da qətiyyətlə davam etdirir. Rusiya ilə beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıqla bağlı saziş bu siyasətin nümunələrindən biridir.

Sazişə əsasən dövlətlərin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünün pozulmasına yönəlmiş aktlar, mühüm informasiya infrastrukturu obyektlərinə kompüter hücumları, terrorçuluğun təbliğatı və terror məqsədləri, dövlətin daxili işlərinə qarışmaq və ictimai qaydanın pozulması, millətlərarası, irqlərarası və konfessiyalararası ədavətin qızışdırılması, separatçılığın və ekstremizmin, nifrət və diskriminasiya yaradan, zorakılığa və qeyri-sabitliyə təhrik edən irqçi və ksenofobiya fikirlərin təbliğ olunması, vətəndaşların həyatına və təhlükəsizliyinə təhdid yaradan və ya ağır nəticələrə səbəb olan hallar haqqında bilərəkdən yalan məlumatın etibarlı mesajlar adı altında açıq şəkildə yayılması informasiya təhlükəsizliyinin təmin olunmasına əsas təhdidlərdir.

Ümumilikdə Rusiya və Azərbaycan arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq Sazişi bərabərhüquqlu, beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanan, başlıca təhdidlərə qarşı, o cümlədən dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, separatçılıq və ekstremizmin təbliğ edilməsinə, vətəndaşların həyatına və təhlükəsizliyinə təhdid yaradan və s. hallarda informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi ilə mübarizəni nəzərdə tutan, informasiya-kommunikasiya texnologiyalarından sülh, sabitlik və inkişafın təmin edilməsi məqsədi ilə istifadə məqsədini güdən əməkdaşlıq çərçivəsidir.

*Ən mühümü isə odur ki, bu saziş erməni lobbisinin və Ermənistanın Rusiyanın informasiya məkanında Azərbaycana qarşı fəaliyyətinə zərbədir. Sənəddə yer alan məsələlər Rusiya informasiya məkanından Azərbaycana olan təhdidləri tamamilə bloklayır, Ermənistanın Rusiya mediasında anti-Azərbaycan fəaliyyətinin qarşısını alır. Beləliklə, Azərbaycan informasiya cəbhəsində növbəti uğurunu qazandı. Saxta erməni təbliğatına zərbə bu dəfə Rusiyanın informasiya məkanında vuruldu.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan ilə Almaniya arasında əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb

İyunun 25-də xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq ilə ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Almaniya səfirinə Azərbaycanda uğurlu fəaliyyətinə və bu müddətdə ikitərəfli əlaqələrin inkişafına verdiyi töhfəyə görə təşəkkür edib və səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb. Səfir Volfqanq Maniqin Azərbaycan üçün çox önəmli bir dövrdə diplomatik fəaliyyət göstərdiyini qeyd edən nazir Ceyhun Bayramov Almaniyanın hər zaman Azərbaycanın suverenlik və ərazi bütövlüyünə nümayiş etdirdiyi dəstəyi məmnunluqla vurğulayıb.

Səfir Volfqanq Maniq xarici siyasət sahəsində sonuncu diplomatik fəaliyyətinin Azərbaycanda olduğunu qeyd edib və ölkədən xoş təəssüratlarla ayrıldığını bildirib. İki ölkə arasında əlaqələrin xüsusi olduğunu bildirən səfir bir çox sahələrdə birgə maraqların mövcudluğunu söyləyib.

Tərəflər iki ölkə arasında bir sıra sahələrdə əlaqələrin inkişafı perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin bölgədəki cari münaqişəsonrası vəziyyət müzakirə edilib, münasibətlərin normallaşmasının, sülh dialoqunun davam etməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov səfir Volfqanq Maniqə sonda bir daha xoş arzularını çatdırıb.

# Avstriyanın ölkəmizdəki səfiri: "Azərbaycan bölgədə sabit ölkə və etibarlı tərəfdaşdır"

İyunun 25-də xarici işlər naziri Ceyhun Bayramov Avstriya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerl ilə ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Avstriya səfirinə Azərbaycanda fəaliyyəti müddətində iki ölkə arasında əlaqələrin inkişafı istiqamətində səylərinə görə təşəkkür edib və səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir iki ölkə arasındakı yüksəksəviyyəli səfər mübadilələrinin və görüşlərin ikitərəfli əlaqələrin möhkəmlənməsinə töhfə verdiyini bildirib və bu xüsusda avstriyalı həmkarı ilə apardığı fikir mübadilələrinə istinad edib.

Səfir Bernd Aleksandr Bayerl Azərbaycandakı fəaliyyətindən məmnunluqla danışıb. O, fəaliyyəti dövründə pandemiya səbəbindən münasibətlərdə müəyyən durğunluq müşahidə edilsə də, hazırda əlaqələrin daha da inkişafı üçün yeni imkanların olduğunu vurğulayıb. Səfir Azərbaycanın bölgədəki sabit ölkə və etibarlı tərəfdaş olduğunu qeyd edib.

Tərəflər iki ölkə arasında bir sıra, o cümlədən iqtisadi, ticarət, humanitar, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi potensialını qeyd ediblər. Görüşdə həmçinin cari regional vəziyyət, sülh quruculuğu səyləri, habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Nazir Ceyhun Bayramov səfir Aleksandr Bayerlə ən xoş arzularını çatdırıb.

# Zəfər Ordusu

Hər bir dövlətin varlığının qorunmasında ordu müstəsna əhəmiyyətə malikdir. Milli Ordunun yaradılması Azərbaycan xalqının milli dövlətçilik və özünütəsdiq tarixinin ən önəmli mərhələlərindən biridir. Hələ 1918-ci il mayın 28-də müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, ordu quruculuğu sahəsində əhəmiyyətli addımlar atmışdı. Hökumətin qərarı ilə 1918-ci il iyunun 26-da Müsəlman Korpusunun adının dəyişdirilərək Əlahiddə Azərbaycan Korpusu adlandırılması və bununla da ilk nizami hərbi hissənin yaradılması milli silahlı qüvvələrin formalaşdırılmasında mühüm hadisə idi.



## 104 il əvvəl Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı

Tarixi səhifələdikcə görürük ki, xalq olaraq itirdiklərimizin kökündə ordumuzun olmaması mühüm yer tutur. Ordumuzun olmamasının kökündə isə əsarətində olduğumuz imperiyaların siyasəti dururdu. Məsələn, çarizmin əsarətində yaşadığımız yüz ildən çox müddətdə onun Azərbaycan xalqına vurduğu ən böyük zərbə, şübhəsiz ki, azərbaycanlıların orduya cəlb edilməməsi idi. Məhz ona görə də Azərbaycan Xalq Cümhuriyyəti yarandıqda onu müdafiə edə biləcək öz ordusu yox idi. Belə bir ordunu yaratmaq üçün isə hərbi işi bilən milli kadrlar çatışmırdı. Buna görə də ordu təşkili çox çətin bir iş idi, lakin ordusuz da öz müstəqilliyini qoruyub saxlamaq mümkün deyildi. Yeni yaradılmış dövlətin qarşısında duran ən əsas vəzifə müstəqil ordunun yaradılması idi.

Bu çətin işin təşkilini görkəmli azərbaycanlı generallar Səmədbəy Mehmandarov və Əliağa Şıxlinski öz üzərlərinə götürdülər. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlandı. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştə göstərdilər, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdilər. Azərbaycan Ordusunun Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, İbrahim ağa Vəkilov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi nüfuzlu generalları var idi.

Sovet hakimiyyəti dövründə də imperiyanın azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi. Sovet dövründə çar dövründən fərqli olaraq azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. Lakin onlar döyüş yox, əsasən tikinti hərbi hissələrində xidmət edirdilər. Məqsəd azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək idi.

Bu siyasətin mahiyyətini yaxşı başa düşən Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi yaratdı. Bununla yanaşı, Ulu Öndər azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail olmuşdu. Beləliklə, Heydər Əliyevin sayəsində milli hərbi kadrların yetişməsi prosesi güclənmişdi.

Ümummilli Lider Heydər Əliyev ikinci hakimiyyəti dövründə - 1999-cu ildə Azərbaycanda Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı, bu addımların milli zabit kadrlarımızın yetişdirilməsində böyük rola malik olduğunu qeyd etdi. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Ulu Öndərin həmin fərmanı tarixi əhəmiyyət daşıyır. Belə ki, sözügedən fərmanla Heydər Əliyev Azərbaycan Ordusunun tarixi ənənələrə söykəndiyinin birəsrlik tarixi olduğunu göstərmişdir.

Tarixə nəzər salaq. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli qərarı ilə çar Rusiyası dövründə "Vəhşi diviziya" adlanan, keçmiş süvari alayının əsgərlərindən formalaşdırılmış Müsəlman Korpusunun əsasında ilk ordu hissəsi - 5 min nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan Korpusu" yaradıldı. General-leytenant Əliağa Şıxlinski korpusun komandiri kimi vəzifəsini yenə də davam etdirdi. Bu qərarla cümhuriyyət öz ordusunu yaratması üçün hüquqi baza formalaşdırdı. Bunun ardınca iyulun 11-də hökumətin fərmanı ilə ölkədə hərbi səfərbərlik elan edildi. 23 oktyabr 1918-ci il tarixində hökumətin iclasında Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin yaradılması qərara alındı. Bu qərar Nazirlər Şurası tərəfindən 11 noyabr 1918-ci il tarixdə imzalandı. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr 1918-ci il tarixli qərarı ilə isə general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini təyin olundular. General-leytenant Süleyman Sulkeviç isə baş qərargah rəisi təyin edildi.

1919-cu ilin sonlarında 25 minlik Azərbaycan Ordusu iki piyada və bir süvari diviziyadan ibarət idi. Hərbi nazirlik 1920-ci ildə ordunun şəxsi heyətini 40 min nəfərə çatdırmağı planlaşdırırdı. 1920-ci il bolşevik işğalı ərəfəsində Azərbaycan Ordusunun əsas döyüş hissələri və birləşmələri 8 alaydan formalaşan iki piyada diviziyasından, 3 alaydan formalaşan süvari diviziyadan və iki topçu briqadasından ibarət idi. Bunlardan başqa, ordunun bir sıra yardımçı hissə, bölmə və müəssisələri də var idi. Hər bir piyada alayı 3 tabordan, hər bir tabor isə dörd piyada bölüyündən və bir pulemyot bölüyündən təşkil edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti obyektiv çətinliklər üzündən hərbi-dəniz qüvvələrinin və hərbi-hava qüvvələrinin təşkil olunmasına gec başlasa da, qısa müddət ərzində bu ordu birləşmələrini də qismən təşkil edə bilmişdi.

1920-ci ildə Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanın Hərbi Nazirliyi rəsmən ləğv edildi və həmin funksiya Xalq Hərbi Komissarlığına verildi. Azərbaycan Ordusunun 21 generalından 15-i Nargin adasında bolşeviklər tərəfindən güllələndi.

## Tarixi irsimizə ehtiramın nümunəsi

Azərbaycan Ordusunun qurucularına, onların tarixi irsinə dövlət tərəfindən yüksək qiymət verilməklə xatirələri həmişə uca tutulmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Heydər Əliyevin 22 fevral 1998-ci il tarixli sərəncamının bir bəndi Azərbaycan Xalq Cümhuriyyəti ordusuna həsr edilmişdir.

Azərbaycan Ordusunun tarixini diqqət mərkəzində saxlayan Heydər Əliyev 22 iyun 1998-ci il tarixdə Azərbaycanın Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasiminin keçirilməsinə dair sərəncam imzalamışdır. Həmin təntənəli mərasimdə çıxış edən Heydər Əliyev cümhuriyyət generalları haqqında çox yüksək fikirlər söyləmişdir. Ulu Öndər demişdir: "Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski uzun müddət çar Rusiyasının ordusunda xidmət edəndən, Xalq Cümhuriyyəti dövründə müstəqil Azərbaycan Ordusunun yaranmasına rəhbərlik edəndən sonra Azərbaycan Sovet Sosialist Respublikasında da ordu qurmaq, yaratmaq, azərbaycanlılara hərbi təhsil, təlim vermək işləri ilə məşğul olmuşlar. Bu, çox maraqlıdır, səciyyəvidir, amma eyni zamanda təbiidir. Çünki hərbi peşə, ixtisas birinci növbədə hərbi təhsil, təcrübə, bilik, hərbi təlimtərbiyə, döyüş təcrübəsi tələb edir. Bunlar olmayanda ordu qurmaq, Silahlı Qüvvələr yaratmaq mümkün deyildir. Əgər bunlar, peşəkar hərbçilər varsa, ordu quruculuğunda onlardan səmərəli istifadə etmək olar. Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski buna əyani sübutdur".

Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması hərb sahəsində milli kadr ehtiyatının formalaşdırılması prosesinin keyfiyyət etibarilə yeni inkişaf mərhələsi sayıla bilər. Ulu Öndərin 2001-ci il 20 avqust tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmış və bununla həmin təhsil ocaqlarının respublika üzrə hərbi təhsil müəssisələri sistemində statusu yüksəldilmişdir.

## Ordumuzun beynəlxalq əlaqələrinin inkişafı diqqət mərkəzindədir

1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu.

Bu əməkdaşlıq nəticəsində Azərbaycan hərbçiləri NATO proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Silahlı Qüvvələri modern orduya çevrildi.

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Silahlı Qüvvələri bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Məhz bu uğurlu siyasət nəticəsində Müdafiə Sənayesi Nazirliyində 400-dən çox müdafiə təyinatlı məmulatın istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biridir. Bu, Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir.

## Ordunun gücləndirilməsi prioritetdir

Azərbaycanın hərbi qüdrətinin artırılması dövlət siyasətinin prioritetidir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Silahlı Qüvvələrin daha da modernləşdirilməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsi Prezident İlham Əliyevin siyasətinin strateji istiqamətlərindəndir.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik olan Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə nəinki MDB məkanında, hətta dünya ölkələri arasında ön sıralardadır. Ötən 17 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan modernləşmə islahatları və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərinə ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda şahid olublar. Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Silahlı Qüvvələri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır.

Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. Ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsinə, müasir infrastrukturun yaradılmasına, hərbi qulluqçuların sosial müdafiəsinə, mənzil təminatının yaxşılaşdırılmasına, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət yetirilib.

Qürurverici haldır ki, Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Silahlı Qüvvələrimizi əhəmiyyətli dərəcədə təchiz edə bilir. Bundan əlavə, hazırkı dövrdə silah və hərbi texnikaların satın alınmasına və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri də genişləndirilir.

## Hərb tariximizə layiqli qiymətin verilməsində varislik

Prezident İlham Əliyev cümhuriyyətin müdafiə nazirinin müavini olmuş general Əliağa Şıxlınskinin 150 illik yubileyi ilə əlaqədar sərəncamda onun fəaliyyətinə yüksək qiymət verərək deyir: *"XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əliağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yeniliklər ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin Silahlı Qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir".*

Azərbaycan Cümhuriyyətinin müdafiə naziri olmuş Səməd bəy Mehmandarovun 160 illik yubileyi ilə bağlı fərmanında Prezident İlham Əliyev onun xidmətlərinə də misilsiz qiymət verir: *"General Səməd bəy Mehmandarov döyüş meydanlarındakı yüksək peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazmışdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsi məhz onun fəaliyyətinin nəticələridir".*

## Qüdrətli Ordu-Müzəffər Ali Baş Komandan

Ermənistanın işğalçı siyasətinin dünyada tanıdılması istiqamətində uğurlu diplomatik iş aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Azərbaycan Prezidenti Qarabağ kimi çox çətin problemi həll edərək Ermənistanı, dünyadakı erməni diasporunu və onların havadarlarını diz üstə çökdürərək reallığı qəbul etməyə məcbur etdi - işğala son qoyuldu. Müzəffər Ali Baş Komandan bununla da tarixi ədaləti bərpa etdi. Ermənistan üzərində parlaq qələbə əldə edilməsi həm də İlham Əliyevin apardığı praqmatik, sistemli siyasi kursun və uzaqgörən xarici diplomatiyanın bəhrəsi idi.

Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusunun Qələbə salnaməsi daim xalqın yaddaşında yaşayacaqdır. Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd, həmçinin Kəlbəcər, Ağdam və Laçın azad edildi. Bütövlükdə 300-dən çox yaşayış məntəqəsi düşməndən təmizləndi. Düşmən ordumuzun gücü qarşısında geri çəkilərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. 44 gün ərzində müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan böyük təzyiqlərin, təhdidlərin olmasına rəğmən Azərbaycan zəfər çaldı. Xalqımız, bütün dünya azərbaycanlıları möhtəşəm qələbəni böyük qürur hissi ilə qeyd etdi.

Qalib xalqın hər bir hərbçisi qəhrəmandır. Vətən müharibəsində Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, qayıdaq döyüş meydanına, öz missiyamızı başa vuraq. Bu haqq savaşında Azərbaycan xalqı öz böyüklüyünü, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

Dövlətimiz Qalib Ordunun hərbçilərinin qəhrəmanlıqlarını yüksək dəyərləndirdi. Vətən müharibəsində qələbə münasibətilə "Zəfər" və "Qarabağ" ordenləri, "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları təsis edildi. Həmin medal və ordenlərin təsis olunması Qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına göstərilən ali diqqətin təzahürüdür. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olundular.

"Dəmir yumruq" birliyimizin rəmzidir. Azərbaycan xalqı yumruq kimi birləşib. Bu birlik əbədi olacaq. Bu birlik gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Dövlətin gücü Azərbaycan xalqının dəstəyindədir. Qazanılan bu tarixi Qələbə bizə yeni imkanlar yaradır. Son 30 ilin əsas uğurlu yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq torpaqlarını işğaldan azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim oldu. Ordumuzun şücaəti və xalqımızın birliyi sayəsində qazanılmış zəfərlə müstəqil Azərbaycan dövləti özünün itirilmiş qədim torpaqlarını işğalçılardan təmizləmiş, ərazi bütövlüyünü təmin etmişdir. Qəhrəman Ordumuz hərbi bacarıqlarını və imkanlarını dünyaya göstərmişdir. Ölkədə möhtəşəm milli birliyə nail olunmuş və Azərbaycan BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qətnamələrinin icrasını təkbaşına təmin etmişdir.

Bu zəfərlə Azərbaycan dünyanı yalançı erməni uydurmalarından və erməni faşizmindən də xilas etmişdir. Zəfərimiz isə əbədidir və hər zaman qalib xalq olduğumuzu dünyaya bəyan edəcək.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Əlahiddə Ümumqoşun Ordu öz missiyasını layiqincə yerinə yetirir

Ordu hər bir dövlətin və xalqın təhlükəsizliyinin əsas şərtlərindən, dövlətçiliyin bel sütunlarından biridir. Ona görə Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqımızın tələbi ilə ölkə rəhbərliyinə qayıdışından sonra həyata keçirdiyi dövlət quruculuğunun ilk addımlarından və ən şərəfli səhifələrindən biri nizami və vahid komandanlığa əsaslanan ordunun formalaşdırılması olmuşdu. Məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı ordu o dövrdə Ermənistanın yeni işğal planlarının qarşısını qəhrəmancasına almış, bir sıra ərazilərimiz işğaldan azad edilmişdi.



Heydər Əliyev dövlət quruculuğunda və eyni zamanda tariximizin yaşadılmasında dövlətçilik irsimizə, varisliyə böyük diqqətlə yanaşırdı. Bunun ən böyük nümunələrindən biri Ulu Öndərin 22 may 1998-ci ildə imzaladığı fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun təşkil olunduğu günün - 26 İyun tarixinin Azərbaycanın Silahlı Qüvvələri Günü kimi qeyd edilməsidir. Hər zaman fəxarətlə qeyd etdiyimiz bu tarixi artıq ikinci ildir ki, daha böyük qürurla, daha təntənəli şəkildə qarşılayırıq. Çünki Ulu Öndər Heydər Əliyevin yaratdığı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin daha da gücləndirdiyi ordumuz 44 günlük Vətən müharibəsində özünün tarixi missiyasını qəhrəmancasına yerinə yetirdi. Bu müqəddəs savaşda torpaqlarımızı işğaldan azad edən ordumuz bizi bütün dünyaya qalib dövlət, savaş meydanında zəfər çalmış qalib xalq kimi tanıtdı. Qalib dövlət, qalib xalq olmaqdan isə böyük xoşbəxtlik yoxdur və bu qürurdoğuran hissləri bizlərə möhtərəm İlham Əliyevin Ali Baş Komandanlığı ilə rəşadətli Ordumuz yaşatdı.

Blokadada olan Naxçıvanın müdafiəsi hər zaman yüksək diqqət mərkəzində olmuş, bu məqsədlə muxtar respublikadakı hərbi hissələrin döyüş hazırlığı və peşəkarlığı ildənilə sürətlə artırılmışdır. Xatırladım ki, Naxçıvanda Azərbaycan Ordusunun hərbi hissələrinin yaradılmasına ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanılmışdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi yaradılmışdır. Həmin dövrdə Heydər Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, həm də müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı olmuşdur. Məhz Heydər Əliyevin siyasi müdrikliyi ilə sovet ordu birləşmələri Naxçıvanı tərk etmiş, onların silah və texnikası Azərbaycan Ordusuna təhvil verilmişdir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi olaraq Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinin də maddi-texniki təminatı möhkəmləndirilib, döyüş hazırlığı əhəmiyyətli dərəcədə yüksəlib. Bu mənada Əlahiddə Ümumqoşun Ordu respublikamızda həyata keçirilən hərbi quruculuğun ən mükəmməl nümunələrindən biri kimi diqqəti çəkir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Naxçıvana səfəri zamanı həmişə hərbi hissələrə baş çəkir, muxtar respublikanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərlə yerindəcə tanış olur. Prezident İlham Əliyev ötən il mayın 10-da Naxçıvana dövlət başçısı kimi etdiyi sayca 15-ci səfəri zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun və Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışında iştirak etmişdir.

Fəxrlə qeyd etmək istərdim ki, dövlətimizin muxtar respublikaya göstərdiyi güclü dəstək faktı Naxçıvanı özünü xarici təhdidlərdən tam müdafiə etmək iqtidarında olan bölgəyə çevirmişdir. 1992-ci ildə erməni silahlı birləşmələrinin işğal etdiyi Şərur rayonunun Günnüt kəndinin 26 ildən sonra - 2018-ci ildə Əlahiddə Ümumqoşun Ordu tərəfindən azad olunması muxtar respublikada həyata keçirilən ordu quruculuğunun möhtəşəm nəticəsidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümündə cəmiyyətimizdə mühüm hərbi-siyasi hadisəyə çevrilən Günnüt əməliyyatı zamanı Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad olunmuş, ümumilikdə 11 min hektara yaxın ərazi Azərbaycanın nəzarətinə keçmişdir. Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza Ermənistandakı avtomobil yoluna nəzarət etməyə imkan verməsidir.

Əlahiddə Ümumqoşun Ordunun bölmələri növbəti rəşadətlərini Vətən müharibəsində göstərdilər. Müzəffər Ordumuzun Qələbəsi ilə nəticələnən Vətən müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları, xüsusi təyinatlılar, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin məzunları və Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarının yetirmələri böyük şücaətlər göstərərək tarix yazdılar, yeni qəhrəmanlıq nümunələri yaratdılar. Prezident İlham Əliyev ötən il Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində bununla bağlı deyib: *"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".*

Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə Vətən müharibəsindən sonra yaranan yeni çağırışlar əsasında muxtar respublikada ordu quruculuğu sürətlə davam etdirilir, Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində müxtəlif tədbirlər reallaşdırılır. Dövlət başçısının bu sahədə qarşıya qoyduğu bütün vəzifələr Naxçıvan Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi və nəzarəti ilə muxtar respublikada sürətlə və yüksək keyfiyyətlə həyata keçirilir.

Təsadüfi deyil ki, Əlahiddə Ümumqoşun Ordu indiki MDB-yə üzv ölkələrin silahlı qüvvələri arasında özünün yüksək döyüş qabiliyyətinə görə fərqlənir. Bu isə respublikamızda həyata keçirilən hərbi quruculuğun ən mükəmməl nümunələrindən biridir. Bütövlükdə, Naxçıvanın müdafiəsində mətinliklə dayanan Əlahiddə Ümumqoşun Ordu öz missiyasını layiqincə və qətiyyətlə yerinə yetirir.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# Ordun varsa, yurdun da var

Ordu gücdür, qüdrətdir. Ordu qürurdur, xalqın ümid, güvənc yeridir. Dövlətin isə əsas atributlarından biridir. Müdriklər ordunun bir millətin taleyində və tarixində rolunu dəyərləndirərkən "Ordun varsa, yurdun da var" demişlər. Bu gün bizə qələbə sevinci yaşadan, yağı düşmənə layiq olduğu yeri göstərib yurda fərəh gətirən, Qarabağımızda bayrağımızı ucaldıb üzümüzü ağardan Azərbaycan Ordusunun yaranma günüdür.





1918-ci il mayın 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndə qeyd edilmişdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bu qərar Şərqin ilk demokratik dövlətinin öz ordusunu yaratmasına hüquqi əsas verdi.

Amma yaradılan ordu nə müstəqilliyi, nə də özünü qoruya bildi. İşğalçı bolşevik ordusu 1920-ci ildə Azərbaycanı ilhaq etdikdən sonra Müdafiə Nazirliyi də ləğv edildi. "Qırmızı"lara müqavimət göstərən Milli Ordu zabitlərinin bir qismi güllələnərək öldürüldü, bir qismi həyatını sürgünlərdə, zülm və zillət içində keçirdi. Qaçıb canını qurtarmağı bacaran az bir qisim ordu mənsubu isə ömrü boyu mühacirət həyatı yaşamaq məcburiyyətində qaldı...

## Hakimiyyətsizlik və xaos dövrü

1990-cı illərdə dünyada baş verən siyasi kataklizmlər, SSRİ-də gedən proseslər, Qarabağda ermənilərin başladığı separatçı hərəkat, silahsız əhaliyə qarşı edilən vandalizm bizi Milli Ordu yaratmağa məcbur edirdi. Nəhayət, 1991-ci il oktyabrın 9-da Milli Ordunun yaradılması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi. Təəssüf ki, işlər arzu olunan kimi getmədi. Ölkə qaynar qazana bənzəyirdi. Respublikada xaos, özbaşınalıq, hakimiyyətsizlik hökm sürürdü. Vətənin, torpaqların müdafiəsi naminə Silahlı Qüvvələrdə xidmət etmək istəyən vətənpərvər oğullarımız isə istəmədikləri halda bir qrup hakimiyyət davası edən siyasətbazın əsirinə çevrildi, siyasi oyunların oyunçuları oldular. Hər gün torpaqlarımızın itirilməsi haqqında xəbərlər eşitmək, məğlubiyyət acısı almaq ümidlərimizi itirirdi. İş o yerə gəlib çatmışdı ki, dövlət yox olmaq təhlükəsi ilə üz-üzə qalmış, Azərbaycan isə bir neçə yerə parçalanmaq həddinə çatmışdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev fəaliyyətə ordu quruculuğu ilə başladı. Qısa bir zamanda müəyyən siyasi qüvvələrin nəzarətində olan hərbi birləşmələr ləğv edilərək vahid komandanlıq altında birləşdirildi. Ulu Öndər zəngin dövlətçilik təcrübəsi, qətiyyətli və ardıcıl siyasəti ilə çox mürəkkəb şəraitdə ordu quruculuğuna yeni məzmun verdi və ölkədə müasir ordunun formalaşdırılmasının əsasını qoydu.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan az sonra Azərbaycan Ordusu Füzuli istiqamətində hücuma keçərək düşmənə ilk məğlubiyyət acısını yaşatdı, onu sülh danışıqlarına məcbur etdi. Müvəqqəti atəşkəs haqqında saziş imzalandı. Ulu Öndər qeyd edirdi ki, sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

Ümummilli Liderin 22 may 1998-ci il tarixli fərmanına əsasən, 1918-ci il 26 İyun - Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi. Bu tarix hər il rəsmi dövlət bayramı kimi qeyd edilir. 1998-ci ildə Milli Ordunun yaranmasının 80 illiyi münasibətilə keçirilən tədbirdə ölkədə mükəmməl bir ordunun yarandığını Azərbaycan dövlətinin uğuru kimi qeyd edən Ulu Öndər deyirdi: "Azərbaycanın dövlət müstəqilliyinin ən dəyərli nəticələrindən biri Azərbaycanın Milli Ordusunun yaranması, təşkil olunması və onun müasir tələblərə uyğun hazırlanmasıdır. Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır. Biz bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, tarixi nöqteyi-nəzərdən çox qısa zamanda Azərbaycanda güclü Milli Ordu yaranıbdır".



## Strateji hesablamalar, dəqiq nəticələr

Əslinə qalsa, ölkəmizdə ordu quruculuğunun təməli Ümummilli Lider Heydər Əliyevin birinci hakimiyyəti illərində qoyulmuşdur. Fəhmi ilə hadisələri qabaqlamağı bacaran, tədbirli xüsusiyyəti ilə seçilən xalqımızın dahi oğlu 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin təşkil olunmasına, həmçinin daha çox azərbaycanlı gəncin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə qəbul edilməsinə nail olmaqla bugünkü müstəqil dövlətimiz üçün peşəkar zabit kadrlarının hazırlanması işinin əsasını qoymuşdu. Nəticədə keçən əsrin 70-ci illərinin sonlarında ittifaqın 45-dən artıq ali hərbi məktəbinə ildə Azərbaycandan 800-900 nəfər gənc göndərilirdi. SSRİ-nin müxtəlif hərbi hissələrində qulluq edən soydaşlarımız sonradan yaranan Azərbaycan Ordusunun təşkilatçıları, onun sıralarında şərəflə qulluq edən zabitləri oldular.





## Ordu quruculuğunda yeni mərhələ

Hakimiyyətə gəldiyi gündən Heydər Əliyev siyasi kursunu davam etdirəcəyini bəyan edən Prezident İlham Əliyev ordu quruculuğu sahəsində də bu ənənəni layiqincə davam etdirdi. Yeni zabit kadrların hazırlanmasına, təchizat və təminat işlərinə diqqət artırıldı. Qoşun növlərində yenidən komplektləşdirmələr aparılaraq əsgər və zabitlərin döyüş hazırlıqlarını daha da təkmilləşdirmək məqsədilə hərbi təlimlərə xüsusi önəm verildi. Əsgərlərimiz dost, qardaş ölkələrin orduları ilə birgə təlimlərə cəlb edildi. Ordumuzun yeni, modern silahlarla təchizatı gücləndirildi, dəmir nizam-intizam yaradıldı. Ordumuz dünyada sülhyaratma missiyasını yerinə yetirməyə qadir bir vəziyyətə gətirilərək sülhün və təhlükəsizliyin təminatçısı kimi töhfəsini verməyə başladı. Azərbaycan sülhməramlıları dünyanın bir sıra dövlətlərində, münaqişə ocaqlarında ölkəmizin adını şərəflə təmsil etdilər. Nəhayət, 2020-ci il sentyabrın 27-də düşmənin torpaqlarımıza xaincəsinə hücumunun qarşısı qətiyyətlə alınaraq 30 ilə yaxın bir dövrdə işğal altında qalan torpaqlarımız azad edildi. Ordumuz düşməni sarsıdıcı məğlubiyyətə uğratdı.

Bu gün ordumuzun gücü ilə öyünməkdə haqlıyıq. Artıq Azərbaycan regionun təkcə iqtisadi, siyasi cəhətdən yox, həm də hərbi qüdrətinə görə lider dövlətidir. Ordumuz dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Silahlı Qüvvələrimiz vətənimizi və dövlətimizi bütün təhlükələrdən qorumaq gücünə qadirdir.

Bugünkü ordunu Müzəffər Ali Baş Komandan İlham Əliyev qurub. Bu ordunu qələbəyə onun qətiyyəti, uzaqgörən siyasəti və əzmi apardı. Qazanılan qələbədə, əldə olunan uğurda Ali Baş Komandanın inamlı davranışı, xalqdan aldığı güc və sərkərdəlik qabiliyyətinin rolu misilsizdir.

44 günlük Vətən müharibəsində əldə olunan böyük qələbədən sonra ölkəmizdə ordu quruculuğunun yeni mərhələsinə start verilib. Yeni istehkam bölükləri, Türkiyədə xüsusi təlim keçmiş Komando hərbi hissəsi işğaldan azad olunmuş ərazilərdə şərəflə xidmət edib vətənimizin təhlükəsizliyinin keşiyində ləyaqətlə dururlar. Hadrutda yeni yaradılmış Komando hərbi hissəsinin açılışında iştirak edən Müzəffər Ali Baş Komandan ölkədə ordu quruculuğu sahəsində görülən işlər haqqında danışarkən demişdir: "...Bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq. Müharibədən sonra imzalanmış yeni kontraktlar icra edilir. Yeni kontraktlar əsasında artıq Azərbaycana ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar gətirilir. Biz bunu heç vaxt gizlətmirdik və işğal dövründə hərbi paradlarda dəfələrlə nümayiş etdirmişdik".

Bu gün ordumuzla fəxr etməkdə tam haqlıyıq. Müzəffər Ordumuz torpaqlarımızı azad, ərazi bütövlüyümüzü bərpa etdi. Canları, qanları ilə tarix yazıb bayrağımızı ucaldan, gecəsini gündüzünə qatıb Vətəni qoruyan oğullarımızın hər zaman başları beləcə uca olsun!

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



# Hərb salnaməmizin fəxarət ünvanı

## Müzəffər Azərbaycan Ordusunun maddi-texniki təchizatı və yüksək döyüş qabiliyyəti daim artırılır









Azərbaycan müstəqillik qazandıqdan sonra ordu quruculuğu sahəsində daim islahatlar həyata keçirilib. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra hərbi sahədə də dönüşə nail ola bildi. Ulu Öndər vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratdı. Dahi şəxsiyyətin 22 may 1998-ci il tarixli sərəncamı ilə 26 iyun tarixi Silahlı Qüvvələr Günü kimi qeyd olundu.

2003-cü ildən isə Prezident İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu prosesində yeni mərhələ başlandı. Ali Baş Komandanın diqqət və qayğısı sayəsində orduda peşəkarlığın artırılması, onun ən müasir silah və texnika ilə təchizatı daim əsas prioritetlərdən birinə çevrildi.

Torpaqlarımızın 20 faizinin Ermənistanın işğalı altında olması hərbi sahədə islahatları önə çəkirdi. Ötən illər ərzində ordumuz gücləndi. 2016-cı ilin Aprel döyüşləri zamanı rəşadətli ordumuzun göstərdiyi hünər orduda islahatların necə sürətlə getdiyinin əyani sübutu oldu. 2020-ci il sentyabrın 27-də başlanan və noyabrın 10-da başa çatan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılan Şanlı Zəfərimiz isə Azərbaycan Ordusunun dünya ölkələrinin güclü silahlı qüvvələri ilə bir sırada olduğunu bir daha sübut etdi. Qələbənin şərəfinə dekabrın 10-da Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda möhtəşəm Zəfər Paradı keçirildi. Paradda Azərbaycan Silahlı Qüvvələrinin malik olduğu müasir silah və texnikalar, həmçinin düşmənin döyüş meydanında məhv edilən və ya qənimət kimi ələ keçirilən silah-sursatı nümayiş olundu.

Müharibədən sonra da hərbi sahənin inkişafı, bu sahədə digər ölkələrlə əməkdaşlıq davam edir. Xüsusən Türkiyə ilə müttəfiqlik fonunda qardaş ölkənin ordu modeli tətbiq olunur, birgə hərbi təlimlər keçirilir.

### Ordu quruculuğunun müasir mərhələsi

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elman Məmmədov qəzetimizə açıqlamasında deyib ki, bu gün Azərbaycanda ordu quruculuğu çox yüksək səviyyədədir. Təbii ki, torpaqlarımızı işğaldan azad edən qalib ordumuzla fəxr edirik.

Onun sözlərinə görə, bugünkü yüksək döyüş qabiliyyətinə malik ordunun yaradılması üçün ölkəmizə uzun illər lazım olub. Azərbaycanda 1991-ci ilin payızında Müdafiə Nazirliyi yaradılsa da, ancaq adı var idi, heç bir maddi-texniki, silah-sursat bazası, kadr ehtiyatı olmayan qurum kimi yaradılmışdı. Ulu Öndərin hakimiyyətə qayıdışının ilk günlərindən Azərbaycanda ordu quruculuğuna çox ciddi diqqət ayrıldı. Həmin tarixdən ordu quruculuğu geniş vüsət aldı.

Deputat vurğulayır ki, Prezident İlham Əliyevin hakimiyyəti dövründə də ordu quruculuğuna ayrılan diqqət, qayğı göz önündə olub. Azərbaycan hökuməti ordumuzun təminatı, inkişafı, döyüş qabiliyyətinin yüksək səviyyədə olması üçün büdcədən kifayət qədər vəsait ayırır. Bu il də bu məsələyə yenidən baxılıb, orduya ayrılan maliyyə vəsaiti artırılıb.

Deputat deyir ki, bugünkü Azərbaycan Ordusu döyüş qabiliyyəti, hazırlıq səviyyəsi ilə dünyanın aparıcı dövlətlərinin orduları sırasında yer alır: "Deyilənlər özünü 44 günlük Vətən müharibəsində də təsdiqlədi. Azərbaycan Ordusu yeni dövrün ədalətli müharibəsini apardı və qalib ordu adını qazandı".

Deputat bildirir ki, Vətən müharibəsində ordumuzun apardığı unikal, hərb elminin ən yüksək nailiyyətlərinə əsaslanan əməliyyatların təcrübəsi bu gün dünyanın bir çox ordularında öyrənilməkdədir.

### Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malikdir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev də qeyd edir ki, bu gün Azərbaycan Ordusu müasir silahlarla təchiz olunmuş, həm dağ, həm səhra, həm də suda və havada müharibə apara bilən, döyüşkən ordudur.

Deputat bildirdi ki, 104 il öncə yaranan Azərbaycan Ordusu Xalq Cümhuriyyəti süquta uğrayandan sonra dağıldı. 1991-ci ildə müstəqillik bərpa edildikdən sonra isə ölkədə yaranan xaotik vəziyyət, hakimiyyət mübarizəsi ciddi ordunun yaranmasına mane oldu. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra məhz Azərbaycan Ordusunun yaranması istiqamətində ciddi addımlar atdı. Ordunun yaranması məsələsi böyük vəsaitlərə bağlıdır. Məhz "Əsrin müqavilə"si imzalandıqdan sonra ondan gələn gəlirin ordu quruculuğuna yönəldilməsi ən önəmli məsələ idi və bu istiqamətdə görülən işlər öz bəhrəsini verdi.

Arzu Nağıyev qeyd edir ki, Ulu Öndərin vaxtilə yaratdığı Hərbi Akademiya, eyni zamanda hərbi məktəblərin milli məzunlarının Azərbaycan Ordusunda təmsil olunması götürülən kursun məqsədyönlü olduğunu göstərdi. Hər cür təhdidin qarşısını almaq üçün həm NATO, həm də digər standartlara uyğun orduya ehtiyac var idi. 44 günlük Vətən müharibəsi, ondan əvvəl Tovuz və Lələtəpə əməliyyatları bir daha göstərdi ki, Azərbaycan Ordusu müasir silahlardan istifadə etmək bacarığına malikdir və ciddi kadr potensialı var. Bu gün hər bir Azərbaycan vətəndaşı döyüşkən ordusu ilə fəxr edir.

Deputat dedi ki, Vətən müharibəsi hibrid müharibənin nə olduğunu, PUA-lardan istifadə etmək üçün ciddi kadr potensialı yetişdirməyin vacibliyini göstərdi: "Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu ilə bağlı atdığı addımlar öz bəhrəsini verdi və verməkdədir. Artıq bu gün ordumuz həm Azərbaycan hərbi-sənaye kompleksinin istehsalı olan, həm də xaricdən alınan silahlarla silahlanıb və yüksək döyüş qabiliyyəti var".

Arzu Nağıyev ən mühüm məsələlərdən birinin Qarabağ ərazisində Türkiyə standartlarına uyğun komando tipli hərbi hissələrin yaradılması olduğunu qeyd edir. Bu da Türkiyənin Azərbaycanla əməkdaşlığından doğan məsələdir. Türkiyə NATO-nun üzvü olduğundan NATO standartlarını mənimsəyib. Əməkdaşlıq digər dövlətlərlə də davam etdirilir. Hər bir vətəndaş inanmalıdır ki, onun arxasında güclü ordu durur. Ordunun formalaşması üçün əsas məsələ vəsait, ciddi texnika, müasir texnologiyaların olması, dünyada baş verən hadisələri təhlil edib nəticələr çıxarmaq və döyüş ruhunu yüksəltməkdir.

### Qızıl zəfər tarixini yazan ordu

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşir oğlu qəzetimizə açıqlamasında bildirir ki, Azərbaycan Ordusu mötəbər beynəlxalq reytinq cədvəllərinə görə, dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Onun sözlərinə görə, Azərbaycanın hərbi gücünə görə bərqərar olduğu yer kifayət qədər qənaətbəxşdir, çünki ölkəmizin müstəqillik tarixinin yaşı cəmi 30-a bərabərdir. Deməli, Azərbaycan qısa zamanda dünyanın ən güclü ordularından birinə malik ola bilib.

Deputat xatırladır ki, Ümummilli Lider Heydər Əliyev xalqın xahişi ilə Azərbaycanda ikinci dəfə ali siyasi hakimiyyətə qayıtdıqdan sonra milli ordu quruculuğunun həyata keçirilməsini şərtləndirəcək çox təsirli addımlar atıb. Ölkədə öncə siyasi sabitlik təmin olundu, milli iqtisadi sistemin elementləri formalaşdırıldı. Təbii ki, milli ordu quruculuğu üçün bu şərtlərin təmin olunması çox vacib idi. Ordu quruculuğunu keyfiyyətli həyata keçirmək üçün böyük maliyyə resursları tələb olunurdu.

Ulu Öndərin siyasi iradəsi, uzaqgörən strateji baxışları sayəsində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bundan sonra Azərbaycan iqtisadiyyatına sərmayələr cəlb olunmağa başlanıldı, ölkədə güclü iqtisadi sistem formalaşdı və sürətlə inkişaf etməyə başladı. Beləliklə, ordu quruculuğunu həyata keçirmək üçün resurslar meydana gəldi.

Elşad Mirbəşir oğlu qeyd edir ki, Ermənistanın işğalçılıq siyasəti Azərbaycana ordusunu daha müasir tələblərə, ciddi çağırışlara cavab verəcək səviyyədə qurmağa sövq edirdi: "Ulu Öndər də, Prezident İlham Əliyev də hər zaman ordumuzun gücünün torpaqlarımızın hərbi yolla işğaldan azad etməyə çatdığını qeyd edirdilər. Ulu Öndər çox böyük inamla deyirdi ki, biz öz torpaqlarımızı işğaldan azad edəcəyik, doğma yurdlarımıza qayıdacağıq".

Deputat Ulu Öndərin ideyalarının davamçısı, bu ideyaları müasir dövrün tələbləri ilə zənginləşdirərək həyata keçirən Prezident İlham Əliyevin misli görünməmiş iradə, hərbi-siyasi strategiya keyfiyyətləri nümayiş etdirərək torpaqlarımızı işğaldan azad etdiyini vurğuladı. Onun rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusu xalqımızın qızıl zəfər tarixini yazdı. Bu, dünyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan Ordusu dünyanın ən gücü orduları sırasındadır. Azərbaycan torpaqlarını işğaldan azad edən zaman ən müasir hərbi taktika və strategiyadan istifadə etdi. Ordumuzun texniki təchizatı dünyanın heyrətinə səbəb oldu. Hətta dünyanın ən inkişaf etmiş ölkələri belə Azərbaycanın 2020-ci ilin payızında apardığı müharibədən sonra öz müdafiə sistemlərinə yenidən baxmalı olacaqlarını etiraf etdilər. Bunlar onu göstərir ki, Azərbaycanda ordu quruculuğu böyük həssaslıqla, ən müasir tələblərə uyğun şəkildə həyata keçirilir. Prezident İlham Əliyev hər zaman ordunun müdafiə qabiliyyətinin, şəxsi heyətin hazırlıq səviyyəsinin, döyüş qabiliyyətinin yüksəldilməsini, maddi-texniki bazanın yaxşılaşdırılması məsələsini diqqət mərkəzində saxlayır.

Deputat qeyd edir ki, Azərbaycan Ordusuna ayrılan vəsait bütövlükdə az qala Ermənistanın dövlət büdcəsinə bərabərdir. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu ən qüdrətli ordular sırasında bərqərar olub.

Onun sözlərinə görə, Silahlı Qüvvələrin ən müasir tələblərə cavab verəcəyi səviyyəyə gəlməsində düzgün yanaşma çox təsirli rol oynayır. Uyğun dövlətlərlə hərbi sahədə əməkdaşlığın həyata keçirilməsi, xüsusən qardaş Türkiyə ilə bu istiqamətdə geniş əməkdaşlığın olması Azərbaycan Ordusunun gücünü, qüdrətini, döyüş qabiliyyətini şərtləndirən əsas amillərdir. Azərbaycan hərbi sahədə Rusiya, Pakistan, İsrail, Belarus ilə də yaxından əməkdaşlıq edir. Bu ölkələrin də hərbi gücü kifayət qədər yüksəkdir və belə əlaqələr ordunun güclənməsinə hər zaman öz töhfəsini verir.

Elşad Mirbəşir oğlu Prezidentin Azərbaycan Ordusunun daha güclü olmasının vacibliyini hər zaman vurğuladığını və sonuncu çıxışlarının birində güc amilinin təsirli rol oynadığını xatırladıb. "Azərbaycan hər zaman hərbi, iqtisadi, siyasi cəhətdən güclü olmalıdır. Cənab Prezidentin rəhbərliyi altında ölkəmiz bu gücü hər zaman özündə saxlayır və daha da artırır", - deyə o bildirib.

### Silahlı Qüvvələrimizin imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb

44 günlük Vətən müharibəsində könüllü iştirak edən Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti, jurnalist Rəşad Baxşəliyev 2001-2003-cü illərdə taqım komandiri kimi hərbi xidmət keçib. Cəbrayıl, Qubadlı, Xocavənd, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edən R.Baxşəliyev hərbi xidmət keçdiyi dövrlə müharibə dövründəki vəziyyəti müqayisə edərək deyir ki, 2001-2003-cü illərdə islahatlara yeni başlayan Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətində vətənpərvərlik, döyüş əzmi yüksək olsa da, hərbi təchizat indiki kimi deyildi.

Onun sözlərinə görə, 2000-ci illərin əvvəlində sovet dövründən qalmış hərbi texnikalardan, silah-sursatlardan istifadə edilirdi. Ordumuzun ümumi təminatı bu gün olduğu kimi ən müasir standartlar səviyyəsinə çatmamışdı.

Rəşad Baxşəliyev Vətən müharibəsində tam başqa - istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir qüdrətli ordu gördüyünü vurğulayır: "Vətən müharibəsinədək ordumuzun gücü bəlli idi, paradlarda qoşunların arsenalına hansı hərbi texnikaların daxil edildiyini görmüşdük, ancaq 44 günlük savaş onların döyüş qabiliyyətini ortaya qoydu".

Ehtiyatda olan zabit söyləyir ki, İkinci Qarabağ müharibəsinədək ordumuzun uğurlu Aprel, Günnüt və Tovuz döyüşləri olub, lakin həmin döyüşlərdə Silahlı Qüvvələrin arsenalında olan az qisim hərbi texnika və silah-sursatdan istifadə edilib. 2016-cı ilin Aprel döyüşləri isə Vətən müharibəsinə gedən uğurlu yolun başlanğıcı oldu. Bu döyüşlər zamanı nəinki Ermənistan, dünya da Azərbaycan Ordusunun qüdrətinə, döyüş əzminə əyani şahidlik etdi. Biz həmin vaxt Cocuq Mərcanlının timsalında uzun illərdən sonra ilk dəfə azad vətən torpaqlarına ayaq basdıq. Üçrəngli bayrağımız Lələtəpədə qürurla dalğalandırıldı. Aprel zəfəri işğal altında qalan digər yurdlarımızın da tezliklə azad olunacağının, böyük qələbənin carçısı oldu. Aprelin 2-dən başlayan hərbi əməliyyatlar nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etsə də, döyüşçülərimizin şücaəti qarşısında geri otuzduruldu. Ümumilikdə bu döyüşlər hər kəsə Azərbaycan Ordusunun öz torpaqlarını hərb yolu ilə işğaldan azad etmək əzmində olduğunu göstərdi və orduda, xalqda inam yaratdı.

Hərbçimiz vurğulayır ki, Aprel döyüşləri bizim şanlı qələbəmizin başlanğıcı idi. Bu düşmənə də xəbərdarlıq idi ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü bərpa etmək gücündədir. 2018-ci ilin mayında Naxçıvanın Şərur rayonunun Günnüt kəndinin də işğaldan azad edilməsi, dövlət sərhədi boyunca əlverişli mövqelərimizin ordumuzun nəzarətinə keçməsi ruh yüksəkliyi yaratdı. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsi isə Azərbaycan Silahlı Qüvvələrinin gücünü, şəxsi heyətin döyüş ruhunu, əzmini dünyaya nümayiş etdirdi.

Rəşad Baxşəliyev Vətən müharibəsi zamanı işğalçı ölkə qarşısında 1990-cı illərin əvvəllərində olduğu kimi, pərakəndə hərbi dəstələr deyil, peşəkar, ən müasir silahlarla təchiz olunan, döyüşkən və regionun ən güclü nizami ordusu olduğunu deyir: "Qürurverici hal idi ki, müharibə başlayan gündən Silahlı Qüvvələrin şəxsi heyəti qisas və qələbə hissi ilə döyüşə girmişdi. Azərbaycan əsgəri yalnız öz gücünə, peşəkarlığına, xalqına və ən əsası, Ali Baş Komandanı İlham Əliyevə güvənərək ərazi bütövlüyümüzün bərpasına qadir olduğunu dünyaya nümayiş etdirdi".

Müsahibimiz qeyd edir ki, Azərbaycan dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları silahlara, texnikalara sahibdir. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb. Silahlı Qüvvələrimizin hədəfi son dərəcə yüksək dəqiqliklə vuran və qarşısıalınmaz zərbə gücünə malik silahlarla, düşmənin ağır texnikasını və canlı qüvvəsini darmadağın edən pilotsuz uçuş aparatları ilə tam modernləşdirilməsi Azərbaycanda ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlərdəndir. Son bir neçə ilin statistikasına əsasən, Azərbaycan müasir silahlanmaya görə Avropada 2-ci, dünyada 3-cü yerdə qərarlaşıb. Şübhəsiz ki, bütün bu uğurlar həyata keçirilən məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub. Əgər belə olmasaydı, Azərbaycan BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra və cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi.

Ehtiyatda olan hərbçi hesab edir ki, hərbi sənaye kompleksini də formalaşdıran Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Azərbaycan öz ordusunu istehsal olunan yerli hərbi təyinatlı məhsullarla əhəmiyyətli dərəcədə təchiz edə bilir. Bütün bunlar göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində kompleks islahatlar aparılır.

Müsahibimiz ötən ilin dekabrında yaradılan komando tipli hərbi hissələrdən də söz açıb. O, bu yeniliyin ordu islahatları sırasında mühüm yer tutduğunu qeyd edir. Onun sözlərinə görə, hərbi əməkdaşlıq sayəsində Türkiyə modelinə uyğun yaradılan komando tipli hərbi hissələrdəki hərbçilərin hər biri Türkiyədə təlim keçiblər. Bu, ordunun düşmənə daha çevik cavab verə biləcək qabiliyyətdə olmasını təmin edir və Silahlı Qüvvələrimizin ərazilərimizin təhlükəsizliyinin təmin olunması üçün daha da təkmilləşməsinə şərait yaradır.

### Dövlət siyasətinin əsas istiqaməti ordu quruculuğudur

Ümumiyyətlə, nizami ordu quruculuğu sayəsində ötən əsrin sonlarından Ümummilli Lider Heydər Əliyev tərəfindən başladılan islahatlar bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.

Ordu quruculuğu sahəsində görülən bütün işlərin, hərbi sahənin inkişafının, bu sahədə kadr potensialının artırılmasının nəticəsini Vətən müharibəsi zamanı rəşadətli ordumuzun şanlı qələbəsi əsasında gördük. Təbii ki, müharibədən sonra da ordunun inkişafı istiqamətində davamlı addımlar atılır.

Prezident İlham Əliyev hər zaman ordu quruculuğunun Azərbaycanın dövlət siyasətində ilk yerdə durduğunu, ordumuzun gündən-günə gücünü artırdığını bildirir. Ordunun döyüş qabiliyyəti bu gün dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Aparılan təhlillər, mütəxəssislərin müsbət fikirləri həm döyüş qabiliyyəti, həm hərbi-texniki təminat baxımından Azərbaycan Ordusunun güclü ordular sırasında olduğunu göstərir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Yaşat ki, yaşayasan!

2020-ci il planetimizin insanlarının yaddaşında COVID-19 pandemiyası ili kimi qalsa da, Azərbaycan tarixinə öz möhürünü 44 günlük Vətən müharibəsi ilə vurdu. Azərbaycan əsgəri canı, qanı ilə zəfər salnaməmizin ən şanlı səhifəsini yazdı. Xalqımızın qəhrəman oğulları yurdu yaşatmaq üçün bir yumruğa döndülər. Birliyimizin, gücümüzün rəmzi olan "Dəmir yumruq" düşmənə sarsıdıcı zərbə endirdi. Oğullarımız Vətən dedilər, torpaq dedilər... Kimi bu müharibədə canı ilə, kimi də mənəvi dəstəyi ilə bu savaşa qatıldı.















Ermənilərlə aparılan bu qanlı haqq savaşında 2927 gəncimiz "Təki vətən yaşasın" deyib ömürlərini vətənə fəda etdi. Minlərlə gəncimiz isə bu qanlı savaşda qazi oldu. 2020-ci ildə tarixin yaddaşına həm də vahid millət, güclü dövlət kimi düşdük. Sevincimiz bir olduğu kimi, dərdimiz də bir oldu. Müharibənin gətirdiyi ağrıya-acıya da şərik çıxdı xalqımız. İnsanlarımız Vətənə dayaq oğullara arxa durmaq niyyətlərini ortalığa qoydular. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı yaralananların və şəhid ailələrinin təminatına dəstək olmaq, yaşatmaq üçün "Yaşat" Fondu yaradıldı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan 2020-ci il 8 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış "YAŞAT" Fondu vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə qaydasını təsdiq etdi.

Müharibənin ağrısını, acısını görmüş, çətin yollardan keçmiş insanlar "Yaşat" Fondunda işlə təmin olundular. Silah yoldaşlarının, Vətən yolunda can qoymuş igid oğulların bir-bir qapılarını döyüb, problemlərini öyrəndilər. Qısa bir zamanda bu fond müharibənin şərəfli, çətin, əzablı yollarından keçmiş insanların ümidlərini, arzularını yaşadan gerçək bir ünvan oldu. "Yaşat" Fondunun fəaliyyətindən danışarkən başlıca olaraq bir məsələni xüsusi olaraq qeyd etməyi vacib bilirik. Şəffaflıq və dürüstlük burada başlıca meyardır. Fondda toplanan vəsaitin və görülən işlərin vaxtaşırı xalqa hesabatı verilir. Bu günlərdə açıqlanan hesabatda görürük ki, indiyə kimi fondun hesabına 73781 435.79 manat vəsait mədaxil olub.

Fondun işçiləri onlara yardım edən könüllülərlə birlikdə hesabat dövründə 2 927 şəhidin ailə üzvləri ilə, eyni zamanda 5 599 yaralı olmaqla ümumilikdə 16 966 şəxslə görüşüb, ehtiyaclarını öyrəniblər. 12 526 şəxsin, ümumilikdə 26 616 müraciəti icra üçün nəzarətə götürülüb. Ümumilikdə bu müddətdə 61 114 757.86 manat məbləğində vəsait xərclənib.

## Öncə Vətəndir

Dünyada bir qəlbiqırıq insanı sevindirməkdən, ehtiyacı olana yardım etməkdən müqəddəs, humanist iş yoxdur. Canlarını fəda edənlər xalqımızın müdrik xalq olduğunu, onların fədakarlıqlarının heç vaxt unudulmayacağını bildikləri üçün döyüşə gedərkən gözləri arxada qalmadı. Yaxşı bilirdilər ki, dövlətimiz, onun başçısı, xalqımız ailələrinə, qoyub getdiyi yadigarlarına sahib çıxacaq, övladlarını göz bəbəkləri kimi qoruyub, dərdlərinə məlhəm olacaqlar. Döyüşə gedərkən də bir arzuları, bir istəkləri var idi. Vətənin işğal olunmuş ərazilərini işğalçılardan azad etmək, müqəddəs bayrağımızı o torpaqlarda dalğalandırmaq. Bu təmənnasız insanlar üçün gerisi təfərrüat idi. Biz bir ölüb, min dirilərik. Doğulan, dünyaya gələn hər bir körpəmiz yenə Vətən deyəcək, bayraq deyəcək. Nə ölümdən qorxacaq, nə vətəni sevməkdən usanacaq. Babalarının, atalarının getdikləri müqəddəs yoldan keçəcəklər.

27 sentyabr 2020-ci il tarixdən sonra 102 şəhid övladı dünyaya gəlib. Ömürlərini vətənə bağışlayıb övladlarını bizlərə əmanət etmiş qəhrəmanlarımızın övladlarına Vətənin bir parçası kimi baxmaq, onları sevmək, qorumaq hər bir azərbaycanlının vəzifəsi oldu. "Yaşat" Fondunun hesabatından da göründüyü kimi, "Onlar bizə əmanətdir" layihəsi çərçivəsində yeni doğulmuş şəhid övladlarına xüsusi diqqət yetirilir. Dünyaya gələn körpələr böyüdükcə biləcəklər ki, ürəklərində dağ boyda vətən sevgisi gəzdirmiş atalarının fədakarlığı xalqımız, dövlətimiz tərəfindən daim dəyərləndirilir. Dünyaya gələn hər bir şəhid övladının zəruri xərclərinin qarşılanması məqsədilə fond tərəfindən ilkin olaraq 1000 manat məbləğində maddi yardım edilib və şəhid övladlarının adına 5000 manat məbləğində bankda depozit hesabı açılıb.

Bununla belə, hər şeydə nöqsan tapmağa çalışan, yaxşını qoyub pisi danışan vətəndaşlarımız da tapılır. Görülən işləri hətta məqsədli şəkildə gözdən salmağa çalışanlar da var. Onu da bilirik ki, bu cür insanlar həmişə olub və olacaqlar. Xatırladaq ki, bu vəsaitlər "Yaşat" Fondunun hesabına edilənlərdir. Bu gün şəhid və qazi ailələri dövlətin tam nəzarətindədir. Onların qayğıları dövlət tərəfindən öyrənilir və lazımi tədbir görülür. Şəhid və qazi ailələri evlə, maşınla təmin edilir, digər sosial məsələləri vaxtında həllini tapır.

## Vətəni sevmək imandandır

Vətən sevgisi ana sevgisi qədər müqəddəsdir. Doğma yurdun müdafiəsinə qalxan, canlarını bu yolda fəda edən insanlarımız ruhən zəngin, şərəfli oğullarımızdır. Amma onu da bilirik ki, onların bəzilərinin ailələrinin, valideynlərinin sosial, məişət problemləri olub. İçərilərində qayğıya ehtiyacı olan ailələr də var. Canını vətənə bağışlamış oğullarımızın ailə üzvləri, valideynləri, övladları hər şeyin ən yaxşısına haqq edirlər. Qeyd etmək lazımdır ki, bu cür ailələr həm dövlətin, həm də qədirbilən xalqımızın daim diqqət mərkəzindədirlər və onlar qayğı, sevgi ilə əhatə olunublar. Elə yalnız "Yaşat" Fonduna məişət şəraitinin yaxşılaşdırılması üçün şəhid ailə üzvləri tərəfindən 4 417, itkin düşmüş ailə üzvləri tərəfindən 7 və qazilərin ailə üzvləri tərəfindən 5 791 müraciət olmuşdur. Ümumilikdə isə 10 215 müraciətə baxılaraq təmin edilmişdir.

Eyni zamanda istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə şəhid ailə üzvlərinin 832, itkin ailə üzvlərinin 3 və yaralıların 1166 müraciəti olmaqla, ümumilikdə 2001 müraciətə baxılaraq fondun təşəbbüsü ilə borc öhdəliyinin qarşılanması məqsədilə müəssisələr tərəfindən 125 926.74 manat vəsait ödənilmişdir. Ümumilikdə fond tərəfindən istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması üçün 6 336 540.51 manat vəsait sərf edilib.

## Ən böyük sərvət elmdir

"Yaşat" Fondu şəhid və qazi övladlarının, vətənin gələcəyi olan körpələrin işıqlı sabahı, yüksək təhsil almaları üçün bütün imkanlarını səfərbər edib desək, yanılmarıq.

Hesabat dövründə Dövlət Agentliyinin "Yaşat" Fondu ilə iş şöbəsi Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Türk Dünyası Bakı Atatürk Liseyi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, Hədəf Liseyi, Kaspi Tədris Mərkəzi, Evrika Liseyi və Dünya Məktəbi arasında şəhid övladlarının ödənişsiz təhsil almaları məqsədilə niyyət protokolu imzalanıb. Bununla yanaşı, "Dərs evi" tədris mərkəzi, "İnnab Business School", "SAT Group", "Data Science Academy" və "Mars Academy" təlim-tədris mərkəzi ilə əməkdaşlıq əlaqələri qurulub.

2021-2022-ci tədris ili üzrə rəsmi olaraq akkreditasiya edilmiş ali təhsil müəssisələrinə qəbul olmuş şəhid ailələrinin üzvlərinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara "Yaşat" Fondu tərəfindən birdəfəlik pul mükafatı - 2000 AZN təsis edilib. 47 şəxsə (29 şəhid ailə üzvü və 18 yaralı) 2000 manat vəsait köçürülüb.

Bundan əlavə, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 176 və yaralıların 39 müraciəti olmaqla ümumilikdə 215 müraciətə baxılıb.

Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən 254 637.99 manat vəsait qarşılanıb. Eyni zamanda təhsil haqqı qarşılanan 94 şəxsin ödənişi fond tərəfindən, 72 şəxsin isə ödənişi fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən həyata keçirilib.

## Sağlam bədən sağlam ruhun açarıdır

Vətən müharibəsində yaralanan, sağlamlığını itirən gənclərimizin həyatı, onların problemlərinin həlli dövlətimizin və xalqımızın həmişə diqqət mərkəzində olub. Bu kateqoriyaya mənsub həmvətənlərimizin müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 4 907 və yaralıların 4 483 müraciəti olmaqla, ümumilikdə 9 390 müraciət təmin edilib. "Yaşat" Fondu gənclərimizin sağlamlıqlarının bərpası istiqamətində durmadan təxirəsalınmaz tədbirlər həyata keçirir. Belə ki, hesabat dövründə ümumilikdə 176 şəxs müalicə məqsədilə Türkiyə Respublikasına göndərilmişdir. Müalicəyə göndərilənlərdən 171-i Vətən müharibəsində ağır yaralanmış qazi, 5-i isə şəhidlərimizin ailə üzvü olmuşdur. Türkiyəyə göndərilmiş yaralılardan 148 nəfəri müalicə kursu keçərək geri dönüb. Hazırda 26 qazimiz və 2 nəfər şəhid ailəsi üzvünün müalicəsi Türkiyədə davam etdirilməkdədir.

Eyni zamanda "Yaşat" Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə və müalicə edilib. Görülən işlərin xronikası bununla bitmir.

28 fevral - 7 mart 2021-ci il tarixlərində İsrail dövlətindən hərbçilərin müalicə edilməsi üzrə ölkəmizə 8 ixtisaslaşmış mütəxəssis gətirilib. Ağır göz problemləri olan 148 nəfər müayinə edilib. Onlardan 30 nəfərinin gözündə əməliyyat aparılıb. Əməliyyat nəticəsində 2 nəfərin görmə qabiliyyəti bərpa olunub. Qazilərimizdən 55 nəfərinə isə protez göz qoyulub.

Ciddi fiziki travma alan yaralıların fiziki bərpa prosesini daha da sürətləndimək məqsədi ilə fond tərəfindən xaricdən 38 999.00 manat dəyərində "RGO" ortopedik cihazlar alınaraq ölkəmizə gətirilib. Avadanlıqdan 8 yaralının müalicəsində istifadə olunub.

Gün ərzində 35-40 nəfər yaralının müalicəsində istifadə edilməsi üçün 47 200 manat məbləğində Giger MD reabilitasiya cihazı alınıb.

2021-ci il 12 avqustda fondun Himayəçilik Şurasının üzvü, Kopenhagen Universitetinin nevrologiya üzrə professoru və baş məsləhətçisi, Beynəlxalq Baş Ağrıları Cəmiyyətinin rəhbəri və İnsan Miqreni Araşdırma Birliyinin direktoru Məsud Aşina tərəfindən 34 nəfər yaralının müayinəsi həyata keçirilib və müalicə istiqamətləri müəyyən edilib.

2021-ci ilin 12 avqustda İsrail dövlətindən gələn həkim tərəfindən 9 nəfər yaralının müayinəsi həyata keçirilib və müalicə istiqamətləri müəyyən edilib.

## Qayğısız həyatı onlar daha çox haqq edirlər

Torpaqlarımıza azadlıq, insanlarımıza qürur yaşadan şəhidlərin, qazilərin övladları daha çox qayğısız həyatı haqq edirlər. Şəhid və qazi övladlarının qayğılarını azaltmaq, onların mənalı istrahət etmələri üçün "Yaşat" Fondu və "Asan Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə tədbirlər görülüb. 2021-ci il 12 iyuldan 2021-ci ilin 28 avqust tarixinədək 3 fərqli yaş qrupunu əhatə edən şəhid övladları üçün Lənkəran şəhərində, "Springs Wellness Resort" hotelində 6 düşərgə yaradılıb. Bu, 211 uşağı əhatə edib. Layihə çərçivəsində hər düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, öz sahəsində müsbət imicə malik olan peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramları həyata keçirilib. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edib.

"Yaşat" Fondunun, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Bank Respublikanın dəstəyi və "Asan Könüllüləri" Təşkilatının tərəfdaşlığı ilə 2022-ci ilin 27-30 may tarixlərində Qəbələdə tədbir keçirilib. Layihədə Kürdəmir, Balakən, Şəki, Qəbələ, Şamaxı və İmişlidən idmana marağı olan şəhid övladları iştirak ediblər. Layihə çərçivəsində 8-13 yaş arasında 22 şəhid övladı Qəbələ Olimpiya və İdman Kompleksində peşəkar məşqçi heyəti tərəfindən futbol, taekvando, qaydasız döyüş, cüdo, boks, gimnastika və digər idman növlərinin məşqlərinə cəlb olunublar.

Böyükşəhər Bələdiyyəsinin tərəfdaşlığı ilə "Hədiyyə Karvanı" layihəsi çərçivəsində Tovuz, Ağstafa, Gədəbəy, Gəncə, Goranboy, Naftalan, Ağcabədi, Ağdam, Füzuli, İmişli, Kürdəmir, Mingəçevir, Şəki və Balakəndə 15 yaşadək olan şəhid və qazi övladlarına hədiyyələrin paylanması həyata keçirilib. 2000-dək uşağa hədiyyələr verilib.

Şəhidlərin, qazilərin fədakarlıqları hesabına bu gün Azərbaycanla daha çox fəxr edirik. Onların arzularını yaşatmaq, istəklərini həyata keçirmək, yadigarlarını qorumaq isə bir vətəndaş olaraq hər birimizin borcudur. Xalqımızın dəstəyi ilə yaranan "Yaşat" Fondu bu missiyanı çox uğurla həyata keçirir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*














# Mənim anam qəhrəmandır...





**Zəhra və Mərdan deyir bu sözləri... Onlar İkinci Qarabağ müharibəsinin yeganə qadın şəhidi, 44 günlük qanlı döyüşdə əsgər qardaşlarının yarasını sarıyan, şəfqəti, qeyrəti ilə döyüşən tibb bacısı Arəstə Baxışovanın övladlarıdır. Digər şəhid övladları "Mənim atam qəhrəmandır" deyəndə onlar "Mənim anam qəhrəmandır" deyirlər...**

Vətən müharibəsində şəhid olan, yaralanan qeyrətli, mərd oğullarımız, xalqımızın bu şərəfli tarixini canı ilə, qanı ilə dünyaya bəyan edənlər həmişə anılacaq, sevgi və ehtiramla yad ediləcəklər. Onlar Azərbaycanımızın siması, Vətənin əzəli və əbədi pasportudurlar. Və bu parlaq kəhkəşanda bir ulduz da parlayır - yaxın və uzaq bir ömrün hekayəsinin ulduzu, Qəhrəmanı...

Arəstə Baxışova 2020-ci il oktyabrın 23-də Qubadlı uğrunda gedən döyüşlər zamanı şəhid olub. O, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılıb və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub. Şəhidimizin qəhrəmanlığının sorağı sərhədlərimizi aşıb və o, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətinin təsis etdiyi dünyanın ən nüfuzlu "Florence Nightingale" medalına layiq görülüb.

Övladları hazırda dövlətimizin və bir də anası Məktubə xanımın himayəsi altında və qəyyumluğundadır. Şəhidimizin də vəsiyyəti belə idi.

Uşaqların onsuz da qaysaq bağlamayan yaralarını təzələməmək üçün Məktubə xanımla onlar məktəbdə ikən görüşdük. Onu gördükdə şəhid xanımımızın mərdliyini, məğrurluğunu, qorxmazlığını kimdən aldığını anladım. Övlad itkisinin necə böyük bir faciə, fəlakət olduğunu onun gözlərindən duydum. Bu ağrının ifadəsinin heç bir dildə, heç bir lüğətdə qarşılığı olan söz yoxdur. Gözündə yaş, əlləri övladının rəsmini oxşayaraq başladı sözlərinə. Demə, çox çətin taleyi olubmuş qəhrəmanımızın...

"Uşaqlıqdan heç özünü qız kimi aparmırdı. Məhəlləmizdə demək olar ki, yeganə qız uşağı idi. İki qardaşına baxıb onlar kimi geyinər, onlar kimi futbol oynayardı. Uşaqlıqdan arzusu hərbçi olmaq idi. Həmişə atasının papağını başına qoyub deyirdi ki, mən də atam kimi zabit olacağam. Atasından da doya bilmədi bu həyatda. Arəstə 4 yaşında ikən o, Çernobıl qəzasının aradan qaldırılması zamanı məruz qaldığı şüalanma nəticəsində 33 yaşında vəfat etdi",- deyir Məktubə xanım.

Yeddinci sinfə qədər Xaçmazda təhsil alan Arəstə daha sonra ailəsiylə birgə Bakıya köçür. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Kollecinin İngilis dili fakültəsinə daxil olur. Amma ürəyi onu başqa səmtə çəkirdi. Həmkarı, rəfiqəsi, tibb xidməti baş çavuşu Pərvanə İsgəndərova deyir ki, Arəstənin arzusu hərbçi olmaq idi. Ona görə də ixtisasına uyğun olaraq mülki sahədə işləmədi, ordu sıralarında xidmət etməyi üstün tutdu.

Rəfiqəsi deyir ki, müharibə başlayandan həftədə bir, bəzən iki dəfə yaralıları xəstəxanaya gətirir, tez də geri qayıdırdı. Bu zaman övladlarını belə görməyə vaxtı olmurdu. Darıxsa da, yorulsa da, mətin idi, atəş səslərinə öyrəşdiyini deyirdi.

Azərbaycan Ordusunun çavuşu, hərbi feldşer Arəstə Baxışovanın cəsurluğu, mərdliyi dillər əzbəri idi. O, heç bir qorxu hissi keçirmədən döyüşlərin qızğın getdiyi təhlükəli bölgələrə gedib yaralı əsgərlərə ilk tibbi yardım göstərir, onları atəş altından uzaqlaşdırırdı. Onlarca yaralı əsgər Arəstənin göstərdiyi tibbi yardım sayəsində həyata qayıdıb, yaşam şansı qazanıb. Hətta onlardan çoxu döyüş bölgəsinə qayıdaraq silahdaşları ilə birgə yenidən düşmənə qarşı vuruşub. Elə şəhadətə də döyüş meydanında ucalıb. Kürəyinə alıb daşıdığı yaralı əsgərlə bir yerdə...

Arəstənin döyüş bölgəsində olduğunu anasından gizlədiblər. Son zamanlar anasına ancaq axşamlar zəng edirmiş. Məktubə xanımın sözlərinə görə, demə, döyüşlər səngiyəndə, top-tüfəng səsləri ara verəndə evə zəng edirmiş ki, anası və körpələri duyuq düşüb narahat olmasınlar. Şəhadətindən iki gün öncə zəng edərkən kövrək səslə dediklərini şəhid anası gözüyaşlı xatırlayır, qızının səsinin hələ qulağından getmədiyini deyir. "Ana, nəsə olsa, uşaqlar sənə əmanət, onları səndən başqa heç kimə etibar edib tapşıra bilmərəm",- titrək səslə deyib Arəstə. İndi qızının yalnız anasına etibar etdiyi övladlarında tapır təsəllini Məktubə xanım.

Sonuncu dəfə ölümündən yarım saat əvvəl oğlu Mərdanla danışıb. "Yaxşı oxuyun, nənənizin sözündən çıxmayın", - deyib.

Məktubə xanım "Yaşat" Fondunun maddi-mənəvi dəstəyindən danışaraq onun rəhbərliyinə dəfələrlə təşəkkürünü bildirir. Şəhidimizin övladları özəl məktəbdə təhsil alır, təqaüdlə, yeni evlə təmin olunublar. Yaxşı oxuyurlar. Nənə məhəbbəti, şəfqəti, dövlətimizin qayğısı və diqqətilə uşaqlıq həyatı yaşayırlar... Uşaqlar "Yaşat" Fondunun və "Asan Könüllüləri"nin birgə təşkilatçılığı ilə digər şəhid övladlarıyla birlikdə Lənkəranda yay tətilində olublar. Gənclər və İdman Nazirliyi və "Yaşat" Fondunun dəstəyilə idmanın taekvondo növü ilə məşğul olurlar. Onların ən böyük arzusu Vətəninə, xalqına, anasına layiq övlad olmaq, bayrağımızı ucaltmaqdır.

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Zəfər muzeyi yaradılıb. Burada igidliyi ilə hər birimizə örnək olacaq Arəstə Baxışovanın da əşyaları yer alıb. Onları oğlu öz əlləriylə seçib təqdim edib. Mərdan deyir ki, muzeyin sayəsində anasının necə mərd qadın olduğu, Vətəni üçün canından keçdiyi unudulmayacaq.

Söhbət əsnasında Məktubə xanım bizə qızının fotolarını, təltiflərini də göstərdi. Onların arasında əzilmiş bir vərəq diqqətimizi çəkdi. Mərdanla Zəhranın dərs cədvəli idi. Arəstə şəhid olandan sonra kitelinin cibindən çıxıb. Onun ən böyük arzusu övladlarının yaxşı təhsil alması, özünün həyatda yaşadığı çətinliklərlə onların üzləşməməsi idi.

Gözün arxada qalmasın, Arəstə! Xalqımız, dövlətimiz həmişə onların yanındadır. Əmanətin əmanətimizdir.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
26 İyun - Silahlı Qüvvələr Günü
münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq,
xoş gələcək arzulayır




# Dövlətin gücü ordudan başlayır

**İki il öncə, 2020-ci il sentyabr ayının son günlərində illərdir arsenalını gücləndirən, hazırlıqlar, təlimlər keçən Azərbaycan Ordusu Zəfər yürüşünə başladı. Xalqın ümid və etibar ünvanı olan Silahlı Qüvvələrimizin şəxsi heyətinin ayaq səsləri tezliklə işğal altında olan torpaqlarımızda eşidildi. Düşmənin bağrını yaran bu səs 30 illik həsrətimizə son qoydu və hərb tariximizə şanlı səhifələr yazıldı.**

**Bu gün, 26 İyun - Silahlı Qüvvələr Günü onların günüdür. 104 il əvvəl əsası qoyulan Milli Ordunun bugünkü şücaətindən hazırda qürur duyuruq.**



## Yeni əsrin savaşında Azərbaycan Ordusunun nümunəsi

İkinci Qarabağ müharibəsi XXI əsrin ən müasir texnika və taktikaları ilə həyata keçirilən savaşı idi. Sülhün arzulandığı dünyada müharibə yolverilməz olsa da, bəzən ortaya çıxan situasiyalar qarşısında haqq naminə müharibə aparmaq məcburiyyəti yaranır. Azərbaycan da uzun illərin ardından üzləşdiyi problemi həll etmək, Ermənistanın əməllərinə son qoymaq üçün haqq savaşına başlayıb ordu və millətin dəstəyi ilə dillərə dastan olacaq tarixə imza atdı.

Yeni dövrün müharibəsi PUA-larla aparılan, əzəli müharibə taktikalarının sərhədlərini qıraraq dünyanın marağına səbəb oldu. Dövlətimiz müharibədə bu vasitə ilə Ermənistanın yüzlərlə tankını, döyüş sursatı və zirehli texnikasını məhv etdi. Dünya ölkələrinin tanınmış kütləvi informasiya vasitələrində PUA-ların Azərbaycanın Ermənistan üzərində qələbəsində vacib rol oynadığı, ölkəmizin yeni növ pilotsuz təyyarələrdən uğurla istifadəsi barədə müxtəlif məqalələr dərc edildi. Bununla da şanlı Qələbə ilə yekunlaşan müharibə dünyada müdafiə sənayesi bazarında hərbi məhsullara münasibəti kökündən dəyişdi.

Hərb sənayesində ordumuzun həyata keçirdiyi əməliyyatlar, taktikalar, müharibədəki gedişlər dünya ölkələri tərəfindən öyrənilməyə başlandı. Xüsusilə bu müstəvidə pilotsuz uçuş aparatlarının düşmənin hərbi qüvvələrinin, hərbi obyektlərinin koordinatlarını müəyyənləşdirməsi, zərbələr endirməsi, düşmənin hədəflərinin məhv edilməsinin videogörüntülərini yazması kimi yeniliklər dünyanın daha çox diqqətini çəkdi. Müharibədə PUA-larla çəkilən düşmən texnikasının məhv edildiyini əks etdirən görüntülər isə Azərbaycanın gücünün inkaredilməz olduğunu təsdiqlədi.




## Müharibədən sonra daha da təkmilləşdirilən ordu

Müharibədən sonra da ölkəmizdə ordu quruculuğu sahəsində işlər davam etdirildi, yeniliklərin mənimsənilməsi ilə Silahlı Qüvvələrimizin gücü artırıldı.

Prezident İlham Əliyevin tapşırığı ilə müharibənin nəticələri təhlil edilərək orduda təşkilati tədbirlər həyata keçirildi. Azərbaycan Ordusunda komando hərbi hissəsi yaradıldı. Xüsusi təlim keçmiş hərbi qulluqçulardan ibarət birlik Türkiyənin Dağ Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında "Dağ komando kursu"nu bitirən Azərbaycan Ordusunun hərbi qulluqçularından ibarətdir. Komando birlikləri qısa müddət ərzində hədəfin üzərində kəşfiyyat aparıb, mövcud vəziyyətin qiymətləndirilməsini ortaya qoyaraq bu hədəfi məhv edib tapşırığı tamamlayırlar. Xüsusi ərazilərdə mübarizə apara bilən birlik yüksək fiziki güc və qabiliyyətə sahib olmaqla yanaşı, həm də müasir texnologiyadan istifadə edə bilir.

Komanda hərbi hissələrinin yaradılması müharibədə qazanılmış qələbədən irəli gələn zərurət idi. Yaradılma səbəbi Zəfər olan hərbi hissələr elə qələbədən sonra qaytarılan torpaqlarımızda öz xidmətlərini həyata keçirirlər. Komandolar müasir hərbin ən əsas fiqurlarından biri olduğu üçün ordumuzun qüdrətlənməsində də önəmli rol oynayır.

Böyük uğurlarla hər bir azərbaycanlının qəhrəmanına çevrilən ordumuzun igidləri daim var olduqları müddətdə dövlətin hərbi gücü də bir o qədər sarsılmaz olacaq. Bu gün əminliklə deyə bilərik ki, qüdrətli Azərbaycan Ordusu qarşısında ölkəmizə qarşı heç bir təhdid ola bilməz.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

# Əfsanəvi döyüşçü

## Vətən Müharibəsi Qəhrəmanı Qəzənfər Ağayevin 44 günlük savaşda qəhrəmanlıqlarla dolu döyüş yolu







**Neçə saat idi ki, göz-gözü görməyən dumanda bellərində ağır yük dayanmadan Murovun sıldırım qayaları ilə yuxarı dırmaşır, tez-tez ayaqlarının altından çıxan daş parçaları əks-səda verərək üzüaşağı diyirlənirdilər. Belə halda 34 nəfərlik dəstə üzvləri nəfəslərini içlərinə çəkib bir neçə saniyə sanki daş heykələ dönür, ətrafı dinləyib başqa bir səs gəlmədiyindən əmin olan kimi irəliləyir, bəzən dik və dar cığırlarla sürünə-sürünə yüksəklikdə yerləşən düşmən postuna çatmağa tələsirdilər...**

Getdikcə hava açılırdı, bayaqdan bəri təbii pərdə çəkərək onları düşməndən gizlədən duman seyrəlirdi deyə, dəstənin önündə gedən Qəzənfər öz-özünə düşünməyə başladı ki, artıq aşkar olunmaları an məsələsidir...

Bu an elə ürəyinə dammış kimi sağ-sollarından güllələr şütüməyə başladı. Amma sanki onları Tanrının özü qoruyurdu, yorğun, yüngül silahlanmış, əlverişsiz mövqedə olsalar da, ölüm gülləlləri bu igidlərdən yan keçirdi. Düşmənə 30 illik qəzəblə silahlanmış Qəzənfərgilin hədəfi isə yayınmırdı. Elə buna görə idi ki, bir həmlədəcə mənfur düşmənin onlarca döyüşçüsünü məhv etmiş, digərləri isə qorxularından özlərini sıldırımlardan ataraq qaçmışdılar.

Həmin vaxt sevinc gözyaşları içərisində Azərbaycanın üçrəngli bayrağını Murov silsiləsində dalğalandıran azman döyüşçülər Murovdağ yüksəkliyini azad etdiklərini fəxarətlə komandanlığa məruzə etmişdilər.

Bu igid oğullar adlarını hərb tariximizə Vətən müharibəsi zamanı misilsiz şücaət göstərərək ilk azad edilən torpaqlarımızda bayrağımızı dalğalandıran qəhrəmanlar kimi qızıl hərflərlə həkk etmişdilər...

II Xüsusi Təyinatlı Kəşfiyyat qrupunun komandiri, Vətən Müharibəsi Qəhrəmanı, ehtiyatda olan baş leytenant Qəzənfər Mahmud oğlu Ağayevin rəhbərliyi ilə çox qısa zaman ərzində icra edilən bu uğurlu tapşırıq zamanı nə itkimiz, nə də yaralımız olmuşdu...

### Kəşfiyyatçı olmaq istəyirdi

*1996-cı il oktyabr ayının 13-də Cəlilabad rayonunun Təklə kəndində anadan olan Qəzənfər ipə-sapa yatmaz, dəli-dolu bir uşaq kimi böyüyürdü. İdmanı çox sevir, məktəb illərindən həvəskar kimi boksla, peşəkar olaraq sərbəst güləşlə məşğul olurdu. Eyni zamanda dərslərini də yaxşı oxuyur, dəqiq elmləri, fizika, riyaziyyatı öyrənməyə xüsusi səy göstərirdi. Hələ uşaqlıq dövründən əksər oğlanlar kimi, Qəzənfərin də arzusu polis olmaq idi, amma televiziya verilişlərində Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçılarını görüb çox həvəslənərək kəşfiyyatçı olmaq qərarına gəlir.*

- Həyatda insanı çətinliklər daha çox cəlb edir. Hesab edirəm ki, dünyanın hər yerində hərbiyə həvəsi olanlar bu cür düşünür, amma bizi hərb sənətinə meyilləndirən həm də milli qürurumuz, düşməndən qisas almaq hissi idi.

Onu da deyim ki, hərbçi olub düşməni məhv etmək arzum idi, amma zaman keçdikcə bu, bir məqsədə çevrildi. Düşünürəm ki, tək mən yox, bütün Azərbaycan gəncliyi eyni ruhda, eyni amalla böyüyürdü: bir gün mütləq düşməndən qisas alacağımıza and içmişdik.

### Azərbaycan Ordusunun ən yenilməz silahı

*Akademik Zərifə Əliyeva adına Cəlilabad rayon 7 saylı orta məktəbin məzunu olan Qəzənfər Ağayev arzularının arxasınca gedərək 2013-2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Akademiyasında "qoşun kəşfiyyatı" ixtisası üzrə təhsil alır.*

- Aprel döyüşləri zamanı akademiyanın III kursunda oxuyurduq. O zaman Qaraheybət Hərbi Təlim Mərkəzində təlimlər keçirdik. Xəbər tutduq ki, döyüş başlayıb, böyük coşqu, ruh yüksəkliyi ilə biz də savaşa can atdıq. Eşitmişdik ki, Birinci Qarabağ müharibəsində III kursda oxuyan kursantlar döyüşə leytenant kimi qatılmışdılar, biz isə israrla döyüşə əsgər kimi qatılmaq istəyimizi bəyan etdik. Lakin buna lüzum görmədilər.

Təhsil müəssisəsində bizə ilk təbliğ olunan o idi ki, general da Vətən üçün əsgərdir. Yəni komandir, əsgər anlayışı Azərbaycan Silahlı Qüvvələrində o qədər də önəm kəsb etmir. Bizdə əsas olan döyüş qardaşlığıdır.

Ulu Öndər Heydər Əliyevin təkcə adını yox, eyni zamanda vətəndaşlıq amallarını da özündə yaşadan Ali Hərbi Məktəbdə bu ruhda təhsil aldıq. Müharibədə isə döyüş qardaşlığımız daha yüksək zirvələrə daşındı.

2020-ci ildə Tovuz döyüşləri başlayanda zabit kimi "N" saylı hərbi hissədə xidməti fəaliyyətdə idim. Artıq iyun ayından etibarən ərazi çıxışlarında idik, çətin relyefli yerlərdə təlim keçirdik. Qəhrəman generalımız Polad Həşimovun şəhidlik xəbəri bütün heyətimizi o qədər dərindən sarsıtdı ki, qisas almaq üçün dərhal döyüşlərə qatılmaq istədik. Lakin o vaxt savaşda iştirak bizə qismət olmadı. Azərbaycan Ordusunun digər cəsur döyüşçüləri qısa zaman ərzində mənfurlara layiqli cavab verərək onları yerlərinə otuzdurdular.

Düşmənlə hər çarpışmada Azərbaycan Silahlı Qüvvələrinin onları əzib keçməsi təsadüfi xarakter daşımırdı. Bu qüdrətin arxasında Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müasir, nizami və güclü ordu quruculuğu siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dururdu. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və nəzarəti altında ordu quruculuğu prosesi yeni keyfiyyət mərhələsinə yüksəldi, ordumuz ən müasir texnika və silahlarla təmin olundu, ölkəmizin hərbi sənaye kompleksi inkişaf etdirildi. Görülən işlərin nəticəsində Azərbaycan Ordusu yüksək döyüş hazırlığında və istənilən tapşırığı yerinə yetirmək əzmində oldu.

Azərbaycan Ordusunun ən yenilməz silahı isə bütün döyüşçülərində olan ruh yüksəkliyi, güclü vətənpərvərlik hissləri idi.

### "Son gülləmiz, son nəfərimiz qalsa belə o tapşırıq icra olunmalı idi"

*2020-ci il sentyabr ayının 23-də Qəzənfərin qız övladı dünyaya gəlmişdi. O, körpə Əsnanı sadəcə bir gün, sentyabrın 24-də xəstəxanadan evə çıxaran zaman görmüşdü. Səhərisi Cəlilabaddan Bakıya yollanmış, sentyabrın 26-sı axşamüstü isə evə gəldikdən yarım saat sonra düşmən tərəfində hərəkətlənmə müşahidə edildiyi üçün dərhal xidməti yerinə çağırılmışdı.*

*Müharibə bitəndən sonra həmin anları təhlil edəndə isə Qəzənfərin özünü belə heyrətə salan bir gerçəkliklə üz-üzə qalmışdı. Hər şey çox sürətlə baş vermişdi və döyüşə gedə biləcəyi ehtimalına görə o qədər ruh yüksəkliyi ilə yola düşmüşdü ki, bəlkə də bir daha övladını görə bilməyəcəyi qorxusunu belə hiss etməmişdi...*

- Sentyabrın 27-də erməni təxribatına qarşı Murovdağ istiqamətində əks-hücum əməliyyatlarına qoşulduq. Murovdağın "3340" yüksəkliyində ermənilərin mövqelərinin arxasında bir postları yerləşirdi, oranı ələ keçirməli idik. II Xüsusi Təyinatlı Kəşfiyyat qrupu olaraq istiqamət üzrə hərəkətə başladıq. Bu bölük korpusun nəzdində olan 34 nəfərlik kəşfiyyat dəstəsi idi, mən də bölüyün qrup komandiri kimi tapşırıqları icra edirdim. İstehkamçılarımız keçid sahəsini açdı. Hava dumanlı və dağlıq ərazi olduğundan düşmənin bizi görməsi o qədər də ehtimal olunmurdu. İstiqamət üzrə irəliləməyə başladıq, getdiyimiz post yüksəklikdə olduğu üçün strateji əhəmiyyəti böyük idi. Buna görə də "son gülləmiz, son nəfərimiz qalsa belə o tapşırıq icra olunmalıdır" deyərək irəlilədik.

Düşmənin səni görmə ehtimalının basqısı altında, çox sıldırım yerlərlə hərəkət, həm də bunu taktiki gedişlərlə etmək çox çətindir. Buna baxmayaraq 8 saat dağlarla, sıldırımlarla yuxarılara qalxaraq sızma əməliyyatını uğurla yerinə yetirdik.

Artıq Murovdağın özündə yerləşən posta doğru irəliləyirdik, haradasa ora çatmağımıza 500-600 metr məsafə qalmışdı. Çox pis sıldırım olduğu üçün iki ayaq üstdə hərəkət etmək qeyri-mümkün idi, bəzən sürünüb irəliləyirdik. Qəfil düşmən bizi gördü. Bizdən erməni dilində cavab aldıqdan sonra onlar özlərininki olduğumuzu sanıb arxayın düşdülər. Posta bir az da yaxınlaşanda formamızın üzərindəki atributlarımızı gördülər. Xüsusi Təyinatlı Qüvvələrin hamısının forması eynidir, sadəcə onları üzərlərindəki bayraq, rəmzlər fərqləndirir. Onlar da üçrəngli bayrağımızı görüb dərhal atəş açmağa başladılar, amma biz daha cəld tərpəndik. 12 düşmən döyüşçüsünü məhv edərək bir həmlədəcə postu tutduq. Əlimizdən sağ qurtulan ermənilər isə özlərini sıldırımlardan ataraq vahimə ilə qaçdılar.

Onların solunda da, sağında da olan postlardan bizə atəş açmağa başladılar, amma sığınacaq tapıb özümüzü qoruduq. Yüksəkliyi ələ keçirəndən sonra komandanlığa məruzə edəndə əvvəlcə inanmadılar. Dedilər ki, "açın xəritəyə bir də baxın ki, həmləmizdə olan yer dəqiq oradırmı?!" Həqiqətən də, inanılası deyildi. Çünki çox qısa zamanda sızma əməliyyatı edəsən, dərinlikdəki postu götürəsən, üstəlik də, sağ qalasan, bu, möcüzə idi.

Beləliklə, işğal olunmuş ərazilərdə ilk qaldırılan bayraq Murov silsiləsinin Murovdağ yüksəkliyində oldu.

### İlk işimiz qondarma rejimin bayrağını söküb ayaqlarımızın altına atmaq oldu

*Qəzənfərgil Murovdağdakı yüksəkliyi düşməndən azad etsələr də, əsas tapşırıqları oranı qoruyub əldə saxlamaq idi. Çünki düşmən hər vəchlə o postu geri qaytarmağa çalışırdı...*

- Onu da deyim ki, bu yüksəkliyə çıxdığımız 8 saat ərzində üzərimizdəki bütün ərzaq təminatı bitmişdi. Silahlı Qüvvələrimiz tərəfindən posta gələn yollar bağlandığı üçün ermənilərin də postda ərzaq təminatı yox idi.

Beləliklə, 4 günə yaxın ac-susuz o postun müdafiəsində durduq. Yanımızda olan tibbi sistemlərdəki sudan 34 nəfər qurtum-qurtum içdik, Murovun bizim tərəfdəki hissəsinə keçib yeməli otlardan tapıb yedik. Axşamlar o qədər soyuq olurdu ki, bir yerə yığışsaq da, bədənimizin hərarəti bizi isitmirdi. Səhəri titrəyə-titrəyə açırdıq, ancaq gün çıxanda qızınırdıq. Amma heç bir halda gücdən düşmürdük, hətta ermənilər bu müddət ərzində bir neçə dəfə posta hücuma cəhd etdilər, lakin uğursuzluğa düçar olub, itki verib geri çəkildilər.

Rabitə əlaqəsindən bilirdik ki, sağ-sol istiqamətində qüvvələrimiz hər gün irəliləyir. Xüsusilə də kiçik radioqəbuledicidən Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına torpaqlarımızın azad edilməsi müjdələrini çatdırmasını eşitdikcə özümüzdə qürur hissi keçirirdik. Bütün bu ali hisslərin qarşısında isə aclıq da, susuzluq da, erməni hücumu da aciz idi, çünki bizdə ruh yüksəkliyi yaranmışdı.

Düşmən bu postun üzərində bədnam rejiminin qondarma bayrağını dəmirdən düzəldib asmışdı. İlk işimiz bunu söküb ayağımızın altına atmaq oldu. Özümüz dəmirdən dirək düzəldib, ay-ulduzlu, üçrəngli müqəddəs bayrağımızı asdıq. Elə bundan 5-6 dəqiqə sonra bizi minaatan silahdan atəşə tutdular. Hər bir insanın içərisində qorxu hissi olur, amma o qorxunu idarə etmək əsl döyüşçüyə xas olan haldır. Biz də o anda, hətta ölüm qorxusuna belə qalib gələrək müqəddəs bayrağımızı endirmədik və bayrağımız Murovun zirvəsində hər dəfə dalğalanıb açıldıqca düşmənin bağrına ox kimi sancıldı.

Atəş nəticəsində gizir Natiq Verdiyev şəhid oldu. Onun ölümü bizi çox sarsıtdı. Natiqin qismətində Azərbaycanın ən uca zirvələrindən birində insanlığın ən uca zirvəsi olan şəhidliyə yetmək məqamı var imiş.

### Yüngül çaplı silahlarla düşmənin yüksəklikdəki bütün canlı qüvvəsini məhv etdik

*Oktyabrın 4-də Qəzənfərgil postu qüvvələrimizə təhvil verib dislokasiya məntəqəsinə dönürlər və bir gündən sonra növbəti tapşırıq alaraq Suqovuşan istiqamətinə yola düşürlər. Həmin zaman Talış kəndi və Suqovuşan yaşayış məntəqəsi azad olunsa da, ətraf ərazilərdə qızğın döyüşlər gedirdi. Suqovuşan yaşayış məntəqəsinin ərazisindəki əsas strateji yüksəkliklər hələ də ermənilərin əlində idi.*

- Texnikadan istifadə etmədən bir neçə kilometr yolu piyada irəliləyərək dağlıq ərazidən sızma əməliyyatını yerinə yetirdik. Tapşırığımız Suqovuşanın "951" yüksəkliyini azad etmək idi. Həm Sərsəng su anbarı, həm də Ağdərəyə giriş üçün bu yüksəkliyin tutulması vacib idi. Biz o yüksəkliyə girmək üçün gecə yağışın altında gözlədik və səhər saat 7-8 radələrində hücuma keçdik. Amma qalxdığımız istiqamətdə erməni hərbçiləri bizi gördülər. Buna görə dərhal geri qayıdıb digər istiqamətdən, sərt dağ sıldırımı olan hissədən hücuma keçdik, hansı ki, düşmən bizi heç zaman o tərəfdən gözləmirdi. Yarım saatdan sonra yüksəkliyə çatdıq, orada 50-yə yaxın erməni var idi. Biz cəld tərpənərək yüngül çaplı silahlarla düşmənin bütün canlı qüvvəsini məhv etdik. Bizim cəmi 5 yaralımız oldu. Rabitə zamanı məlumat verildi ki, sağ-solumuzdakı düşmən qüvvələri artıq qaçır.

Hazırlaşırdıq ki növbəti zirvəyə qalxaq, yüksəkliyi snayper atəşinə tutdular. Həmin yüksəklik elə yer idi ki, bir istiqamətində düşmən yerləşmişdi, digər üç tərəfi isə açıqlıq idi. Yəni biz nə qədər gizlənsək də, aydın görünürdük, real hədəfdə idik. Snayperin arxasınca minaatan, tank atışı başladı və idarə olunan raketlərlə bizi hədəfə aldılar. Atışlar bitəndən sonra tutduğumuz mövqeyi nəzərdən keçirdim, lakin heç kim gözümə dəymədi. Bölük komandirimi, hərbi hissəmizin komandirinin müavinini çağırdım, amma cavab ala bilmədim...

### "Gördüm ki, şəhid bildiyim heyətin çoxu orada məni gözləyir"

*Bir tərəfdən tutduqları mövqeyi əldən vermək qorxusu, digər tərəfdən şəxsi heyətin şəhid olması Qəzənfəri dəhşətə gətirmişdi. Artıq düşmənə qarşı qəzəb və nifrəti o qədər artmışdı ki, geriyə dönməyi düşünməmiş və hərbi hissə ilə ratsiya vasitəsilə əlaqə saxlayıb demişdi ki, bacardığı qədər düşmənin üzərinə hücuma gedəcək.*

- Düşmənə tərəf irəliləyərək əlimdəki avtomatla bayaqdan bizi atəşə tutub döyüş yoldaşlarımızı şəhid edən minaatanın üzərinə yeridik. Orada minaatanın 4 nəfərdən ibarət heyətini (2 atıcı, 2 mühafizəçi) məhv etdikdən sonra bir az da irəlilədik. Düşmən istiqamətində çox dərinə girmişdik, artıq ermənilərin özlərinin, itlərinin səsini lap yaxından eşidirdik. Sursatımız qurtarmışdı. Əlimizdə yalnız qumbara qalmışdı. Əsir düşməmək üçün silahdaşlarıma dedim ki, vəziyyət gərginləşsə, yığışıb özümüzü partladacağıq.

Gecə saat 11-12 radələrində öz mövqelərimizin yanına qayıtdıq və mənə verilən istiqamətə gedib gördüm ki, şəhid bildiyim heyətin çoxu orada məni gözləyir. Onlar atəşdən sağ qurtularaq geri dönmüşdülər. Sən demə, onlar da mənim ölüb-qalmağımdan xəbərsiz olublar.

Beləliklə, tapşırığımız uğurla yerinə yetirilmiş və həmin yüksəklik yeni qüvvələrimizə təhvil verilmişdi.

### Zenit raket kompleksləri, toplar, əhəmiyyətli xəritələr ələ keçirdik

*Daha sonra Qəzənfər Ağayev Xüsusi Təyinatlı Kəşfiyyat Bölüyünün bölük komandiri kimi Suqovuşan istiqamətində tapşırıqların icrasına başlayır.*

- Koordinat verildi ki, bu istiqamət üzrə düşmən qruplaşması qeydə alınıb və onları məhv etmək lazımdır. Ermənilərin bu cinahda 2 alayı darmadağın edilmişdi deyə, onlar bizə qarşı pərakəndə halda döyüşürdülər.

Gecə saatlarında icra etdiyimiz tapşırıqlarla bir neçə düşmən qrupunu məhv etdik. Demək olar ki, oktyabrın 16-dan sonrakı dövrlərdə ancaq bu cür qruplaşmaları məhv edirdik, ələ keçirilən qənimətləri, silahları, lazımi məlumatları, xəritələri, rabitə əlaqələrini gətirib komandanlığa təhvil verirdik.

Bir dəfə isə tapşırıq gəldi ki, düşmənin Suqovuşan istiqamətində artilleriya batareyasını zərərsizləşdirmək lazımdır. Biz ora hücuma keçdik, ermənilər hər şeylərini atıb qaçdılar. Zenit raket kompleksləri, toplar, eyni zamanda əhəmiyyətli xəritələr ələ keçirdik. Həmin xəritələrdə qüvvələrimizin yerləşdiyi yerlər haqqında məlumatlar öz əksini tapmışdı. Buna görə qüvvələrimizin yenidən yerdəyişməsi baş verdi və bunun sayəsində itkilərimiz minimum oldu.

### "Erməni snayper atıcısını tapança ilə güllələdim"

*Qəzənfərgilin növbəti tapşırıqları Ağdərənin açarı hesab olunan "530" yüksəkliyini ələ keçirmək olur. Oranın ələ keçirilməsi Suqovuşandan Ağdərəyə texnikamızın, şəxsi heyətimizin irəliləməsini rahatlaşdıracaqdı...*

- 20 nəfərə yaxın heyətlə Suqovuşan və Ağdərə istiqamətində olan 3 zirvəni asanlıqla ələ keçirdik. Artıq istiqamətimiz "530"-a idi. Həmin yüksəklikdə erməni xüsusi təyinatlıları yerləşmiş, amma bizim bundan xəbərimiz yox idi. Normalda bizi minaatanlar, artilleriya dəstəkləməli idi ki, o posta girə bilək, amma belə olmadı, həmin vaxt yalnız əlimizdəki pulemyot və qumbaraatanla kifayətlənməli olduq. Çox sürətlə düşmən postuna yaxınlaşdıq. Əlimdə avtomat və tapança var idi. Avtomatı döyüş yoldaşıma verib, özüm tapança ilə səngərə girdim. Orada iki erməni xüsusi təyinatlı snayper atıcısını tapança ilə güllələdim. Düşmən istiqamətinə baxanda gördük ki, bu postda yerləşən 10-15 nəfər erməni xüsusi təyinatlısı qaçır. Onlardan da ikisini yaraladıq. Bu tapşırıq da uğurla icra olundu.

Amma "530"-un mühafizəsi zamanı yaralandım. Döyüşlər müddətində tapşırıqlara gedəndə mərmi partlayışları nəticəsində çoxlu qəlpə yaraları almışdım, amma onlar yüngül idi. Lakin burada düşmən bizə idarəolunan raket atdı və o, yaxınlığıma düşdüyü üçün ciddi xəsarət aldım. Bir də gözümü hospitalda açdım. Amma bir gün hospitalda yatandan sonra yenidən döyüş tapşırıqlarını icra etməyə başladım.

Sonrakı tapşırıqlarımız aldatma manevrli, sırf düşmənin istiqamətini dəyişmək üçün oldu. Bu tapşırıqları da uğurla icra etdik. Bundan sonra düşmən səfərbər etdiyi hərbi və polis bölmələrini bizim istiqamət üzrə yığdı. Bu isə əsas istiqamət üzrə hücum bölmələrimizə əməliyyat üçün böyük imkan yaradırdı. Biz düşməni aldadıcı manevrlərlə üzərimizə çəkib məhv edirdik.

### "Təbrik edirəm, qələbə bizimdir"

- Daha sonra Suqovuşan və Kəlbəcər istiqamətində yerləşən "854" yüksəkliyini azad etdik. Artıq planlaşdırdıq ki, Murovu keçərək Sərsəngə çataq və Ağdərə istiqamətində olan düşməni blokadada saxlayaq. Qarşıdan qış fəsli gəldiyinə görə onların təminat yolları da bağlanacaqdı və beləliklə, müharibəsiz təslim olacaqdılar. Elə bu plan üzrə də hərəkətə keçdik, amma noyabrın 10-na keçən gecə bizimlə əlaqə yaradıb dedilər ki, tapşırıq ləğv olundu, geri qayıdın.

Bir anlıq fikirləşdim ki, yəqin tapşırığı icra edə bilməyəcəyimizi düşünərək bu əmri veriblər. Bu cür hisslərlə kor-peşman komandanlıq heyətinin yanına gəldim. O zaman məni tapşırığa göndərən komandir gülə-gülə dedi ki, "Təbrik edirəm, qələbə bizimdir"...

Qulaqlarıma inanmadım, dərhal maşına oturub radionu açdım və gördüm ki, Ali Baş Komandan İlham Əliyev xalqımıza zəfər müjdəsi verir. Hönkür-hönkür ağladım. Gözyaşlarım həm qələbənin verdiyi qürur, sevinc hissi, həm də bu zəfəri çox arzulayıb görmək qisməti olmayan döyüş qardaşlarımızın, şəhidlərimizin hüznündən öz-özünə süzülürdü.

### "Bundan sonra da Ali Baş Komandanın bütün əmrlərini canla-başla yerinə yetirməyə hazıram"

*Qəzənfər deyir ki, hazırda səhhəti ilə əlaqədar müalicə alır, xidmətdən uzaqlaşıb, amma heç cür hərbidən ayrıla bilmir. O, bundan sonra da Ali Baş Komandanın əmrlərini canla-başla yerinə yetirməyə hazırdır.*

- Möhtərəm Prezidentimiz tərəfindən ali təltifi - "Vətən Müharibəsi Qəhrəmanı" adını almağım isə elə böyük fəxrdir ki, onu sözlə ifadə etmək çətindir. Bu qəhrəmanlıq rəmzi mənim nəslim üçün onilliklər boyu iftixar mənbəyi olacaq.

Sadəcə ürəyimi sıxan bir qüssə var və buna görə övladımı da rahatlıqla qucağıma ala bilmirəm. Bizimlə çiyin-çiyinə döyüşüb canını Vətən uğrunda fəda edən şəhidlər gözlərim önünə gəlir. Onların geridə qalan övladlarını düşünüb sıxılıram. Bəzilərinə isə heç övladını görmək, qucağına almaq belə qismət olmadı.

Hesab edirəm ki, bu gün sağ-salamat ailəmin yanına dönməyim canlarını torpaq, xalq üçün qurban verən həmin vətənpərvər oğulların sayəsində olub.

### Bir igidin izi ilə...

*Qəzənfər adlı bir igidin izi ilə qarış-qarış gəzdik döyüş bölgəsini, neçə-neçə işğal altındakı ərazilərimizi azad etdik. Mənfur düşmənlə vuruşduq, çarpışdıq, onları məhvə, qarşımızdan qorxaqcasına qaçmağa məhkum etdik.*

*Bu igidlər yeri gələndə günlərlə ac-susuz, yorğun, yuxusuz oldu, saatlarla yağışın altında qaldı, uçurumlardan keçdi, ölümlə burun-buruna gəldi, amma bunların heç biri onları haqq yolundan çəkindirmədi...*

*Cəsur oğullarımız düşmənə qalib gəldi, qələbə çaldı...*

*O oğullar ki, ana torpağın harayına min yerdən hay verdilər, doğmalarından, övladlarından, hətta canlarından da keçdilər, sevda düyünüylə bağlandılar Vətənə...*

*Hərəsi bir qəhrəman oldu...*

*Qəzənfər Ağayev kimi...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Biz sizinlə fəxr edirik

## "Bu ordunu quran da, bizi qələbəyə aparan da, bizə bu xoşbəxtliyi yaşadan da İlham Əliyevdir. Biz ona minnətdarıq"



**İllər idi qəsbkar ermənilərin torpaqlarımızı işğal altında saxlaması, şəhərlərimizi xaraba, yurd yerlərimizi viran qoyması, dini ocaqlarımızı murdarlaması, qəbiristanlıqlarımızı dağıtması, meşələrimizi qırıb təbii sərvətlərimizi talaması bizi qisasa səsləyirdi. Doğulan körpələr dünyaya Qarabağ dərdi ilə gəlirdi. Analarımız körpələrinə şirin nağıllar əvəzinə qorxulu Xocalı qətliamı haqqında danışırdılar.**

Cənnət diyarımız Qarabağ erməni vandalizminin vəhşilikləri nəticəsində dünyanın ən dəhşətli fəlakət zonasına bənzəyirdi. Törədilmiş vəhşiliyin sonu olacağına inanırdıq. O müqəddəs günün gələcəyini səbirsizliklə gözləyirdik.

Nəhayət, bir gün xalqımız sabahını müharibə xəbəri ilə açdı. Müharibə ölüm, qan-qırğın gətirsə də, bütöv bir millət "Ya azadlıq, ya ölüm" dedi. Xalq bir yumruğa döndü. Dəmir yumruq dəmir bir əmuda çevrildi.

Minlərlə igidimizin canını bu vətənə qurban deyərək şeytanla dostluq edən, şəri şeytandan üstün olan erməni ilə müharibəyə yollandığı Azərbaycan Ordusunun müqəddəs zəfər yürüşünə çıxdığı gün ən müqəddəs gündür...

Azərbaycan Ordusunu qələbəyə aparan, tarixin ən şərəfli, ən gözəl günlərinin müjdəsini bizə verən cənab İlham Əliyev və onun qurduğu ordu bizim üçün dünyanın ən müqəddəs, Müzəffər Ordusudur. Torpaq o zaman vətən olur ki, orada uğrunda canını fəda etməyi bacaran insanlar yaşayırlar. Torpaq ona görə qiymətlidir ki, canla qorunur, qanla alınır.

Əgər məndən soruşsalar ki, dünyanın ən saf, günahsız, müqəddəs insanları kimlərdir və ən müqəddəs ziyarətgah haradadır, çəkinmədən deyərdim ki, işğalçıya güllə atan igidlərimiz dünyanın ən müqəddəs insanları, onların qanı töküldüyü yer, dünyanın ən müqəddəs ziyarətgahıdır.

### "Canımı verərəm, vətənin bir qarışını da vermərəm"

Bu gün yenə müqəddəs insanlarla, canını vətən yolunda qurban verib "Canımı verərəm, vətənin bir qarışını da vermərəm", - deyib vuruşmuş şəhid və qazi ailələrinin kompakt yaşadıqları Xocahəsən qəsəbəsində yerləşən yeni yaşayış kompleksindəyik. Hər tərəf ağ göyərçin kimi ətrafa səpilmiş ağpaltarlı məktəblilərlə doludur. Bunların hamısı yurdumuza ağ gün gətirmiş, vətənin üzünü ağ etmiş cənnət qoxulu şəhidlərin və qazilərin övladlarıdırlar. 44 günlük Vətən müharibəsində atalarının, qardaşlarının qazandıqları böyük qələbədən sonra hər biri yeni mənzillərlə təmin ediliblər. Hamısı qürurludu. Gözlərinin dərinliklərində kədər yurd salsa da, ürəkləri iftixarla döyünür.




Şəhərciyin həyətində qarşımıza ilk çıxan qazi Yusif Cəmil oğlu Mahmudov olur. Yusif bizimlə söhbətində çox maraqlı bir məqama toxunur:

- Qonaqsınız. Xahiş edirəm, mənim evimə gedək, bir stəkan çay içək. Sizə dostlarımın keçdiyi döyüş yolundan danışmaq istəyirəm.

Yusif Mahmudov 2001-ci il oktyabrın 20-də Bakıda anadan olub. Orta təhsilini M.Rəsulzadə qəsəbəsində 45 saylı Füzuli rayon qaçqın məktəbində alıb. 2019-cu ilin 20 oktyabrında həqiqi hərbi xidmətə çağırılıb. Xidmətini Beyləqanda yerləşən hərbi hissədə minaatan bölüyündə davam etdirib: "Sentyabrın 27-də Füzuli rayonunun Qaraxanbəyli kəndində döyüş mövqeyi tutmuşduq. Gecədən xeyli keçmişdi, qəflətən erməni artilleriyası mövqelərimizi aramsız atəşə tutmağa başladı. Dərhal döyüş əmri aldıq. Əhvalımız, döyüş hazırlığımız çox yüksək səviyyədə idi. İlk və son sözümüz də bu idi: "Ölərik, amma vətənin bir qarışını da düşmənə vermərik". Cavab atəşi açırdıq. Müqavimət göstərirdik. İllər idi ki, ermənilər bu yerlərdə möhkəmlənmişdilər. Özləri üçün mif yaratmışdılar. Guya keçilməz Ohanyan səddi qurmuşdular. Bilirsiniz, dünyada ən gözəl şey nədir? "Mən" deməyi, "mənim" söyləməyi bacarmaqdır. Çox qürurluyam. İndi mənim evimdə oturmuşuq. Bu mənzili mənə Prezidentim verib. Ömrü boyu birotaqlı qəzalı evdə yaşamışdıq. Atam mühafizə xidmətində işləyirdi. Aldığı maaşla nəinki ev almaq, heç o barədə düşünməyi belə, ağlımızdan keçirmirdik. İndi burada mənim evim dediyim kimi, orada da bura mənim vətənimdir deyirdik. Mənim olanı, bizim olanı canımız, qanımız bahasına geri almaqda qərarlıydıq. Biz bunu təmənnasız edirdik. Ev üçün, maşın üçün, maddi nemətlər üçün etmirdik. Mən əsgər idim, sıravi əsgər. Vətəni qorumaq, onun yolunda canından keçmək, mənim bir vətəndaş olaraq vəzifəm idi. Borcum yox, vəzifəm...



Bəli, həmin gün mənim Prezidentim əmr verdi. Bu Vətən bizimdir dedi. Bu torpaq, bu Ordu mənimdir dedi. İnandıq, güvəndik. O düyünlənmiş yumruqda özümüzü gördük. Yeridik düşmənin üzərinə. Hər o Ohanyan səddini keçəndə, ermənilərin yaratdığı maneələri görəndə intiqam hissi daha da güclənirdi. Əks-hücumlar zamanı tikanlı məftillərdə bizdən öncə o sədləri keçmiş ordumuzun əsgərlərinin qanını, məftillərin ucunda ilişib qalmış ət parçalarını gördükdə "Qisas" deyib hayqırırdıq. İrəliləyirdik... Ölüm gözümüzə görünmürdü.

Müharibə insanları çox birləşdirir, doğmalaşdırır. Mən müharibədə çox dostumu itirdim. Onları xatırlamadığım gün yoxdur. Oktyabrın 9-da yaxınlığımıza düşmən artilleriyasının mərmisi düşdü. Dəhşətli bir mənzərə idi. Üzüm-gözüm qan idi. Üzümdə ət parçaları var idi. Əlimlə üzümü siləndə gördüm ki, mənə aid olmayan ət parçalarıdır. Hələ huşumu itirməmişdim. Döyüş yoldaşlarımdan İzzət Həmidov, Yusif Nəbiyev, Cəbrayıl Mikayılov, Əlhüseyin Məmmədov və daha adını xatırlamadığım iki nəfər şəhid olmuşdu. Qıçımdan və qolumdan ağır yaralanmışdım. İstədim onlara tərəf sürünüb nə isə bir kömək edəm. Bacarmadım. Gözümü açanda özümü "Bonadeya" xəstəxanasında gördüm. Dörd dəfə ağır əməliyyat olunmuşam. Çox bahalı əməliyyatlar idi. Bütün xərci dövlət çəkirdi. Bizə öz övladları kimi qayğıkeşlik göstərirdilər. Çox şükürlər ki, indi yaxşıyam. Heç nədən peşman deyiləm. Canım bu vətənə fəda olsun. Təəssüf edirəm ki, Şuşaya kimi gedə bilmədim.

İndi evim var. Vətənim düşmən işğalından azad olub. Qürurluyam ki, İlham Əliyevin qurduğu Müzəffər Ordunun əsgəriyəm. Onun sərəncamı ilə "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşam. İnşallah, tezliklə evlənərəm, ailə-uşaq sahibi də olaram. Bizə göstərilən bu qayğıkeşliyə görə Müzəffər Ali Baş Komandana minnətdaram. Bu ordunu quran da, bizi qələbəyə aparan da, bizə bu gözəl şəraiti yaradan da odur".

Qısa xatırlatma: 44 günlük Vətən müharibəsindən sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi və birbaşa nəzarəti altında şəhid, qazi ailələrinə və müharibə iştirakçılarına geniş istiqamətli sosial dəstək tədbirləri həyata keçirilir. Proqram çərçivəsində Prezidentin sərəncamı ilə 2021-ci ildə şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı əvvəlki illərlə müqayisədə 5 dəfə artıb. Xatırladaq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin kateqoriyadan olanlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572, 2021-ci ildə 3 min mənzil və fərdi ev verilib. Ümumiyyətlə, şəhid, qazi ailələri və müharibə iştirakçıları həmişə dövlətin diqqətində olmaqla qayğı ilə əhatə olunublar. İndiyə kimi 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Qazilərimizin digər sosial qayğılardan azad olunması istiqamətində də proqram çərçivəsində uğurlu tədbirlər həyata keçirilməkdədir. Son 4 ildə 1450 qazi, ümumilikdə isə 7400 müharibə əlili avtomobillə təmin edilib. Bu gün də həmin proqram uğurla davam etdirilir. 2022-ci ildə sosial cəhətdən həssas olan ailələrə 500 mənzil verilib. Ümumilikdə isə, bu il belə ailələrə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

### Tarix təkcə keçilən vaxt, dəyişən zaman deyil, həm də dərsdir

Şəhid ailələri və qazilərin Xocahəsən qəsəbəsindəki yaşayış kompleksində olarkən qonağı olduğumuz qazi İlham Məhərrəm oğlu Əliyev əslən Ucar rayonunun Alpout kəndindəndir. Birinci Qarabağ savaşının iştirakçısı olub. Daşaltı əməliyyatı zamanı yaralanıb. İlham da keçdiyi şərəfli ömür yolundan fərəhlə danışdı: "Ali təhsilliyiəm. İnşaat Mühəndisləri İnsitutunu bitirmişəm. Atam məktəb direktoru işləyib, müəllim olub. Həmişə bizə alnıaçıq, şərəflə yaşamaqdan, vətənə və dövlətə sədaqətdən danışıb. Ailədə beş qardaşıq. Beşimiz də müharibə veteranıyıq. Bir qardaşım, iki qardaşım oğlu Zəfər müharibəsində iştirak edib. Hazırda qardaşlarımdan biri Hadrutda zabit kimi xidmət edir. Mən bunu minnət üçün demirəm. Vətənə minnət qoymazlar. Bu can da vətənə qurban olsun.

1965-ci ildə anadan olmuşam. Alpout kənd 1 saylı orta məktəbi bitirmişəm. 1991-ci ildə könüllü olaraq ordu sıralarına qoşulub Qarabağa döyüşə getmişəm. Milli Ordunun Şıxovda yerləşən ilk batalyonunun əsgərlərindən olmuşam. İlk döyüşlərimiz Xocavənd rayonunun Əmralılar, Kuropatkino, Muğanlı kəndlərində olub. 1992-ci il yanvarın əvvəlində bizi Bakıya gətirdilər. Bir neçə gün Bakda qaldıqdan sonra yanvarın 22-də yenidən Laçına, oradan da Şuşaya getdik. Yanvarın 25-də Nəbilər kəndində mövqelənmişdik. Qar, boran idi. Göz-gözü görmürdü. Axşamdan Nəbilər istiqamətindən Daşaltıya hücuma keçdik. Təəssüf ki, bu əməliyyat faciə ilə nəticələndi. 77 nəfər itkimiz oldu. Mən də gözümdən yaralandım. Kimin günahı idi, deyə bilmərəm. Amma bildiyim bir şey var ki, ordu ciddi nizam-intizam sevir. Burada əsgər üçün "bəli" və "xeyr" kəlməsindən başqa söz olmamalıdır. Amma o zaman yeni yaranan orduda hərə öz bildiyini edirdi. Vahid komandanlıq yox idi. Ordu siyasi oyunların alətinə çevrilmişdi. Əsgərlərin hərəsi bir siyasi cərəyanın üzvü idi. Təchizat da olduqca zəif idi. Müdafiə nazirinin özünün rəhbərlik etdiyi əməliyyatda cəmi bir topla bizə artilleriya dəstəyi verilirdi. Ermənilər isə illər idi ki, Daşaltını istehkama çevirmişdilər. Evlərin hamısında bir-birinə yeraltı keçidlər var idi.



44 günlük Vətən müharibəsinin hər gününü həyəcanla izləmişəm. Vahid komandanlıq, dəmir yumruq, dəmir intizam var idi. Dost da bu yumruğu görürdü, düşmən də bu yumruğu hiss edirdi. Çox şükür ki, vaxtında edə bilmədiklərimizi bizim gənclər etdilər.

Əvvəllər çox utanırdım. Döyüşmüşəm, vuruşmuşam deməyə xəcalət çəkirdim. Amma indi qürurumdan yerə-göyə sığmıram.

Mənə bu evi cənab Prezidentimiz verib. Hər şəraitimiz var. Heç bir problem yoxdur. Hətta dövlət mənə maşın da verib. Bu kompleksdə yaşayanların hamısı şəhid, qazi və müharibə veteranlarıdır. Həyətə düşəndə tez-tez keçmiş döyüş yoldaşlarımızı görüb söhbətləşir, xatirələri təzələyirik.

Müstəqil dövlətin güclü ordusu olar. Şükür ki, indi fəxr ediləsi ordumuz, yenilməz sərkərdəmiz var. Müstəqilliyimiz əbədi və dönməzdir. Bütün bu uğurlara görə cənab İlham Əliyevə borcluyuq. Onun qətiyyəti, iradəsi, uzaqgörən siyasəti nəticəsində bu uğurları qazandıq. Onun fərq qoymadan bizə göstərdiyi qayğı nəticəsində bu gözəl mənzillərdə rahat həyatımızı yaşaya bilirik. Ailəm adından, döyüş yoldaşlarım, veteranlar adından Müzəffər Ali Baş Komandana dərin təşəkkür edirəm".



### Səssiz qəhrəmanlar

Qazi Əmiraslanov Ömər Yaşar oğlu valideynlərinin etirazına baxmayaraq, sentyabrın 29-da könüllü Qarabağa döyüşə gedənlərdəndir. Hadrutun azad olunmasında iştirak edib. Oktyabrın 14-də gecə saat 2-də Tuğ kəndi uğrunda gedən döyüşlərdə ayağından yaralanıb. İkinci dərəcəli müharibə əlilidir. Müharibədən sonra Müdafiə Sənayesi Nazirliyində işlə təmin edilib. Ömər çox danışmağı sevmir.

"Vətən üçün döyüşmək, vətənin yolunda lazım gələrsə canını fəda etmək hər bir vicdanlı vətəndaşın borcudur. Orada elə qəhrəman oğullar döyüşüb, fədakarlıq edirdilər ki... İndi də heç kimə minnət qoymurlar. Səsləri belə çıxmır. Səssiz qəhrəmanlardılar. Döyüşdülər, torpağı azad etmək lazım idi, etdilər. Nə səsləri çıxır, nə də "mən bunu etmişəm", - deyirlər. Oğullarımız var idi ki, canları ilə, sinələri ilə döyüş yoldaşlarını qoruyurdular. Ən təhlükəli məqamda özlərini önə verirdilər. Elələrini görüb sağ qaldığım üçün xəcalət çəkdiyim vaxtlarım da olur.

Qismətimdə həm döyüşmək, həm də sağ qalmaq varmış. Qürurluyam. Qalib ordunun əsgəri kimi torpaqlarımızın işğaldan azad olunmasında az da olsa rolum olduğu üçün, Müzəffər Ali Baş Komandanın qurduğu ordunun əsgəri olmağımla fəxr edirəm".

Ömərin atası Yaşar Əmiraslanov ehtiyatda olan polkovnikdir. Ömrünün çoxunu xidmətdə keçirib. Söhbət zamanı dedi ki, oğlum döyüşə getməsəydi, 25 il geydiyim uniformamdan utanardım: "İnsanların gözünün içinə baxa bilməzdim. Ömər ailənin tək oğludur. Müharibəyə getmək istədiyini bildirəndə açığı tərəddüd etdim. Düzünü deyim, etiraz da etdim. Dedim, nə zaman çağırsalar, onda gedərsən. Könüllü getdi. Oktyabrın 14-də gecə zəng etdi ki, yaralanıb. Anası həkimdir. Telefonla nə etmək lazım olduğunu izah edib qanaxmanı dayandırdı. O zaman çox həyəcanlı, indi isə çox qürurluyam. Ömari 28 saatdan sonra təxliyə edə bilmişdilər. Bu müddət ərzində orada aramsız döyüşlər gedirdi. Biz də telefonda həyəcanla nəticəni gözləyirdik. Şükür ki, ayağı amputasiya olunmadı. Prezidentimiz Ömərə ev bağışlayıb. Yaxında toyunu edib, bu mənzilə gəlin gətirəcəyik. Burada yaşamaq çox maraqlıdır. Qəhrəmanların arasında olmaq, onlarla bir yerdə yaşamaq qürurvericidir. Oğlumla fəxr edirəm. Qəhrəman atası olmağın da özəlliyi varmış".

Onlar bu xalqın, bu vətənin üzünü ağ edən təmənnasız qəhrəmanlardır. Onlar hər diqqəti, qayğını haqq edirlər. Həyatlarını problemsiz, qayğısız yaşamaları üçün də dövlət bir an da olsun köməyini əsirgəmir. Söhbət etdiklərimiz, qonağı olduqlarımız hər biri qürurla, sevgi ilə "Vətən mənim mükafatımdır. Azərbaycanlı olduğumuz, torpaqlarımızın işğaldan azad olunmasında döyüşdüyümüz üçün fəxr edirik", - dedilər.

Biz də sizinlə fəxr edirik, vətənin başını ucaldan uca insanlar...

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını
26 İyun -
Silahlı Qüvvələr Günü
münasibətilə təbrik edir, birlik,
firavanlıq və işıqlı gələcək arzulayır



Bayramınız mübarək!

Coca-Cola
şirkəti Azərbaycan xalqını
26 İyun -
Silahlı Qüvvələr Günü
münasibətilə
təbrik edir, əmin-amanlıq və
firavan həyat arzulayır
Bayramınız mübarək!

# Zəfərin qəhrəmanlarından biri

Yeni ərazilər zəbt etmək iddiası ilə Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayan Ermənistan silahlı qüvvələri ilyarım əvvəl 44 günlük Vətən müharibəsində ordumuz tərəfindən biabırcasına məğlubiyyətə uğradıldı. Qarabağın döyünən ürəyi qədim Şuşa şəhəri erməni quldur birləşmələrindən azad edilən gün - 8 noyabr 2020-ci ildə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və qəhrəman Azərbaycan Ordusunun şücaəti sayəsində zəfər qələbəsinin səsi-sorağı bütün dünyaya yayıldı.






44 gün davam edən Vətən müharibəsində dünya hərb tarixinə yeni şanlı səhifələr yazıldı, 5 min kvadratmetrədək ərazi, 5 rayon, 2 şəhər tipli qəsəbə, 300-dək kənd düşməndən təmizləndi. Azərbaycan Silahlı Qüvvələri döyüş meydanında Ermənistanın işğalçı ordusunu sarsıdaraq, hərbi texnikasının 80 faizini və onun saxta "yenilməzlik mifi"ni məhv etdi.

Bu qələbənin qazanılmasında Azərbaycan Ordusunun zabit və əsgərlərinin, könüllülərin, şəhid və qazilərimizin qəhrəmanlığı böyük ehtirama layiqdir. Müharibənin əsas qəhrəmanlarından biri də Laçının azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olan, Bakıda II Fəxri xiyabanda əbədiyyətə qovuşan Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı Həmid Abbasbəylidir.

Həmid Cavanşir oğlu Abbasbəyli 17 noyabr 1991-ci ildə Bakı şəhərində müəllim ailəsində dünyaya göz açıb. Ailədə iki uşaq olublar. Həmid evin böyüyü, Ağası kiçiyi idi. Həmid birinci sinfə Bakıda, Binəqədi rayonu, Famil İsgəndərov adına 157 nömrəli tam orta məktəbdə gedib. Ailə vəziyyəti ilə əlaqədar 2002-ci ilin noyabr ayında o, anası və qardaşı ilə birgə Şəki şəhərinə köçüb, Şəki şəhər 18 saylı orta məktəbdə təhsilini davam etdirib. Məktəb illərindən idmanın güləş növünə və hərbçi peşəsinə meyilli, dərs əlaçısı və ictimai fəal kimi müəllimlərinin sevimlisi olub.

Şəki şəhər 18 nömrəli tam orta məktəbin müəllimi Xatirə Qədirova deyir: "Həmid Abbasbəyli mənim ağıllı və tərbiyəli şagirdlərimdən biri idi. O, öz biliyi və mədəniyyəti ilə məktəb yoldaşlarının və müəllimlərin sevimlisi olmuşdu. Onun elə bir duruşu, görkəmi var idi ki, ona deyirdim, sən böyüyəndə əsl hərbçi ola bilərsən. O, özü də hərbçi olmağa böyük həvəs göstərirdi. Həmidin vətənpərvərliyi, xalqına, millətinə olan sevgisi ona bu yolda güc verirdi. O, öz məqsədinə çatdı və hərbçi oldu. Bu gün məktəbimizin kollektivi və mən onunla fəxr edirik".

Hərb sənətinə marağı Həmidi arzusunda olduğu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirib. O, 2003-2006-cı illərdə təhsilini böyük həvəslə bu təhsil ocağında davam etdirib. Liseyi müvəffəqiyyətlə başa vurduqdan sonra sənədlərini Heydər Əliyev adına Ali Hərbi Məktəbə vermişdir.

2010-cu ildə Ali Hərbi Məktəbi uğurla bitirən Həmid Abbasbəyli marağında olduğu hərbin ən incə sirlərini mənimsəmişdi, dörd xarici dil bilirdi. İdman uğurlarına görə dəfələrlə fəxri fərman və medallara layiq görülmüşdü. Bu potensialla Həmid Abbasbəyli Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Həmişə peşə qüruru ilə bildirirdi ki, 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olub. Onun komandanlığı altında döyüşən əsgərlər deyirlər ki, döyüş tapşırıqlarında onun qrupuna düşən əsgərlər heç vaxt narahatlıq keçirmirdilər. Bilirdilər ki, Həmid bacarıqlıdır, təcrübəlidir, şəxsi heyəti sağ aparıb, sağ da gətirəcək. Mərmi yağışı altında qorxmadan əsgərlərinə "İrəli!" əmri verib özü hamıdan öndə gedirdi.

Həmidin döyüş yolu haqqında danışılanlardan qardaşı Ağası, anası Gülnarə xanım və yaxınları qürur hissi keçirirlər. Ağası qardaşından iki il sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbin kursantı olub. O, deyir: "Müəllimlərim Həmidin kiçik qardaşı olduğumu biləndə onun haqqında ağızdolusu danışırdılar, ürəyim qürur hissi ilə dolurdu. Hamı mənə Həmid kimi təmkinli, savadlı, bacarıqlı və vətənpərvər olmağı tövsiyə edirdi. O vaxt da, indi də qardaşımın həyat yolundan, vətən qarşısında xidmətlərindən qürur duymuşam".

Baş leytenant Həmid Abbasbəyli 2016-2017-ci illərdə Türkiyədə, 2017-2018-ci illərdə isə Çində xüsusi təlim kurslarını birincilər sırasında başa vurub, digər ölkə nümayəndələri arasında fərqlənib. 2020-ci il iyunun 24-də Moskva şəhərində, Qırmızı meydanda keçirilən Böyük Vətən müharibəsində Qələbənin 75-ci illiyinə həsr edilmiş irimiqyaslı paradda 75 hərbçi ilə Azərbaycan Ordusunu təmsil edənlər sırasında olub. "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" medalı ilə təltif edilib. Bundan iki gün sonra, iyunun 26-da igid döyüşçü Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının "Azadlıq" meydanında təntənəli hərbi paradda Xüsusi Təyinatlı Qüvvələrin tərkibində olub.

Baş leytenant Həmid Abbasbəyli 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsinin ilk günündən ön cəbhədə olmuş, ən mürəkkəb döyüş əməliyyatlarında iştirak etmişdir. Füzuli, Hadrut və Cəbrayılın, eləcə də Ərgünəş yüksəkliyinin və Laçın dəhlizinə nəzarəti təmin edən ərazilərin alınmasında fəallıq göstərmişdir. Baş leytenant qızğın döyüşlər zamanı minaya düşərək ayağından ciddi yara alsa da, ilkin tibbi yardımdan sonra səngərə qayıdaraq vəzifə borcunu davam etdirmişdir. Qrup rəhbəri kimi fövqəladə qəhrəmanlıqlar göstərərək düşmənin 500-dən artıq canlı qüvvəsinin məhv edilməsinə və xeyli sayda hərbi texnikasının qənimət kimi götürülməsinə nail olmuşdur.

Çox təəssüf ki, Laçın dəhlizi Həmid üçün ölüm-dirim mübarizəsinin sonu olur. O, oktyabrın 19-dan 20-nə keçən gecə şiddətli döyüşlər zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlir. Nəşi üç gün neytral ərazidə qalır. Şəhidin cənazəsi oktyabrın 24-də Bakıya, Xətai rayonuna gətirilir, rayon icra hakimiyyətinin, Xüsusi Təyinatlı Qüvvələrin, habelə respublika Müdafiə Nazirliyi nümayəndələrinin iştirakı ilə böyük izdiham və avtomobil karvanının müşayiəti ilə İkinci Fəxri xiyabanda yaylım atəşinin sədaları altında təntənəli şəkildə torpağa tapşırılır.

Xüsusi Təyinatlıların baş leytenantı Həmid Abbasbəyli Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin azad olunmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik göstərdiyinə, xidməti borcu və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərdlik və qətiyyət nümayiş etdirdiyinə, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamına əsasən "Qarabağ" ordeni ilə təltif edilib.

Həmid Abbasbəyli ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalına layiq görülüb.

Dövlət başçısının digər sərəncamları ilə şəhid Həmid Abbasbəyli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə də təltif edilib.

44 günlük Vətən müharibəsində tarixi qələbənin qazanılmasında böyük xidmətləri olan şəhid Həmid Abbasbəylinin xatirəsi dövlətimiz və ictimaiyyət tərəfindən həmişə əziz tutulur. Xətai Rayon İcra Hakimiyyəti tərəfindən baş leytenantın yaşadığı ünvana xatirə lövhəsi vurulub, binanın qarşısında şəhid bulağı inşa edilib, ətrafına yaşıllıq salınıb. Rayon ictimaiyyətinin nümayəndələri, şəhidin döyüşçü yoldaşları, oxuduğu məktəbin müəllim və şagirdləri tarixi günlərdə, həmçinin bayramlarda bu ünvana gəlir, habelə II Fəxri xiyabana gedərək igid döyüşçünü ehtiramla xatırlayırlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə Azərbaycan xalqını və Müzəffər Azərbaycan Ordusunu təbrik edir, yeni-yeni uğurlar arzulayır




◆ Tarix yazan oğullarımız

# O, Zəngilan uğrunda gedən döyüşdə şəhidlik məqamına yüksəlib

Şəhidlərimiz baş tacımız, tarix yazan igidlərimizdir. Vətən müharibəsinin qələbəsini qanları ilə tarixin səhifəsinə əbədi həkk edənləri xalqımız heç zaman unutmayacaq. Belə igid oğullarımızdan biri də Ceyhun Akif oğlu Səfərovdur.



O, 1995-ci il iyunun 12-də Lerik rayonunun Cənginəvud kəndində anadan olub. Yeganə bacının 3 qardaşından biri, Səfərovlar ailəsinin sonbeşiyi idi. Uşaqlıq illəri doğulduğu kənddə keçib. 2012-ci ildə Lerik rayonu Vizəzəmin kənd tam orta məktəbini bitirib.

Təhsilini başa vurduqdan sonra bir müddət təsərrüfatla məşğul olub. 2013-cü ildə həqiqi hərbi xidmətə yollanıb. Əsgəri xidmətini Goranboyda keçirib, 2015-ci ildə başa vuraraq ailəsinin yanına qayıdıb.

Ceyhun Səfərov uşaqlıq illərindən zəhmətkeş, fədakar, valideynlərinin qeydinə qalan, idmana meyilli bir gənc olub. Vətən müharibəsi başlayanda könüllü olaraq hərbi komissarlıqda qeydiyyatdan keçib və çağırışa sevinclə qarşılıq verərək müharibəyə yollanıb.

Füzuli, Cəbrayıl, Zəngilan uğrunda gedən ağır döyüşlərdə böyük şücaət göstərib. Düşmənə sarsıdıcı zərbələr endirən və xeyli sayda canlı qüvvəsini məhv edən Ceyhun 2020-ci il oktyabrın 20-də qəhrəmancasına həlak olub. Şəhidin nəşi doğulduğu Lerik rayonu Cənginəvud kənd qəbiristanlığında torpağa tapşırılıb. Atası Akif kişi öz doğum günündə oğlunun şəhidlik zirvəsinə ucaldığını öyrənib.

Əsgər Ceyhun Səfərov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

## Şəhidlik vətənə məhəbbətin zirvəsidir

Ceyhun Səfərov ailənin sonuncu oğul övladı idi. Vətən müharibəsi başlamazdan əvvəl atasına "Mən cəbhəyə gedəcəyəm" deyib. Atası Akif Səfərov bildirir ki, oğlu Ceyhun uşaq yaşlarından vətənpərvərliyi ilə seçilirdi. O, eyni zamanda idmanla məşğul olduğuna görə, bir sıra diplom və medallarla təltif edilib.

Ceyhun Zəngilan istiqamətində gedən döyüşlərdə şəhid olub. O, doğulduğu Lerik rayonunda anası Gülşən Səfərovanın yanında dəfn edilib. Atası oğlunun şəhid olduğu Zəngilan rayonuna gedəcəyini söylədi: "Heç vaxt özünü fikirləşmirdi. Bizimlə əlaqə saxladıqda ilk növbədə səhhətimizlə maraqlanırdı. Onsuz yaşamaq çox çətin olsa da, şəhid atası kimi qürurluyam. Oğlum beynindən və gözündən qəlpə yarası almışdı. Allahın köməyi ilə Zəngilana, oğlumun şəhidlik məqamına yüksəldiyi o torpağa getmək istəyirəm. Əsgər yoldaşları deyiblər ki, həmin yeri mənə göstərəcəklər. O torpaqdan bir ovuc götürüb Ceyhunun məzarına səpəcəyəm. Prezident İlham Əliyev oğlumu "Cəbrayılın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif etdi. Bu xəbəri eşidəndə çox sevindim. Həmin an daha da qürurlandım. Şükürlər olsun ki, Ceyhunun qanı yerdə qalmadı. Uzun illər işğalda olan torpaqlarımız belə igid oğullarımızın canı bahasına azad olundu. Şəhidlərimiz ölməyib, onlar həmişə yaşayırlar. Şəhid valideyni kimi çox istəyərdim ki, yaşadığımız küçəyə Ceyhun Səfərovun adı verilsin. Bu həm də həmin ərazidə yaşayan insanların arzusudur".

Bibisi Rəxşəndə Səfərova deyir ki, Ceyhun yola düşərkən sağollaşanda, içimdən qəribə bir hiss keçdi. Boynuna sarılıb ona müharibədən sonra gözəl bir toy edəcəyimizi bildirdim. Vətənpərvər oğul idi. Torpaqlarımızın işğaldan azad olunmasını çox istəyirdi. Yaxşı ki, Ceyhunun arzusu gerçəkləşdi.

Ailənin böyük oğlu Valeh Səfərov cəbhəyə gedən qardaşı ilə görüşə bilmədiyini çox təəssüflə söylədi: "Mən işdə olarkən yola düşmüşdü. Axırıncı dəfə sentyabrın 28-i axşam saatlarında evdə görüşmüşdüm. O, əvvəlcə Cəbrayıl, Füzuli ərazisində döyüşdüyünü bildirdi. Lakin məlumatları tam olaraq bizə demirdi. Hərbi sirr olduğuna görə biz də ondan nəyisə öyrənməyə çalışmırdıq. Ölümündən sonra bildik ki, Ceyhun Zəngilan istiqamətinə kimi gedib çıxıb və oradakı döyüşlərdə iştirak edib. Komandirləri də Ceyhunun igidliyi və qorxmazlığından danışırdı".

Ortancıl qardaşı Taleh Səfərov deyir ki, qonşuları Ceyhunun xatirəsini əbədiləşdirmək üçün yaşadıqları evin divarına şəhidin şəkli olan lövhə yerləşdiriblər: "Qardaşımla keçirdiyim hər an mənim üçün unudulmaz xatirədir. Bir-birimizlə məsləhət alıb, fikir mübadiləsi aparırdıq. O, mənim təkcə qardaşım deyil, həm də sirlərimi bölüşdüyüm dostum idi. Ceyhunun xatirəsini əbədi yaşadan hər kəsə ailəmiz adından təşəkkürümüzü bildirirəm. Onun arzuları çox idi..."

Səfərovlar ailəsinin ən kiçiyi Saleh Səfərov isə qardaşıyla bağlı xatirələrdən danışarkən kövrəldi, sözünü deyə bilmədi.

## Tarixi qələbə bizim milli qürur mənbəyimizdir

Milli-mənəvi birliyimiz, vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük Vətən müharibəsində özünü daha bariz şəkildə göstərdi. Bu oğullar öz xalqının əsrlərin sınağından çıxmış milli xüsusiyyətlərinin sadiq daşıyıcılarıdır. Onların igidlik nümunələrində xalqın, millətin köklü duyğuları yaşayır. Hazırda ölkənin hər yerində onlara ehtiram olaraq abidələr, xatirə kompleksləri, bulaqlar inşa edilir, həsr olunmuş guşələr yaradılır, yeni yaşıllıq zolaqları salınır. Əlamətdar və tarixi günlərdə, bayramlarda Şəhidlər xiyabanları ziyarət olunur. Şəhid ailələri ilə daim əlaqə saxlanılır, onların problem və qayğılarının müsbət həlli üçün lazımi tədbirlər görülür. Bu gün Ümummilli Liderin ordu quruculuğu siyasəti möhtərəm Prezident tərəfindən uğurla davam etdirilir. Silahlı Qüvvələrimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz gücünü Vətən müharibəsində bir daha ortaya qoydu. Müzəffər Ali Baş Komandan və Azərbaycan Ordusu böyük qələbə ilə tarixdə yeni səhifə açdılar. İki ildir ki, 26 İyun Silahlı Qüvvələr Günü respublikamızın hər yerində daha əlamətdar keçirilir. 44 günlük Vətən müharibəsində əldə olunan tarixi qələbə bizim milli qürur mənbəyimiz, şərəfli tariximizdir. Bu zəfəri xalqımıza yaşadan Müzəffər Ali Baş Komandan və rəşadətli Azərbaycan Ordusudur.

*Elşən YƏHYAYEV, "Azərbaycan"*

# Azərbaycan Ordusu: *dünəndən bu günə...*

Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) elan edilməsindən sonra milli hökumətin qarşısında duran əsas vəzifələrdən biri ordunun formalaşdırılması idi. Bu olmadan Cümhuriyyətin müstəqilliyinin qorunması və bolşevik-daşnak hərbi təhdidlərindən müdafiəsi mümkün deyildi. Azərbaycanın istiqlaliyyətinin elan olunduğu tarixi şərait, yerləşdiyi bölgədə cərəyan edən proseslər xalqın müstəqilliyinə real dayaq ola biləcək ordunun formalaşdırılmasını tələb edirdi.



Ordu quruculuğunun özünəməxsus cəhətləri var və ona riayət edilmədiyi təqdirdə ciddi çətinliklər yarana bilər. Hər bir ölkədə bu prosesin özünəxas xüsusiyyətləri var. Azərbaycan Ordusunun qısa müddət ərzində formalaşdırılmasının əsas səbəblərindən biri də bu idi ki, prosesə rəhbərlik edən şəxslər ümumi nəzəri bilikləri və zəngin təcrübələri ilə ordu quruculuğunun Azərbaycan şəraitindən irəli gələn xüsusiyyətlərini çox incəliklə və üzvi şəkildə birləşdirə bilmişdilər.

Milli hökumətin 26 iyun 1918-ci il tarixli fərmanı ilə Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Avqustun 1-də Hərbi Nazirlik təsis edildi. Yeni şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması Hərbi Nazirliyin üzərinə düşürdü. Bu struktur hökumətin qarşısında dayanan tarixi vəzifələrin həllində çox mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının Sədri Fətəli xan Xoyski öz üzərinə götürmüşdü. Artilleriya generalı Səməd bəy Mehmandarov nazir müavini təyin edilmiş və qurumun formalaşdırılması ona tapşırılmışdı.

1918-ci ilin sonu, 1919-cu ilin əvvəllərində nazirliyin strukturunda dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə general Səməd bəy Mehmandarov hərbi nazir təyin edildi. Hökumətin 29 dekabr 1918-ci il tarixli qərarı ilə isə general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin olundu. Bunlar Milli Ordunun formalaşması istiqamətində hökumətin qəbul etdiyi dəyərli qərarlar idi. Çünki hər iki şəxsiyyətin təcrübəsi və peşəkarlığı orduda quruculuğun səmərəli xarakter almasına zəmin yaratdı. Onların öncüllüyü ilə ölkədə yüksək döyüş qabiliyyətli, hərbi hazırlığa və intizama malik, milli zəminə söykənən ordu bölmələrinin təşkili prosesinə qədəm qoyuldu.

Lakin bu istiqamətdə çətinliklər də mövcud idi. İlk növbədə müasir hərb sənətinin incəliklərini mükəmməl bilən kadrlar çatışmırdı. Ömrü az, tarixi xidmətləri onillərə bərabər, Şərqin ilk demokratik respublikasını quran cəfakeşlər bu işin də öhdəsindən şərəflə gəldilər.

O dövrdə həm ölkə parlamenti, həm də Nazirlər Şurası bu istiqamətdə öhdələrinə düşən vəzifələrə böyük məsuliyyətlə yanaşırdılar. Milli parlamentin mövcudluğu dövründə hərbi quruculuğun müxtəlif sahələri ilə bağlı 9 qanun layihəsi nəzərdən keçirilmiş, müvafiq qərarlar qəbul edilmişdi. Qərarların hər biri dövlətin müdafiə gücünün artırılması üçün həm cari, həm də perspektiv əhəmiyyətə malik idi. Bu qərarlar icraedici orqanların ordu quruculuğu ilə bağlı fəaliyyətinin istiqamətləndirilməsi üçün hüquqi baza idi. Ordunun təchizatının yaxşılaşdırılması və ölkənin müdafiəsinin daha da gücləndirilməsi üçün daxili potensial səfərbərliyə alınmaqla yanaşı, həm də fəal xarici siyasət yeridilirdi. Həm müttəfiqlər, nüfuzlu dünya dövlətləri, həm də yaxın qonşularla diplomatik əlaqələrin qurulmasına cəhd göstərilirdi.

Hərbi Nazirliyin bərpa edilməsindən sonra diqqət pərakəndə vəziyyətdə olan hissələri möhkəmləndirmək və onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə yönəldildi. Hərbi təchizat da vacib məsələ idi. 1918-ci il noyabrın 27-dən dekabrın 3-dək ordu rəhbərliyi Gəncə və Ağdam ətrafında yerləşən hərbi hissələrə səfər etdi və oradakı vəziyyətlə yerində də tanış oldu. Hərbi hissə və bölmə komandirlərinin qarşısında belə bir vəzifə qoyulmuşdu: Müstəqil Azərbaycan Ordusunda xidmətə başlayan hər kəs və hamı dərhal Azərbaycan Respublikasına sədaqət andı içməlidir!

Bütövlükdə AXC ordusunun təşkili hərb tariximizdə və Azərbaycan xalqının tarixində əhəmiyyətli bir hadisə idi. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ordunun yaradılması prioritet vəzifələrdən biri idi. Təəssüf ki, ilk dövrdə bu məsələdə kobud səhvlər buraxıldı. Azərbaycanın vahid komandanlığa əsaslanan nizami ordusunu Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdışından sonra qurdu. Müasir Azərbaycan dövlətinin banisi olan Heydər Əliyev həm də torpaqlarımızı qətiyyətlə müdafiə edə biləcək ordu formalaşdırdı. Atəşkəsə qədər ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar Heydər Əliyevin nə qədər böyük strateq və təcrübəli dövlət xadimi olduğunu göstərdi.

Atəşkəsdən sonra qısa müddət ərzində ordunun mükəmməl idarəetmə strukturları formalaşdırıldı, milli hərbi kadrların hazırlanmasının sistemi quruldu, milli dəyərlər ordu quruculuğunun başlıca xüsusiyyətinə çevrildi və nəticədə döyüşkən bir ordu meydana gətirildi.

Dünyanın son təcrübəsini mənimsəyən yeni bir ordunun yaradılması Heydər Əliyevin başlatdığı, İlham Əliyevin davam etdirdiyi uğurlu ordu quruculuğu siyasətinin möhtəşəm nəticəsidir. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. 44 günlük Vətən müharibəsi bunun bariz nümunəsidir. Bu müharibədə Azərbaycan Ordusu torpaqlarımızı sürətlə işğaldan azad etdi. Doğma torpaqlarımızda yenidən üçrəngli, ay-ulduzlu şanlı bayrağımız dalğalandırıldı. Bu zəfəri bizə Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi və ordumuzun şücaəti qazandırdı...

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Müzəffər, qüdrətli, modern

## 104 yaşlı Azərbaycan Ordusu dünyanın ən güclüləri sırasındadır

26 İyun - Qafqazın ən güclü, ən hazırlıqlı ordusunun şərəf günüdür!
Hərb salnaməmizdə parlaq səhifə açan Silahlı Qüvvələrin qürur tarixidir!
Bu gün 104 yaşını fəxarətlə qeyd etdiyimiz Müzəffər Ordunun yazdığı Zəfər tarixinin təntənəsini yaşamaqdayıq. Cənubi Qafqazda 200 illik münaqişəyə, 30 illik işğala son qoyan qüdrətli Azərbaycan Ordusu ildönümünü qalib qüvvə kimi qeyd edir.

### Gücümüzün simvolu

"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin vaxtilə torpaqlarımız işğal altında olarkən səsləndirdiyi bu fikirləri bəlkə də o vaxt çoxları xəyal kimi qəbul edirdi. Amma zaman göstərdi ki, o fikirlər söz xatirinə səsləndirilən fikirlər deyildi, Ali Baş Komandan tərəfindən deyilən bu sözlərin arxasında böyük həqiqətlər dayanırdı. Çox keçmədi ki, sözü imzası qədər keçərli olan İlham Əliyev yaratdığı Müzəffər Ordu ilə əsl sərkərdə məharətini dünyaya nümayiş etdirdi. Beynəlxalq birliyin ən böyük təşkilatı olan BMT-nin çıxardığı və icrasını yerinə yetirə bilmədiyi qətnamələri İlham Əliyev cəmi 44 gün ərzində həll etdi və bununla da tarixi ədalət bərpa olundu. Bacarıqlı, təcrübəli komandanlıq altında idarə edilən döyüşlərə atılan cəsur hərbçilərimiz düşmənin illərlə hazırladığı eşelonlaşdırılmış müdafiə xəttini qısa müddətdə yararaq irəliləməyə başladı. Döyüş meydanından vahimə içində qaçan düşmənin yüzlərlə müxtəlif döyüş texnikası, silah-sursatı məhv edildi və ya qənimət kimi ələ keçirildi. Həm canlı qüvvə, həm də döyüş texnikası sarıdan böyük itkilərə məruz qalan Ermənistan ordusu darmadağın edildi. Beləliklə, "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı.

Bu gün 104-cü ildönümünü qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələri cəmi 44 gün ərzində sübut etdi ki, bu ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.













### Ən mobil, ən yüksək döyüş hazırlığına malik ordu

Lakin etiraf etməliyik ki, bu Zəfər heç də asan başa gəlməyib. Azərbaycan Ordusunun Qafqazın ən güclü Silahlı Qüvvəsinə çevrilməsi üçün İham Əliyev ordu quruculuğu sahəsində kompleks şəkildə islahatlar həyata keçirdi.

Ali Baş Komandanın orduya göstərdiyi diqqət və qayğısı, onun döyüş hazırlığı, maddi-texniki bazasının daim yenilənməsi və ən əsası, hər bir əsgərin döyüş əzminin yüksəkliyi hər zaman prioritet oldu. Əgər belə olmasaydı, ilbəil orduya ayrılan vəsaitin həcmi artırılmazdı, maddi-texniki baza daha da gücləndirilməzdi, yeni-yeni silah-sursat və hərbi texnika alınmazdı. Məhz bu proseslər sayəsində, həmçinin ölkədə hərbi sənayenin inkişafı ilə Azərbaycan Ordusu regionun ən güclü ordusuna çevrildi. Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası, intellektual potensialı inanılmaz dərəcədə inkişaf etdi. Bütün bunlar istər yerli, istərsə də beynəlxalq hərbi ekspertlərin Azərbaycan Ordusunu Cənubi Qafqazda ən mobil, ən yüksək döyüş hazırlığına malik bir silahlı qurum kimi dəyərləndirməsinə zəmin yaratdı.

Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirdi. Son illər ərzində yaradılan hərbi zavodlarda çoxsaylı hərbi təyinatlı müxtəlif məhsullar istehsal olundu, ordumuz hərtərəfli şəkildə təchiz edildi. Ən müasir texnika və silahlar alındı. Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən birinə çevrildi.

Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrdə bütün istiqamətlərdə aparılan islahatlar uğurlu nəticəsini verdi və ordumuz qarşıya qoyulan məqsədə doğru inamla irəlilədi. Bu uğurlu addımlar bizi Qarabağa apardı...

Sentyabrın 27-də başlanıb noyabrın 10-da Ermənistanın hərbi kapitulyasiyası ilə bitən an İkinci Qarabağ savaşında Azərbaycan Ordusunun Zəfər yürüşü dünyaya səs saldı. Yeni taktika ilə Azərbaycan dünyaya necə bir qüdrətli orduya sahib olduğunu göstərdi.

Nəzərə alınmalıdır ki, düşmən təqribən 30 il ərzində müdafiə səddini çox güclü şəkildə qurmuşdur. Möhkəm müdafiə xətti, üstəlik uzunmüddətli atəş nöqtələri, sığınacaqlar yaratmışdı. Dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmaq üçün böyük cəsarət, qorxmazlıq, peşəkarlıq tələb olunurdu. Azərbaycan Ordusunun hər bir hərbçisi əsl qəhrəmanlıq göstərərək düşmənin müdafiə xəttini asanlıqla yara bildi.

Bu əməliyyatlarda çox dəqiq hesablama və konkret şərait üçün unikal strategiya tətbiq edildi. Pilotsuz uçuş aparatları (PUA) isə yeni müharibə formatının bünövrəsini qoydu. Bəzi mütəxəssislər bunu "smart müharibə" də adlandırırlar.

### Yeni döyüş taktikası, peşəkarlıq və qələbə əzmi...

XXI əsrdə döyüş əməliyyatlarının aparılmasının yeni modeli ilə Azərbaycan bir daha göstərdi ki, keçmiş hərb taktikası, hücum əməliyyatları artıq arxivləşib. Savaş meydanında yalnız yeni döyüş növləri üstünlüyü təmin edə bilər.

Şanlı qələbəmizlə bitən müharibədə həyata keçirilən döyüş əməliyyatları zamanı müasir silahlardan - PUA-lardan, döyüş sursatından, yüksək dəqiqliklə hədəfi məhvetmə vasitələrindən bu miqyasda istifadə olunması dünyanın aparıcı ölkələrinin baş qərargahları tərəfindən öyrənilməyə başlandı.

Yəni bir ordunun başqa bir silahlı birləşmə ilə döyüşdə bu qədər yüksək dəqiqlikli silahdan istifadə etməsi nümunəsini dünya hələ görməmişdi. Hücum dronlarının istifadəsinin miqyası və intensivliyi baxımından bu, dünya tarixində ilk idi. Hərbi mütəxəssislər deyirlər ki, indiyədək nə ABŞ, nə Rusiya, nə İsrail, nə də dünyanın hansısa başqa bir ölkəsi belə bir miqyasda dronlardan istifadə edib. Bu cür qarşıdurmalarda PUA-lar mübahisəsiz-filansız öz üstünlüyünü sübut edir. Azərbaycan PUA-larının hədəfi düşmənin hava hücumundan müdafiə qüvvələri, ardınca onun zirehli maşınları, yüksək səviyyədə qorunan hədəfləri və canlı qüvvəsi idi.

İkinci Qarabağ müharibəsində Azərbaycan həm də yeni təcrübə topladı. Çünki ordumuz bunadək, demək olar ki, belə miqyasda müharibədə iştirak etməmişdi. Sadəcə olaraq, bu sahəyə nəzəri baxımdan yanaşırdı. Vətən müharibəsində Zəfər qazanmağımızda böyük rolu olan amillərdən biri də Azərbaycan əsgər və zabitlərinin peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, cəsurluğu, vətənpərvərliyi, inamı, şəxsi rəşadətləri, qələbə əzmi, döyüş əhvali-ruhiyyəsi idi.

Sözün həqiqi mənasında, döyüş meydanında yeni tarix yazan Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, şəxsi rəşadət, igidlik, qanı və canı bahasına bu qələbənin əldə olunmasını təmin etməsi hər bir soydaşımızda qürurverici anlar yaşatdı, qəlbləri fərəhlə doldurdu.

Güclü ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, ordu ilə xalqın vəhdətinin təmin edilməsi möhtəşəm qələbənin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə dünyanın ən güclü, müasir, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi.

Ali Baş Komandanın orduya göstərdiyi diqqət və qayğı, onun döyüş hazırlığı, maddi-texniki bazasının daim yenilənməsi və ən əsası, hər bir əsgərin döyüş əzminin yüksəkliyi hər zaman prioritet olaraq qalır.

Bu gün də Ali Baş Komandan İlham Əliyev hərbi quruculuq sahəsində islahatlar aparmaqda davam edir. İşğaldan azad edilmiş torpaqlarımızda yeni hərbi birləşmələr yaradılır və ən müasir hərbi texnikalarla təchiz edilir. Bütün hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi işlər görülür.

Hazırda Cənubi Qafqazın ən qüdrətli hərbi gücünə malik olan Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Bu gün qarşıda dayanan əsas vəzifələrdən biri ordunun daha da gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsidir. Hazırda Azərbaycan Silahlı Qüvvələri döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda da var. Ölkəmizin inkişaf etmiş hərbi sənaye kompleksi də bu gücə güc qatır. Son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edir. Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan hazırda piyadaların özünümüdafiə və düşməni məhvetmə vasitələrindən olan kiçik və ortaçaplı atıcı silahlar istehsal edən azsaylı ölkələrdən biridir.

Bir sözlə, Azərbaycan Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Bütün bunlar göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Həm ordunun arsenalına ən modern silahlar daxil edilir, həm qoşun növlərinin döyüş qabiliyyəti artırılır, həm də hərbçilərin sosial şəraiti yüksəldilir. Bütün bunlar İlham Əliyevin Ali Baş Komandan kimi əzmkar fəaliyyətinin daha bir əməli nəticəsidir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Milan Politexnik Universitetinin nümayəndə heyətinin İtaliya-Azərbaycan Universiteti çərçivəsində Azərbaycana səfəri yekunlaşıb

Milan Politexnik Universitetinin yeddi nəfərdən ibarət nümayəndə heyəti iyunun 19-22-də İtaliya-Azərbaycan Universiteti çərçivəsində Azərbaycanda səfərdə olub.





Səfərin məqsədi ADA Universitetinin bazasında fəaliyyət göstərəcək İtaliya-Azərbaycan Universitetində Memarlıq və dizayn fakültəsini təsis etmək üçün ilkin araşdırmanın aparılması idi.

Bu barədə AZƏRTAC-a ADA Universitetindən məlumat verilib.

Nümayəndə heyəti ölkənin memarlıq və şəhərsalma üzrə strateji inkişaf planında nəzərdə tutulan sahələrə uyğun akademik proqramların müəyyən olunması üçün ADA Universitetinin rektoru Hafiz Paşayev ilə müzakirələrlə yanaşı, bir sıra dövlət qurumları ilə sıx məşvərətlər aparıb. Belə ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Rüfət Mahmud, Qarabağ iqtisadi rayonu üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov ilə görüşlər keçirilib.

İtaliya-Azərbaycan Universiteti hər iki dövlət üçün strateji maraq kəsb etdiyindən səfər çərçivəsində, eyni zamanda İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri ilə də görüş keçirilib, əməkdaşlığın çərçivəsi və perspektivi müzakirə edilib.

Eyni zamanda sözügedən fakültə çərçivəsində yaradılacaq akademik proqramların yerli əmək bazarının tələblərinə uyğunlaşdırılması üçün Memarlar İttifaqının İdarə Heyətinin sədri professor Elbay Qasımzadə və bir qrup gənc memar ilə ətraflı fikir mübadiləsi aparılıb. Bundan əlavə, dizaynyönümlü proqramların hazırlanması üçün xalçaçılıq və digər xalq tətbiqi sənət növləri sahəsində ixtisaslaşmış yerli brendlərlə tanış olublar. Habelə nümayəndə heyəti Bakı şəhərinin memarlıq tarixi və ADA Universitetinin kampusunun dizaynı ilə də yaxından tanış olub.

İtaliya-Azərbaycan Universiteti üzrə İşçi Qrupunun rəhbəri Qalib Məmməd bildirib ki, bu əməkdaşlıq çərçivəsində memarlıq, şəhərsalma, landşaft dizaynı, interyer, kommunikasiya və sənaye dizaynı kimi strateji sahələr üzrə akademik proqramlar təsis olunacaq. Bu proqramlar Milan Politexnik Universiteti ilə bərabər tədris olunacaqdır.

Milan Politexnik Universitetinin nümayəndə heyəti bildirib ki, bu əməkdaşlıqda məqsəd innovasiyayönümlü, lakin ölkənin milli mədəniyyətini, mənsubiyyətini və ənənələrini özündə ehtiva edəcək proqramlar yaratmaqdır.

Xatırladaq ki, İtaliya-Azərbaycan Universitetinin təsis edilməsinə Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik, Turin Politexnik və Romanın Sapienza Universitetləri daxil olmaqla, İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi cəlb olunub. Bu ilin aprel ayında Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, energetika naziri Pərviz Şahbazov və təhsil naziri Emin Əmrullayev və İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Luici Di Maionun iştirakı ilə İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi keçirilib.

# İyulda müddətli həqiqi hərbi xidmətə göndəriləcək çağırışçılar xidmət yerləri haqqında məlumatlandırılıblar

Azərbaycan Respublikasında 2022-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmətə göndəriləcək çağırışçılar Silahlı Qüvvələr üzrə xidmət yerlərinə təyinatla bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən iyunun 25-də SMS vasitəsilə məlumatlandırılıblar.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlar xidmət edəcəkləri hərbi hissə və qoşun növünü SHXÇDX-nin rəsmi internet saytının "Elektron xidmət" bölməsinin "Həqiqi hərbi xidmətə çağırılan çağırışçıların hərbi xidmətkeçmə yeri haqqında məlumatlar" alt bölməsində tələb olunan məlumatları müvafiq qaydada daxil etməklə dəqiqləşdirə bilərlər. Bununla yanaşı, müddətli həqiqi hərbi xidmətə göndərilənlər mobil telefonlardan şəxsiyyət vəsiqələrinin nömrələrini (yeni nəsil şəxsiyyət vəsiqələrində isə seriya və nömrəni probelsiz daxil edərək) 9100 nömrəsinə qısa mesaj şəklində göndərməklə də müddətli həqiqi hərbi xidmətə çağırış barədə məlumat əldə edə bilərlər. Bu xidmətdən bütün mobil operatorlara məxsus nömrələri olan şəxslərin istifadəsi mümkündür. Çağırışçılara SHXÇDX-nin yerli baş idarə, idarə, şöbə və bölmələrində qeydiyyat zamanı təqdim etdikləri mobil nömrələrini aktiv saxlamaları tövsiyə olunur.

Qeyd edək ki, SHXÇDX-nin internet saytında çağırışçıların məlumatlandırılması xidməti hər il çağırış başlamazdan əvvəl - dekabr, mart, iyun, sentyabr aylarının sonunda aktivləşir. Azərbaycan Prezidenti İlham Əliyev iyunun 1-də "Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncam imzalayıb. 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları sərəncama əsasən 2022-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

# İşğaldan azad olunan Füzuli istiqamətində şəhərlərarası ilk müntəzəm avtobus marşrutu istifadəyə verilib

İyunun 25-də Bakı-Füzuli-Bakı istiqamətində şəhərlərarası müntəzəm avtobus marşrutu istifadəyə verilib. İlk avtobus səhər saat 7-də Bakı Beynəlxalq Avtovağzal Kompleksindən yola düşüb.

Sərnişinlər yolboyu dağıdılmış kəndləri, məhv edilmiş infrastrukturu müşahidə ediblər. Beş saatdan sonra sərnişinlər uzun illər həsrətində olduqları Füzuliyə çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuli sakinləri 30 il əvvəl tərk etdikləri doğma yurdlarının erməni vandalizmi nəticəsində tanınmaz hala düşdüyünün şahidi olublar. Xalqımızın tarixini, mədəni irsini Yer üzündən silmək cəhdi, evlərə, abidələrə, hətta qəbirlərə, məscidlərə qarşı törədilən terror erməni vəhşiliyinin heç bir sərhəd tanımadığını bir daha nümayiş etdirir.

Vətəndaşlar bələdçinin müşayiəti ilə əvvəlcədən müəyyən edilmiş marşrut üzrə Merdinli kənd məscidini, Füzuli şəhər mərkəzini və Füzuli Beynəlxalq Hava Limanını, Qarğabazar Karvansaray kompleksini ziyarət ediblər. Səfər iştirakçıları işğal ərəfəsində ermənilər tərəfindən Merdinli kənd məscidinin heyvan saxlanması üçün istifadə edildiyinin də şahidi olublar.

Sərnişinlərin məlumatlandırılması və təlimatlandırılması üçün avtobuslarda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) mina təhlükəsizliyi ilə bağlı təqdim etdiyi videoçarxlar nümayiş olunub. Avtobuslar ilkin tibbi yardım çantaları ilə təchiz edilib.

Sərnişin daşınması ilə bağlı sistemliliyin təmin edilməsi və sərnişindaşımaya dair məlumat bazasının formalaşdırılması məqsədilə marşrut xətləri üzrə bilet satışı http://www.yolumuzqarabaga.az portalı üzərindən onlayn qaydada həyata keçirilir. Təhlükəsizliyin təmin edilməsi, işğaldan azad olunmuş ərazilərə giriş icazəsinin bilet alışı prosesi ilə sinxronlaşdırılması, güzəşt tətbiq ediləcək şəxslərin müəyyənləşməsi üçün onlayn bilet satışı portalı müvafiq informasiya sistemlərinə inteqrasiya olunub.

Qeyd edək ki, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin işğaldan azad olunmuş ərazilərə yanvarın 24-dən istifadəyə verdiyi müntəzəm avtobus marşrutları ilə bu günədək 206 reys həyata keçirilib. 8857 nəfər Şuşa və Ağdam şəhərlərini ziyarət edib.

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 15 oktyabr (Çərşənbə axşamı günü) tarixli XV nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 8 məhərrəmülhəram sənə 1337. 15 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## Abunəçilərin nəzər-diqqətinə

"Azərbaycan" qəzetəsi iki dildə, türkcə və rusca ayrı-ayrı olaraq nəşr edilməkdədir. Abunəçilər abunə yazdırdıqları vaxt, hangi lisanda qəzetə alacaqlarını işarə etməlidirlər.

*İdarə*

## ELAN

Bağlarda açılan "Hilali-əhmər" [Qırmızı Aypara] cəmiyyətinin şöbə əzasından [üzvlərindən] rica olunur ki, toplanan para, ərzaq və dəftərləri Sabunçuda "Sovet syezd" məktəbində Tofiq bəyə təslim etsinlər.

***Üzv: Ağahüseyn Gözəlzadə***

## Mama M. Q. Şerman

Qəbul edir: mamalıq, ovmaq (masaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır. Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində, 2-ci mərtəbə.

## Satılır

Mixaylovski küçədə Hüseynovun evində Hacıağa Qədirovun "Skupilni" mağazası satılır. Xahiş edənlər məzkur [adı çəkilən] mağazaya müraciət etsinlər.

Siyasi, ictimai, ədəbi və iqtisadi gündəlik

**«AZƏRBAYCAN»** qəzetəsinə

abunə dəftəri açıqdır.

Qəzetəmizdə iştirak etmək üçün müqtədir qələm sahiblərindən lazımi əşxas[ı] idarəmiz dəvət etmişdir. Böyük şəhərlər və əhəmiyyətli mövqelərdə müxbirlərimiz mövcuddur.

Tiflis ilə xüsusi telefon müxabirəmiz [xəbərləşməmiz] olmaqla bərabər, teleqraf acentəliyimiz hər bir mühüm xəbərləri intişara [yaymağa] çalışacaqdır. Kağız bahası [qiyməti] və başqa məvadd [maddələr] sabit olmamağı münasibəti ilə, şimdilik abunə bahası yanvar ayının birinədək qəbul edilir.

| Bakıda: | Başqa şəhərlərdə: |
| --- | --- |
| 3 aylığı 35 rublə; | 3 aylığı 42 rublə; |
| 1 aylığı 12 rublə. | 1 aylığı 19 rublə. |

**Müraciət üçün adres:**

Bakı, Kolyubakinskaya küçədə (Parapet) "Azərbaycan" qəzetəsi idarəsi.

Баку, Колюбакинская, контора газеты "Азербайджанъ".

## İXTAR [XƏBƏRDARLIQ]

Bu gündən etibarən "Azərbaycan" qəzetəsi Zaqafqaziya ajansından aldığı teleqrafları dərc etməyə başlayacaq və bundan sonra isə belə teleqrafların qəzetəmizdə olması üçün təşəbbüsdə bulunacaqdır.

## AZƏRBAYCAN CÜMHURƏYYƏT[İ] DAİRƏSİNDƏN MƏMLƏKƏTLƏRƏ HƏMİŞƏLİK KÖÇÜB GEDƏN ŞƏXSLƏRİN KƏNDİLƏRİ İLƏ GÖTÜRDÜKLƏRİ ŞEYLƏR HAQQINDA MÜVƏQQƏTİ QANUN

Azərbaycan Cümhuriyyəti dairəsindən gedənlər 2 manatlıq gerbovoy və 60 qəpiklik kanselyarski markası olmaq üzrə gömrükxanaya ərzihal [ərizə] verməlidirlər. Bununla bərabər, aparılacaq şeylərin iki nüsxə siyahısı dəxi təqdim edilməlidir ki, gömrükxana bu siyahı üzərinə şeylərə baxsın. Bu siyahılarda hər biri əlahiddə [ayrı-ayrılıqda] bağlanmış şeylərin ədədi lazım olmayıb, ancaq ümumi olaraq adları yazılmalıdır. Məsələn libas, ayaqqabı, camaşır, stalovı belyo, xörək qabları, mətbəx qabları, kitab və qeyri. Aparılacaq şeylərə Bakı körpülərində, dəmiryol mövqiflərində [stansiyalarında] bu məqsəd üçün hazırlanmış xüsusi yerlərdə baxılır. Siyahı üzərinə təhqiq edilmiş şeylər dəmiryol və ya paraxod idarələri ixtiyarına tapşırılır. Təhqiq edilmiş şeylərə plomb vurulub, gömrükxana məxarici olmaq üzrə hər bir bağlı əlahiddə yük üçün bir manat alınıb, əşya sahibinə qəbz verilir.

Şeylərə öz sahibi yanında və ya onun əvəzindən şəxsiyyəti məlum olan şəxsin yanında baxılır. Şeylərin siyahı üzərə təhqiq edildiyi vaxt, polis tərəfindən də bir nümayəndə iştirak edir. Təhqiqat nəticəsi siyahılar üzərində qeyd edilib, siyahılardan biri əşya sahibinə qaytarılır. Digəri isə əşya sahibinin ərizəsi ilə bərabər gömrükxanada qalır.

Gömrük xərci alınmamış şeylər olduğu zaman, sərnişinlər əşyası üçün qoyulan ümumi əsas üzərinə həman şeylərə baxılıb, gömrük xərci alınır və yaxud o şeylər əşya sahibinin xahişinə görə Bakıda qalır.

Gömrük xərci ancaq mal cənbində [qismində] olan şeylərdən alınır. Xidmətləri mövcibincə [səbəbiylə] hər dəfə sərhədləri keçib gedənlər yolda və xidmətdə özlərinə lazım olan şeylərdən başqa, gömrük xərci vermədən başqa əşya və mal götürməyə haqlı deyildirlər.

Cümhuriyyət dairəsindən gedənlərin arzusuna müvafiq, əşyalarına gömrükxanaya yaxın yaşadığı yerdə və ya sərhəd gömrükxanasında baxıla bilər. Gömrükxana tərəfindən bir dəfə təftiş edilən əşyalar, ali məmurlardan əmr olmadığı zaman ikinci dəfə heç kəs tərəfindən təftiş ediləmməzlər.

Qeyd: Sərnişinlərin vaqonda öz yanlarında götürəcəkləri və sərhəd gömrükxanası tərəfindən təftiş edilməsi lazım gələn əşyalar üçün ərzihal verilməsi lazım deyildir.

İşlədilmiş şeylər gömrükxana vergisindən azad edilirlər. Məsələn mebel (obstanovka), əlbisə, camaşır, yatacaq və xörək belyosu, matras, balış, yorğan, (bir ədəddən artıq olmamaq üzrə) xalça, mətbəx qabları, yemək qabları, və əkkas [fotoaparat] və tikiş makinaları bir ədəddən artıq olmamaq üzrə.

Avtomobil, motosiklet, velosiped və qeyri çarxlı arabalar ancaq Maliyyə vəziri tərəfindən verilən xüsusi icazənamə ilə çıxarıla bilər.

Qalan şeylərə müvəqqəti vergi qərarı ilə gömrük vergisi verilir.

Baha qiymətli mədən şeylərini hər bir şəxsə iki ədəd gömrükxana vergisi vermədən [aparmaq] icazəsi verilir. Bundan artıq aparanlar isə qiymətinin 30 faizi qədərincə vergi verməlidirlər. Gümüş ev əşyalarından işlədilmişləri hər adama iki girvənkə olmaq üzrə çıxarılır. Bundan artıq olduğu zaman, baha qiymətli mədəni şeylərə müvəqqət tarifə qərarı ilə qiymətinin otuz faizi gömrük vergisi verilir.

Xüsusi sənət sahibləri öz sənətləri üçün yarar əşyaları gömrük vergisi vermədən aparmağa muxtardırlar [ixtiyarları var].

Cildli, cildsiz hər cür təb [çap] edilmiş kitablar, xəritələr və ramkalı və ramkasız əkslər gömrükxana vergisindən müafdırlar [azaddırlar].

Qeyd: Sabunçu mövqifində [stansiyasında] sərnişinlərin əşyalarına baxmaqdan ötrü gömrükxana məmuru ilə bərabər bir nəfər göndərilə bilər. Əşyalara baxmaqdan ötrü gömrükxana məmurlarından bir nəfər məmura qırx və digərinə otuz manat verilir. Bu məbləğ, əşyalarına baxılacaq sərnişinlərdən bərabərcə alınır.

*Maliyyə naziri*
*Məhəmmədhəsən Hacınski*

## TELEQRAFLAR

İstanbul, 3 təşrini-əvvəl [oktyabr]. Tələt paşanın dediyinə görə, Berlində olan alman və türk müzakiratı [müzakirələri] Türkiyə dövləti mənafeyi ilə xitampəzir olmuşdur [başa çatmışdır]. Müttəfiqlərin tədbiri ilə Bolqariya hadisatı [hadisələri] dayandırılacaqdır. Türkiyə Hökuməti tərəfindən lazimi tədbirlər ittixaz olunmuşdur [tədbirlər görülmüşdür].

* * *

Tiflis, 4 təşrini-əvvəl. Xariciyyə Nəzarətindən [Xarici İşlər Nazirliyindən]. Gürcüstan Hökumətinin Moskvadan aldığı rəsmi məlumata görə, Rusiya Şura Hökuməti Zaqafqaz cümhuriyyətlərində və xüsusən Gürcüstan Hökuməti idarələrində danışmağa nə Zaqafqaz Rus Milli Komitəsi və nə də onun nümayəndəsi Lebedevi vəkil etməmişdir. Bundan naşi [buna görə], Gürcüstan Hökuməti Rus Milli Komitəsi nümayəndəsini Şura Hökumətinin rəsmi nümayəndəsi hesab edə bilməyəcəkdir.

* * *

Moskva, 2 təşrini-əvvəl. Mərkəzi Komitə Mətbuat bürosunun məlumatı. Rostov hərbi məhkəməsi Strajevskini güllələnməyə məhkum etmişdir.

*Türk Ocağı*

## MİLLİ TƏRBİYƏ

Bir millətin bəqası [öz varlığını davam etdirməsi] və başqalarının zənciri-əsarəti altında əzilməməsi, rifah və səadətlə yaşaması, o millətin tərbiye-yimilliyyəsinə bağlıdır. Zira bir millət nə qədər kəndi dilində, kəndi ruhunda, kəndi qanında, kəndi ən'ənatında [ənənələrinə uyğun] tərbiyə alarsa, o nisbətdə də kəndisini sevər və bu sayədə kəndi həyati-cavidanisi [əbədi həyatı] üçün çalışar, çabalar. Odur ki, şu həqiqəti təqdir edən müdrik millətlər, milli ocaqlar təsis edərək, bu vasitə ilə millətlərinin tənviri-əfkarına [düşüncələrini aydınlatmağa] və bu surətlə hissiyyati-milliyələrinin yüksəlməsinə çalışmışlar və bununla kəndi mövcudiyyəti-milliyələrini aləmə bildirmişlərdir. Daha doğrusu, bu sayədə başqalarına əzilməkdən xilas olmuşlardır. İştə, yuxarıdan bəri milli tərbiyə haqqında söylədiyimiz o həqiqətlərlə Qafqaziya türklərinin bu ana qədər çəkdiyi əziyyət və məşəqqətləri düşünəcək olarsaq, Qafqaziya türklərinin o əziyyət və məşəqqətlərinə, onların milli tərbiyədən uzaq düşmələri bais olmuşdur desək, yanılmarız zənn edirəm.

Əgər anadan olar-olmaz yabançı südlərlə bəslənilmiş və onların ağuşi-tərbiyəsinə [tərbiyəsinin qucağına] atılmış türk yavruları ilə ana dillərini öyrənmədən, milli tərbiyələrini almadan əcnəbi evlərinə verilən və Rusiya içlərinə göndərilən türk balalarının nə yolda bir hissdə buluna biləcəkləri, hətta eyidən eyi mülahizə edilərsə, balada [yuxarıda] söylədiyimiz o sözlərin bir həqiqət olduğu meydana çıxar.

İştə, bu günlərdə, ənqərib [yaxın zamanda] şəhrimizdə təəssüs edəcək [qurulacaq] Türk Ocağı, gərək yuxarıda söylədiyimiz o acı həqiqətləri düşünsün. Düşünsün də, Azəri türklərinin milli tərbiyələri haqqında böyük bir təşəbbüsdə bulunsun və onların hissiyati-milliyələrinin oyanmasına və türklük kimi böyük bir qayənin intişarına [yayılmasına] var qüvvəsi ilə çalışsın.

Binaileyh təəssüs edəcək Türk Ocağı, həqiqi bir Türk Ocağı olmaq istərsə, onda gərək türk aləminə əl uzadıb onun əhvali-ruhiyyə və tarixiyyəsini havi [ehtiva edən] kitablar nəşr etsin və türk qəhrəmanlarının, ədib və şairlərinin abidələrini yapsın və onların millət və milliyyət uğrunda buraxdığı əsərləri, göstərdiyi fədakarlıqları mühazirə və müsamirələr [yığıncaqlar] vasitəsi ilə əfradi-millətin [millətin fərdlərinin] qəlblərində rəkz eyləsin [dikəltsin]. Və onları, o böyük qəhrəmanların, o türklük məfkurəsini irəli sürən o türkçü şairlərin, o millətçi ədiblərin getdiyi yollara sövqə çalışsın. Hələ müruri-zaman ilə [vaxt ötdükcə] unudulmuş milli əlbisəmizi, milli sərpuşumuzu [baş geyimimizi] nə yolda olduğunu arayıb bulmaqla, milli qiyafətlərimizi əfradi-millətə göstərsin və bununla bərabər, bu gün əşəddi-ehtiyacımız [şiddətli ehtiyacımız] olan çocuq yuvaları təsis edərək, mini-mini türk yavrularını istiqbalın qəhrəman və fədakar bir övladı olmaq üçün türk ruhunda böyüdüb, türk qanında hazırlasın.

İştə, Azərbaycanda təəssüs edəcək Türk Ocağı, mərkəzimiz ola biləcək İstanbul Türk Ocağıyla əlaqədə bulunar da, Azəristanımızda bir program təqib edəcək olarsa, həm bütün türk aləmində bir rabitə hüsula gətirə biləcək və həm də məqsəd nədən ibarətsə, ona nail ola biləcəkdir.

*Rza Zaki*

## QƏZETƏLƏRDƏN

Tiflis qəzetələrinin Vyanadan aldıqları teleqraflara görə Vengeriya Baş Vəziri [Macarıstan Baş Naziri] Vekerle izhar [ifadə] etmişdir ki, hökumət sülh müxabirə və müzakiratı [görüş və müzakirələrinin] başlanması haqqında öz təklifini təkrar etmişdir. Reyxstaqın Sosial-Demokrat Firqəsi ümumi sülh şəraitini [şərtlərini] hazırlamışdır. Sosial-Demokrat Firqəsi tezliklə sülh müzakiratının başlanmasını tələb etməkdədir.

* * *

Hamburqdan teleqrafla xəbər verirlər ki, Çikaqoda olan Amerika Sosialistlər Konqresi müttəhidülqövl [bir səslə] sülh qətnaməsini qəbul etmişdir.

* * *

Moskovadan alınan xəbərlərə görə, Leninin yaşadığı Kremlin sarayında bir qutu böyük, qüvvətli dinamitlər tapılmışdır. Bu münasibətlə bütün sarayın təftiş edilməsi əmri verilmişdir.

* * *

Şura Hökuməti Moskvada vüqu bulacaq iğtişaşlar əleyhinə ciddi tədbirlər ittixaz etməkdədir [tədbirlər görməkdədir]. Fəhlə məhəllələrində pulemyotlar hazırlanmışdır. Teatralnı meydanında, Strastnoy kilsə yaxınlığında, Varvarinski darvazalar yanında toplar düzülmüşdür.

* * *

Tiflis qəzetələrinin yazdığına görə, Tiflisdəki Almaniya mürəxxəsləri [nümayəndələri] yaşadığı bina qarşısında böylə bir lövhə asılmışdır: "Bu axır vaxt Mets şəhərinin alınması və Strasburqa güclü bir ordu hərəkət etməsi haqqında şəhərdə yalan şayiələr nəşr edilməkdədir. Bu şayiələrin Müttəfiqlər acentaları tərəfindən nəşr edildiyi şüphəsizdir. Bu xəbərlər büsbütün əsl və əsassızdırlar. Çünki Almaniya xətti bütün bu cəbhədə (Reyms şimalında) Brimon, Sommpi, Apremon, (Verden şimalında) Beldmon, Vilan-Voyevr, (Pont-a-Musun şimalında) Vandyer, Badenvilldən şərqə və oradan da cənub tərəf xətti-müstəqim [düz xətt] ilə İsveçrəyə tərəf uzanmışdır. Bütün Almaniya cəbhəsi Verdendən İsveçrə sərhədinə qədər sabiqki haldadır."

**Türk duyğuları**
*Qafqaz gənclərinə*

## 2
## ARTIQ OYAN

Bir Allah var, bir də vatan,
Ey türk oğlu, buna inan,
Hər addımda dinə dayan,
Vakıt gəldi, artıq oyan!

Oyan artıq, vakıt gəldi,
Sabah oldu, gün yüksəldi,
Fürsət günü çox bəkləndi,
Vakıt gəldi, artıq oyan!

Top və tüfəng, bomba sənin
Allah deyən gür səsinin
Arasında gürüldəsin,
Vakıt gəldi, artıq oyan!

Vakıt gəldi, oyan artıq!
Sil gözünü, meydana çıx!
Özün təmiz, alnın açıq,
Vakıt gəldi, artıq oyan!

Sən də göstər alnın ağdır,
Öz yerlərin bu torpaqdır,
Yaşamaq da sənə haqdır,
Vakıt gəldi, artıq oyan!

*Təmmuz [iyul] 334*
*Arif İrfan Qaraosman*

## ZƏFƏR YOLUNDA

Gərək müharibədən əvvəl və gərək müharibə əsnasında böyük və möhtərəm türk şairi Mehmed Əmin bəy türk millətinə, türk millətinin duyğularını, bir türk qələmiylə yazdı. Bu böyük ədibin ruhunda həp türklərin oyanması üçün böyük-böyük hisslər doğar. Bunlar birər cövhər, hər türk üçün saxlanacaq, əzbərlənəcək birər böyük və qiymətli əsərlərdir. Biz də bunları yurdumuzda yeni-yeni oyanan milliyyət hisslərini qüvvətləndirmək üçün bu gündən etibarən qəzetəmizdə təfriqə surətilə nəşr edəcəyiz. Birinci olaraq "Zəfər yolunda"kı əsəri intixab etdik [seçdik]. Məqsədimiz böyük millətimizin oyanması, oxuyucularımızın ziyadələşməsidir. Bizdən qeyrət, millətdən rəğbət.

* * * * * * * * * * * * * * * *

*"Azərbaycan"ın təfriqəsi*
*Zəfər yolunda*
*Ənvər paşa həzrətlərinə!*

**Əsər:**

***Məhməd Əmin bəy***

## ORDUNUN DASTANI

*Çanaqqala qəhrəmanlarına*

Bu gün xaqan səfərbərlik elan etdi,
Üç dövlətə cəng topları gürüldətdi.

Əziz yurdun vaqur səsli davulları,
Babaları, qardaşları, oğulları
Ay-yıldızlı al bayrağın
O müqəddəs kölgəsinə çağırıyor,
"Ey qazilər" söylənilən hər soqağın
İçərsində "Hərbə!" deyə bağırıyor.
Milli şair altun sazın tellərində
Şeirlərlə cəngi öysün,
İş ustası qızğın örsün üzərində
Xas çəlikdən qılıc döysün.

Bu gün Şərqin nur yüzünə matəm
çökmüş,
Bir əl onun altununa qurşun tökmüş.
Fəlakətli zamanlarda fəryad edən,
Bizə göyün səslərini eşitdirən
O mübarək Tanrı dağı,
Ulu Kəbə dərin-dərin inildəyir,
Qafqaz yolu, Şət vadisi, Nil irmağı,
Boğazönü qurtarıcı ər istəyir.
Yolumuzun yaşlı, ulu çinarları
Bizləri də salamlasın,
Ayrılığın yaşıl gözlü pınarları
Ardımızdan çağıldasın.

Zira fateh ataların şan verdiyi şu ölkədə
Millətlərə haqq, hürriyyət,
Dövlətlərə, krallara sınır cızan bir
hökumət
Girdablara sürüklənən gəmi kimi
təhlükədə!
Bu dövlətin xərtəsini dəyişdirən
Navarinlər
Yenə bizə o yırtıcı dırnaqlarla pəncə
saldı,
Petro ilə Katerinin yaydıqları alçaq kinlər
Yenə bizi Asyalara sürmək üçün
meydan aldı.
Şu İraqın çöllərindən, Ərzurumun
dağlarından
Seyhələri o qudurmuş canavarlar kimi
vuran,
Zəngin Misri, Hindistanı,
Osman, Babur ellərini soyanların
millətləri,
Türküstanı, Ərdahanı,
Türk və islam yurdlarını əzənlərin
dövlətləri,
Şu Beyruta qundaq soxan Napolyonun
həris nəsli,
Tunis ilə Cəzairi çalanların xain əli...

Bunlardı ki, ən son dəfə Rumelini
parçalatdı,
O zavallı Kosovanın,
Səlanikin, İşkodranın, Manastırın və
Yanyanın
Min acıqlı səhnəsiylə bağrımızı
yaralatdı.
Şu Balkanlar, bayrağımız endirilən
şəhərlərin
Məzar kimi issizliyi içərsində yas
bağladı.
Sularında qızlarımız sürüklənən
nəhirlərin
Mərsiyələr oxur kimi axışıyla qan
ağladı!

Bu gün burda böyük Sultan
Muradların məşhədləri,
Fatehlərin bəldələri, Səlimlərin
məbədləri,

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 15 oktyabr (Çərşənbə axşamı günü) tarixli XV nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Serblilərin, Helenlərin,
Bolqarların ayaqları altlarında
inləməkdə,
Qanımızı içənlərin
Gecə-gündüz vəhşi, quduz səslərini
dinləməkdə.
Artıq şimdi bu ellərdə türkün adı
anılmayır,
Onun haqqı, səltənəti və tarixi
tanılmayır.

Zira bizim xaqanımız bir səmavi
hökmdardır,
Üç qərndir taxtlar quran
Cahangirlər qılıncından, ruhanilər
əsasından,
Hər bir şeydən daha böyük nüfuz,
qüvvət onda vardır.
Altaylarda, Qafqazlarda türk diliylə
qonuşanlar
Onu Turan ellərinin öz sultanı
tanıyorlar,
Kap burnundan Çinə qədər
milyonlarca müslümanlar
Onun hər bir fərmanına Quran kimi
qanıyorlar.
Ondan başqa hərislərin göz tikdiyi hər
gözəl yer,
Rixtimləri gəmilərlə dolu olan
Fenikələr,
Əl-Cəzirə anbarları,
Ninivyənin gül və zanbaq bağçaları bu
gün onun,
Şərqi Roma hasarları,
Fələstinin gümüş qaplı məbədləri
bütün onun,
Ərzin altun anaxtarı bu gün onun
əlindədir,
İstiqbalın bəklənilən bəxti onun
dilindədir.
Bu düşmənlər istəyir ki, bu xaqanlıq
söndürülsün,
Onun uca xilafəti,
Adlı-şanlı səltənəti, geniş, zəngin
məmləkəti
Qərbin bəxtsiz Əməvilər dövlətinə
döndürülsün.
Abdullahı Qırnatada döyündürən
məlun ölüm
Ərtoğrulun nəslinə də qadın kimi saç
yoldursun,
Əndəlüsün alovuyla şəhrayinlər yapan
zülüm
Türk elinin xərabəsi üstünə də kül
doldursun.
Ta ki, onlar hindu, moğol, ərəb və türk
yirmi irqə,
İpək, fağfur, sədəf, yaqut torpaqları
zəngin Şərqə
Bir qüvvətdən qorxmaqsızın
Qırbaclarla, dəmirlərlə, atəşlərlə zülm
etsinlər
Və bu əsri Sezarların
Konsulları ilah olan zamanına
bənzətsinlər.
Ah, o zaman bizlər üçün nə hökumət,
nə milliyyət,
Dini, irqi, hürriyyəti unutduran bir
müsibət!

* * *

Ey vətənin canlı bahar çiçəkləri,
Ey Şərqin saf eşqlər duyan mələkləri,
Ey ilahi bəldələrin
Bakirləri, gəlinləri ağlamayın,
Göz yaşıyla qəlbimizin
Şu sızlayan yarasını dağlamayın.

O millətlər ağlasın ki, erkəkləri,
Qadınları vətən üçün hissizdirlər.
Şairlərin, zənginlərin yürəkləri
Qüvvət, altun vermək üçün xəsisdirlər.

Yurdun böylə fəlakətli günlərində,
Onun yayla, köy, qəsəbə – hər yerində
Hər qəhrəman dəliqanlı
Ən sevgili vücudlardan uzaqlaşır,
Hər gənc zövcə, hər nişanlı
Bir qız qardaş qəlbi kimi duyğu daşır.

Bizim bu gün gördüyümüz hür
millətlər
O fədakar ciftlərin yadigarı,
Gözümüzü qamaşdıran səadətlər
Məşəqqətli zamanların bərgüzarı.

Ağlamayın! Türk qızları
Zəfərlərə yollar açar,
Bozqırların yıldızları
Karvanlara nurlar saçar.

*Sonu var*

## İQTİSADİYYAT

### II
### Yeni vətənimizdə yeni məktəb

Yeni vətənimizin iqtisadi cəhətlərinin təmini, yeni məktəb əsasından asılıdır. Böylə məktəblər bir çocuqlardan ötrü olmamalıdır.

Bizim cəmiyyətlər də böylə məktəblər kimi, üzvləri arasında müəllimlik yapmalı, həyati-iqtisadiyyəni [iqtisadi həyatı] xalq arasında nəşr və təbliğ etməlidir.

Biz filcümlə [hamımız] əski Rusiya məktəblərində tərbiyə və təhsil gördüyümüzdən naşi, gələcək məktəblərimizin də işbu nizam üzrə tərtib tapmasına təbii olaraq çalışacağız. Fəqət əski məktəbin yeni vətənimiz üçün fənalıqdan başqa bir şey gətirməyəcəyinə əminiz.

Məktəb məktəblilərdə gözü açıqlıq, həyatı görmək artırmalıdır. Həyati-iqtisadiyyə isə bundan ötrü ən geniş bir zəmidir. Bütün kürreyi-ərz fəqət bu məsələ ilə uğraşır. Binaileyh [ona görə] məktəbli daimül-övqat [hər zaman] yeni-yeni macəralar qarşısında olacaq, yeni-yeni məsələlər görəcəkdir. Mütəallim [tələbələr] gündən-günə məlumat almaqla tərəqqi etməyə müvəffəq olacaqdır.

Əski məktəb bizə nə vermiş əcəba?

Heyif olsun, təəssüflə məktəbdən heç bir şey almadığımızı etiraf edəcəyiz.

Biz məktəbdən quru sözdən başqa bir şey alammadıq. Tarix oxuduq, insanları tanımadıq; coğrafiya təhsil etdik, ölkələri bilmədik; bir çox lisan sərfi [dil qayda-qanunları] əzbərlədik, dilsiz qaldıq.

İştə əski məktəb[in] bizə vermiş [olduğu] səmərələr...

Böyləliklə, əski Rusiya edadiyyəsi (gimnaziya, realnı və qeyri) bitirən bir tələbə "Həyata daxil oldum" deyə meydana çıxırdı. Fəqət bu tələbədə nə görən göz, nə eşidən qulaq, nə də hiss edən əsəb bulunurdu. Etiraf edəlim, danmayalım, Rusiya edadiyyəsindən çıxdıqda biz həyatı bilməmək başqa, kim olduğumuzu belə bilmirdik. Hal-hazırda bilirizmi əcəba?

Təəssüflər olsun! Gözəl, qızıldan qiymətli vaxtlarımızı, şəbabətimizi [gəncliyimizi] məktəbxana deyil, cahilxanalarda keçirmişiz. Məktəb məktəbliyə həyata nəzəriyyat, insanlarla müamilə, təbiətlə mübarizə öyrətməlidir. Əvəzində isə biz nə aldıq əcəba? Latın kəlimələri, siyahı yazmaq, beşi altı ilə cəm etmək. İştə bu!

Həyat isə bambaşqa bir məcrada axır, bambaşqa bir surətdədir.

Məktəb, həyat olmalıdır. Həyatdan qeyri məktəb, məktəb adlandırılmamalıdır. Götürəlim bir edadiyyəni bitirmiş tələbəni. Bu "elmli" zat, zavoda daxil olduqda taraqturuqdan başqa səs eşidəmməz, zor gövdəli mühərrik makinadan başqa bir şey görəmməz. Halbuki zavodda başqa səslər də var, başqa şeylər də görmək mümkündür. Makinanın bir taraq-turuqqu bir növ həyatı təbliğ edir. Makinanın bir qolu, ya bir yayı bir növ zəhməti göstərir. Bizim tələbə isə zavodu seyr edər, edər də çıxıb gedər. Zavoddan isə heç bir şey aparammaz söyləyir. Bəs məktəb nə imiş?

Yeni vətənimizi məmləkət halına salmaqdan ötrü, millətimizi millətlər sırasına daxil etməkdən ötrü, çəlik [polad] mizaclı, dəniz kirdarlı [taqətli] qüvvələr istənilir. Heyiflər olsun ki, əski məktəblərimiz, əski zəmanə insanları qurumuş mumyalar buraxır, istiqbalın[ı], təbiəti qovğa meydanı, məqsədi-amal təriqi [yolu] əədd edən [sayan] qəhrəmanlar çıxarmağa qadir deyildir.

Əvət! Əski məktəb, həqiqətən, əskidir. İşbu məktəb tədrisatı halihazirə həyatına [hazırkı dövrün həyatına] tətbiq ediləmməz. Məktəb mütəallimin bir məktəb həyatı deyil, ev həyatı və cəmiyyətlərdə keçirdiyi həyatı heç vaxt nəzəri-etibara almamış, bundan dolayı bir çox fəna nəticələr görülməkdədir. Böylə məktəbdən çıxmış tələbə arxadaşlarını, bəzən ana-atasını belə bəyənmir. Bunlarla cəmiyyətlərdə qonuşmanı özünə ar bilir. Nə üçün? Babasının əlbisəsi köhnə, anasının çadəri [örtüyü] ipək deyildir, arxadaşı şapka deyil, papaqlıdır. Bunu bizə tərbiyəmiz verməmiş, Nikolaylar bağışlamamışlar. Məktəblərimizdən qalmış irsdir.

Həyata çıxmış (!) məktəbli, xüsusi bir müvəffəqiyyətsizlikdən dolayı həyatdan bilmərrə məyus olur, əsəblənir, bir çox xəyalata düşür. Məktəbimiz sağlam insan əvəzində xəstə, əsəbiül-mizac, işə yaramaz bir şey buraxır.

Axır vaxtlarda məktəblər xüsusi bir şəkil almışdır ki, indiyə kimi davam etməkdədir. Məktəb xüsusi bir emalatxana olmuş ki, "kağız" sahibi mühəndislər, doktorlar, nə bilim nələr-nələr kimi məzunlar hazırlayır. Müəllim xüsusi bir avtomat qramafondur ki, müəyyən bir mahnını oxumağa qadirdir. Müəllimlik vəzifəsi bir sənət şəklini almış. Böylə müəllim tərbiyəsi sayəsində də təkmil tapmış bir məzun yeni bir avtomat kimi tələqqi [qəbul] ediləcəkdir. Həqiqətən, böylə də görülür. Hal-hazırda bir doktor bulmazsan ki, elmi sayəsində, təcrübəsi nəticəsində elmi bir əsər yazsın. Ya bir mühəndis görməzsən ki, yeni bir makina icad etsin. Müsəlman doktoru kabinəçilik, müsəlman mühəndis qulluqçuluq edir. Çürütdüyü canı əvəzində, xəstə buraxdığı əsəbləri əvəzində bir parça əkmək almışdır. İştə, hansı sipəhsalar [sərkərdə] isə demiş: "Mənim ordumu düşmən ordusu deyil, düşmən müəllimləri münhəzim [məğlub] etmişdir."

Mən nə mühəndisi, nə doktoru müttəhim etmirəm. Məqsədim fəqət məktəbimizin yaramaz olduğunu göstərməkdir.

Xüləfayi-Bəni-Abbasiyyə zamanında bir şeyx, məxdumuna [oğluna] məntiqdən dərs verirdi. Elmi bitirdikdən sonra bir gün oğlundan sorar: "Oğlum, bazarda nə gördün?" "Heç şey görmədim" deyə cavab verir. Qoca baba yenidən məxdumuna məntiq dərsi verməyə başlar. Yenə itmama yetirdikdən [tamamladıqdan] sonra, yenə sorar. Yenə də öylə bir cavab alar. Üçüncü dəfədən sonra oğlundan "Bazarda nə gördün" deyə sorduqda, oğlu "Gördüklərim ya feil, ya təsəvvür" deyə cavab verir. Atası fəqət bundan sonra oğluna başqa elm tədrisinə şüru edər [başlayar].

İştə, elmi oxumaq üçün deyil, həyata tətbiqdən ötrü təhsil etməlidir. Bizim məktəb müəllimlərimiz isə böylə deyildir. Biz elmi fəqət məktəbdən kağız almaq üçün oxuduq. Müəllimlərimiz bizə elmi fəqət elm öyrətmək deyil, başqa məqsədlə oxutmuşlar. Bu da məktəb məsələsinin təəssüf ediləcək bir cəhətidir.

Bir dəfə sinemada Afrikanı göstərirdilər. Buranın qumsalları, növbənöv heyvanatı, nəbatatı canlı olaraq gözüm bərabərində idilər. Mən həqiqətən sevinirdim. Tam bir sənə coğrafiyada oxuduğum Afrikadan o qədər məlumat almamışdım ki, on dəqiqəlik həqiqətdən o qədər məlumat aldım. İştə, həqiqi məktəb bundan ibarət olmalıdır.

Unutmayalım ki, yeni vətənimiz həyatı layiqincə düşünən, həyata yarar yeni qüvvələrə möhtacdır. Möhtacdır. Yenə də möhtacdır... Əfəndilərim, bütün başqa məsələləri ikinci sıraya buraxıb, məktəb məsələsini birinci olaraq həll etməlidir. Məktəb, məktəb, yenə də məktəb!

Hər bir millətdə zəmanə iqtizası mövcibincə [zəmanənin ehtiyaclarına uyğun] bir cərəyan olur. (Qüruni-vüstadakı [Orta əsrlərdəki] din cərəyanı.) Zəmanəmizin də cərəyanı iqtisadi məsələlərdir. Bundan ötrü də məktəb lazımdır. Məktəbsiz nə vətənimizə sahib olarıq, nə də ki, millətimiz millətlər sırasına keçər. Məktəbimiz də fəqət həyat məktəbi olmalıdır.

Bugünkü Amerikanı götürünüz. Bura məktəbləri mütəalliminə [tələbələrə] həyat öyrədir, zəhmətə məhəbbət artırır. Buranın köy [kənd] məktəblərində çocuqlara ziraət və fəllahət [əkinçilik və kəndlilik] dərsləri oxudulur. Həyata da tətbiq etdirilir. Bu gün Amerika köy məktəbində təhsil edən bir çocuq; qoca, təcrübəli bir bağban kimi ağac əkər, qələm vurar, çubuq peyvənd edər. Bura məktəbində dərs oxuyan bir qız, inək sağar, toyuq cücəsi bəslər və qeyri... Bizim məktəbli çocuqlar da yaparlarmı əcəba? Müəllimlərimiz yapammaz!

... məktəbində təhsil etdiyim vaxt "təcrübəli" bir müəllim cəbbəxana şəklindəki bir laboratoriyadakı makinaların heç birindən bizə barmaq qədər məlumat vermədi. Məktəbi bitirdik, o elmdən də imtahan verdik.

Amerikadakı çocuqlar kitabxanaları insanı təəccübləndirir. 6-7 sinnindəki [yaşındakı] məktəblilər bu kitabxanalarda ora-bura soxulur, kitablar bulub oxuyur.

Böyüklərdən ötrü belə Amerikada adi kitabxanalardan başqa, səyyar kitabxana mövcuddur ki, bir ölkədən o biri ölkəyə kitablar göndərir. Bu da cəmiyyətlərdəki məktəblərin bir növüdür.

Bu gün Bakı əhvalına bir nəzər salalım. Bir bu qədər zavodlara malik bir islam ölkəsində səna'ət [sənaye], "texnika" nə haldadır?

Zavodlar gurhagur işləyir, müsəlman çocuqları isə səfil-sərgərdan alma, armut satır, küçələrdə dilənir. İnsaf ediniz. Bu zavodlar məktəb deyilmi əcəba? Bu millət yavrularını bir qarın çörək, bir dəst əlbisəyə bu zavodlara alıb, atilərini [gələcəklərini] təmin etməklə səkkiz qat mənfəət edəcəyiz: çocuq səfil olmaz, elmli olar, sənətli olar, bir qəpik də artıq xərc olmaz, zira ki, çocuq çalışır.

Nə isə, yeni vətənimizə yeni məktəb lazımdır. Yeni məktəbsiz vətənimiz xaraba qalmağa məhkumdur. Yeni məktəblər də dirilər məktəbi olmalıdır. Əski məktəblər ölülər məktəbidir.

*Tələbə: Ayn. Əbdül*

## TERSK-DAĞISTAN İTTİHADI [BİRLİYİ]

Tersk Cümhuriyyətinin Xalq Komissarlar Şurasının binagüzarlığı [sərəncamı] ilə Ərzaq kommisarı [naziri] bunların Qafqaziya millətlərinin cümhuri hökumətinin Tiflisdə olan üzvü və İnquş Milli Şurasının sədri Cabaqır ilə müzakiratda bulunmaqdan ötrü Tiflisə gəlmişdir. Ələlümdə [birinci növbədə] Tersk Xalq Şurasının bolşevik məramnaməsindən imtina etməsi məsələsi, Tersk-Dağıstan nahiyəsinin müstəqil elan edilməsi və Tersk nahiyələrinin rus əhalisi ilə Qafqaziya Dağıstanlılar İttifaqının cümhuriyyətə malik olmaları məsələsi müzakirə edilmişdir. İnquş Milli Şurasının Sədri Cabaqır ilə Butırin arasında büsbütün saziş hüsula gəlmişdir. Tersk-Dağıstan nahiyəsi siyasətdə təzə əsasların feilən icraya qoyulması üçün bu yaxın vaxtlarda hər iki nahiyə millətlərinin ictiması dəvət edilməsi [iclasının çağırılması] təsəvvür olunmaqdadır. Bu qərar üzrə, Tersk-Dağıstan nahiyəsində sülh təriqi [yolu] ilə bolşevizmin təsviyyə edilməsi [aradan qaldırılması] və Şimali Qafqaziya Cümhuriyyəti başlanması qarşısında bulunuruz.

## TEATRO VƏ MUSİQİ

Bu günlərdə Hacıbəyov Qardaşları Müdiriyyəti, Bakıda olan türk artistlərindən mürəkkəb qüvvətli bir dəstə təşkil etməkdən ötrü hal-hazırda Bakıda yaşayan artistləri dəvət etmiş. Bu məsələ artistlərlə bərabər ətraflıca müzakirə edildikdən sonra, aşağıdakı qərar üzrə mükəmməl bir drama, opera və operetta dəstəsi təşkil edilmişdir. Aşuradan sonra həmin dəstə tərəfindən Mailov qardaşları teatrosunda tamaşalar göstərilməyə başlanacaqdır. Bu sənə keçmişlərə nisbət teatro işlərini müntəzəm bir hala salmaqdan ötrü istedadi-qabiliyyətə malik olan artistlər dəvət edilmişdir. Məzkur [adı çəkilən] dəstəyə dəvət edilən artistlər bunlardır:

1) Hacıağa Abbaszadə,
2) Əhməd Ağdamlı,
3) Cəlil Bağdadlı,
4) Hüseyn Ərəbli (rejissor),
5) Abbas Şərifzadə (rejissor),
6) Hüseyinqulu Sarablı,
7) Mirzə Muxtar Məhəmmədzadə,
8) Mirzəağa Əlizadə,
9) Sidqi Ruhulla (Molla oğlu),
10) Ələkbər Hüseynzadə,
11) Əbülhüseyn Anaplı,
12) Rza Darablı,
13)
14) Məhəmmədəli Qaibzadə,
15) Mirmahmud Kazımi,
16) Xəlil Hüseynzadə,
17) Məhəmmədtağı Bağırzadə,
18) İbrahim Atakişizadə,
19) Bağır Cabbarzadə,
20) Yunis Nərimanzadə,
21) Mim. Ayn. Sidqi (suflyor),
22) Hacıbaba Şərifzadə,
23) Rüstəm Kazımzadə,
24) Cəmil bəy Qarabaği.

Xanımlar:

25) Yeva Olenskaya,
26) Məğfurə xanım,
27) Münəvvər xanım,
28) Mina xanım.

Müdiriyyətin qərardadına görə, bundan böylə həftədə üç gün məzkur dəstə tərəfindən növbə ilə olaraq drama, komediya, opera və operetta tamaşaları göstəriləcəkdir. Müdiriyyət artistləri Azərbaycan Hökuməti ilə qonşu cümhuriyyətlərin başqa şəhərlərində tamaşalar verməkdən ötrü bəzən "turne"yə çıxacaqlardır. Həmin dəstədə iştirak edən artistlər müdiriyyət tərəfindən xüsusi vəsiqəyə malikdirlər. Artistlər gələcək tamaşalar üçün hazırlanmaqdadırlar.

## XARİCİ XƏBƏRLƏR

**Generallar məhkəmə qarşısında**

Rostovdan Tiflisə gəlmiş bir zabitin dediyinə görə, bu günlərdə xalq məhkəməsində sabiq Qafqaziya nahiyəsi ərkanının rəisi general Bolxovitinov və 4 nəfər qeyri generallar mühakimə edilmişlərdir. Bunlar cəbhəni boşaldıb, hökumət bolşeviklər əlinə keçdikdən sonra onların idarələrində işləyib, öz bilik və təcrübələrilə bolşeviklərə müavinət [yardım] etməkdə və bununla da Rusiya Hökumətinin məhv olmasına səbəb olmaqda müttəhim edilmişlərdir.

Xalq məhkəməsi generalları güllələbaran edilməklə edam cəzasına məhkum etmişdir. Məhkəmənin qətnaməsini general Alekseyevə göndərdikdə, Alekseyev edam cəzası əvəzinə generalları 10 il kürək cəzasına təbdil etmişdir [dəyişdirmişdir]. Hal-hazırda bu generallar həbsxanadadırlar.

**Sızran Hökuməti**

Sızranda yeni hökumət təşkilatını "Əxbar" qəzetəsi xəbər verir. Avksentyev, Volski, Oqanovski, Çaykovski və general Boldirev hökumətə daxil olmuşlar. Bunlardan üç nəfəri inqilabçı, bir nəfəri Rusiyanın İadəsi firqəsinə və bir nəfəri də Xalq Sosialisti firqəsinə mənsubdurlar.

**Almaniyanın yeni kansleri**

Məlum olduğu üzrə Almaniyadakı böhrandan sonra yeni kanslerliyə Prins Maks [Badenski] təyin edilmişdir. Yeni kansler barəsində "D. N." qəzetəsi yazır ki, bu zat öz kamalı ilə əskidən məşhurdur. "S. D." qəzetəsi deyir ki, Prins Maks həyati-siyasiyyədə yeni əqidələr, yeni əsaslar tərəfdarıdır.

İsveçrə mətbuatı da Prins Maks barəsində bir çox məqalələr yazmışdır. "T." qəzetəsi yazır: "Almaniyanın yox olmamasını istəyən zat, millət səsinin hökumətdə eşidilməsini layiqli ədd [hesab] edən zat, Almaniyadakı yeni nizamı təbrik etməlidir."

**Romanya mətbuatı Bolqariya haqqında**

Romanya mətbuatı bu axır vaxtda, Bolqariyanın son vəziyyəti barəsində qələm yürüdərək Bükreşdə [Buxarestdə] çıxan hökumət qəzetəsi "Malinovun işi" ünvanlı məqaləsində yazır ki, "Davadan yorulmaq heç də Malinovun təşəbbüsünü müdafiə etməyir. Alman və Avstriya qoşunlarının Sofiyaya sürətlə girmələri göstərir ki, Bolqariya paytaxtında iğtişaş başlanılmasına Vyana və Berlində inanırmışlar. Bolqariya məmləkətinin müharibə meydanına dönəcəyini gözləməlidirlər. Biz onların siyasətini müdafiə və müttəhim etməyiriz."

Özgə qəzetələrin yazdığına görə, Bolqariya hadisatı mühim nəticələr verməyəcəkdir. Romanyanın iki il müharibə imtahanı bolqarları bu iqdamdan [təşəbbüsdən] saxlayacaqdır.

**Fransada rus qoşunları**

Fransadan İsveçrəyə, oradan da bolşevik heyəti vasitəsi ilə Rusiyaya qaçmış sabiq rus saldatı Kolesnikov, Fransadakı rus qoşunları barəsində atidəki [aşağıdakı] məlumatı Moskva qəzetələrində nəşr etmişdir:

Rus saldatları arasında bolşevizm cərəyanı Rusiya və Fransa hökumətləri tərəfindən dayandırıldı. Keçən il iyul ayında saldatları Lekartenə köçürdükdə, bunların arasında iğtişaş baş verdi. Dörd alaydan ancaq dörd min nəfərə yaxın zabit və əsgər Müvəqqəti Hökumətə tərəfdar çıxdı. Fransa süvari və batareyası vasitəsi ilə onlar iğtişaşçıları üç gün mühasirəyə aldılar. Bolşeviklər ərzaq yoxluğundan və çoxlu tələfat verdiyindən naşi, təslim olub 50 nəfərə kimi nümayəndə və 300 nəfərədək saldat məhbus edildilər. Məhbuslar və axırda soldatlar, həpsi İl-d'Eks cəzirəsinə [adasına] göndərilib, xahiş edənlərə [istəyənlərə] gündə üç frank muzd ilə meşədə ağac kəsdirirdilər. 8 minə kimi saldatlar işləməkdən imtina edib Afrikaya göndərildi. Yerdə qalanlar isə Kolesnikovla bərabər İsveçrə sərhədinə göndərilib, meşələrdə işlədilirmişlər. Kolesnikov buradan Rusiyaya qaçmağa müvəffəq olmuşdur.

## HÖKUMƏT MÜƏSSİSƏLƏRİ

Mərkəz Komandanlığı – "Avropa" mehmanxanasında.

Daxiliyyə Nəzarəti ilə Ticarət və Sənaət [Sənaye] Nəzarəti, Rotşildin evindən dəniz kənarında Babayevin evinə nəql edilmişdir.

Ərazi nazirinin dəftərxanası, Ərazi və Dövlət Əmlakının İdarəsi, Vodovoznı küçədə Mitrofanovun səkkiz nömrəli evindədir.

Xariciyyə nazirinin dəftərxanası – "Metropol", 28 və 29 nömrəli otaqlar.

Nəzarət İşləri İdarəsi dəftərxanası: "Metropol", 30, 31 və 32 nömrəli otaqlar.

Heyəti-Vükəla Rəisi [Baş Nazir] – "Metropol", nömrə 33.

Ərzaq Nəzarəti – "Metropol", 34 və 35 nömrəli otaqlar.

Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri müavini – "Metropol", nömrə 38.

Ədliyyə Nəzarəti – "Metropol", nömrə 40, 41, 42.

Hərbiyyə Nəzarəti – "Metropol", 43.

Hökumət Kontrolu dəftərxanası – "Metropol", nömrə 44 və 45.

Maliyyə Nəzarəti – "Metropol", 49 və 50.

Hifzüssihhə Nəzarəti [Səhiyyə Nazirliyi] – Bolşoy Morskoy küçədə, Totovun ünas [qızlar] gimnaziyası.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] – "Metropol", nömrə 56 və 57.

Azərbaycan Dəmiryolu İdarəsi elan edir ki, bu ilin 4 təşriniəvvəl[in]də Bakı ilə Tiflis şəhərləri arasında 3 və 4 nömrəli qatarlar bu qərarla hərəkət edəcəklər:

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 3 | | | |
|---|---|---|---|---|
| | gəlir | | çıxır | |
| | saat | dəqiqə | saat | dəqiqə |
| Bakı | - | - | 7 | 7 axşam |
| Hacıqabul | 11 | 22 axşam | 11 | 57 axşam |
| Yevlax | 5 | 35 sabah | 6 | sabah |
| Gəncə | 8 | 3 sabah | 8 | 23 sabah |
| Ağstafa | 11 | 15 günüz | 11 | 23 günüz |
| Tiflis | 3 | 56 günüz | - | - |

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 4 | | | |
|---|---|---|---|---|
| | gəlir | | çıxır | |
| | saat | dəqiqə | saat | dəqiqə |
| Tiflis | - | - | 11 | 10 axşam |
| Ağstafa | 4 | 22 günüz | 4 | 47 axşam |
| Gəncə | 7 | 34 axşam | 7 | 59 axşam |
| Yevlax | 9 | 44 sabah | 2 | 4 sabah |
| Hacıqabul | 3 | 24 günüz | 3 | 39 günüz |
| Bakı | 7 | 36 axşam | - | - |

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Cümhuriyyəti Dairəsindən...***

*"gerbovoy": rəsmi sənədlərə yapışdırılan və xüsusi vergi ödənişini göstərən marka.*

*"kanselyarski": dəftərxana vergisi əvəzində işlədilən marka.*

***Elan***

*səh. 225. "Sovet syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.*

***Türk duyğuları: Artıq oyan***

*"Təmmuz 334": burada il, rumi təqvimlə (1334-cü il) verilmişdir. Miladi təqvimlə 1918-ci ilə uyğundur. Qəzetdə "334" yerinə səhvən "224" getmişdir.*

***"Zəfər yolunda: Ordunun dastanı" şeiri üçün (səh. 230-232) lüğət***

*vaqur: məğrur*
*pınar: bulaq*
*seyhə: çığırtı*
*issizlik: kimsəsizlik, tənhalıq*
*məşhəd: şəhadət yeri; kiminsə şəhid olduğu, yaxud şəhidin dəfn edildiyi yer*
*rixtim: sahil; liman*
*şəhrayin: şənlik*

***Zəfər Yolunda: Ordunun dastanı***

*"Bu dövlətin xərtəsini dəyişdirən Navarinlər": Güman ki, 1768-1774-cü illər Osmanlı-Rusiya müharibəsinin gedişində, 1770-cildə baş tutan Navarin döyüşü və 1827-ci ildə Türkiyə donanması ilə Rusiya, İngiltərə və Fransanın birləşmiş donanma gücü arasında baş tutan Navarin dəniz döyüşü nəzərdə tutulmuşdur.*

*"Petro ilə Katerinin...": Rusiya imperatoru I Pyotr və Rusiya imperatriçası II Yekaterina nəzərdə tutulur.*

*"Osman, Babur ellərini soyanların millətləri": Osmanlı imperiyasının banisi I Osman və Böyük Moğol imperiyasının banisi Babur nəzərdə tutulur.*

*"Bu gün burada böyük Sultan Muradların məşhədləri": Osmanlı sultanı I Murad nəzərdə tutulmuşdur.*

*"Fatehlərin bəldələri, Səlimlərin məbədləri": Osmanlı sultanları II Məhməd (Fateh) və I Səlim (Yavuz) nəzərdə tutulmuşdur.*

*"Əl-Cəzirə anbarları": Sudanın əyaləti olan Əl-Cəzirə nəzərdə tutulur.*

*"Qərbin bəxtsiz Əməvilər dövlətinə": Əndülüs Əməvi dövləti nəzərdə tutulur.*

*"Ərtoğrulun nəslinə də qadın kimi saç yoldursun": Osmanlı dövlətinin banisi I Osmanın atası Ərtoğrul Qazi nəzərdə tutulur.*

***İqtisadiyyat***

*"Xüləfayi-Bəni-Abbasiyə": Abbasi xəlifələri nəzərdə tutulur.*

*"... məktəbində təhsil etdiyim vaxt": qəzetdə məktəbin adı boş buraxılmışdır.*

*"Tələbə: Ayn. Əbdül": bu imza Əbdül Əbdülova məxsusdur.*

***Tersk-Dağıstan ittihadı***

*"Qafqaziya millətlərinin cümhuri hökuməti": Dağlılar Respublikası Hökuməti nəzərdə tutulur.*

***Teatro və musiqi***

*Aktyorların "Azərbaycan" qəzetindəki siyahısında 13-cü yer boş saxlanmışdır. Bu yerdə Əhməd Anatollunun adı olmalıdır.*

***Xarici xəbərlər: Sızran Hökuməti***

*"Bunlardan üç nəfəri inqilabçı, bir nəfəri Rusiyanın İadəsi firqəsinə və bir nəfəri də Xalq Sosialisti firqəsinə mənsubdurlar.": ardıcıllıqla, Sosialist İnqilabçılar Partiyası, Rusiyanın Dirçəlişi İttifaqı və Xalqçı Sosialistlər Partiyası nəzərdə tutulur.*

***Xarici xəbərlər: Almaniyanın yeni kansleri***

*"D. N.": "Deyli nyus" qəzeti nəzərdə tutulur.*

***Hökumət müəssisələri***

*"Daxiliyyə Nəzarəti ilə Ticarət və Sənaət Nəzarəti...": "Sənaət" yerinə qəzetdə səhvən "Nafiə" getmişdir.*





# Mədəniyyət





● Korifeylərimiz

**Sevgi və pərəstiş dolu alqışlar, təriflər, təltiflər... Sənətkara bütün mükafatlar, fəxri adlar verildi. Layiq görüldüyü SSRİ Xalq artisti, "Stalin" mükafatı, "Lenin" ordeni (iki dəfə) isə dövrünün ən yüksək təltifləri hesab olunurdu. Ancaq o, bənzərsiz səsinə görə, qeyri-rəsmi də olsa, birinci fəxri adını, ilk mükafatını hələ uşaq ikən doğma şəhəri Şuşada almışdı...**



# Şuşanın səsini dünyaya çatdıran Bülbül

### Sənətdə ilk sınağı

Onda səkkiz yaşındaydı. Uşaqlıq çağlarının qayğısız günlərini yaşayırdı. 1897-ci il iyunun 22-də Şuşa yaxınlığında, Xan bağında dünyaya göz açan Murtuza Məşədi Rza oğlu Məmmədov təbiəti gözəl, insanları istedadlı bir məkanda böyüyürdü. Şuşanın musiqi mühiti onu da öz təsirinə salırdı. Qarabağın adlı-sanlı xanəndələrinin ifasında dinləyib sevdiyi Azərbaycan muğamları, xalq mahnıları dilinin əzbəriydi. İlk dinləyiciləri, pərəstişkarları hələ ki həmyaşıdları olurdu. Tez-tez onların təkidi, xahişi ilə oxuyurdu.

Şuşa toyları o zamanlar əsl sənət meydanına çevrilirdi. Şuşalılar məşhur xanəndələrin ustalıqla ifa etdikləri muğamları, xalq mahnılarını heyranlıqla dinləyirdilər. Hətta balaca sakinlər də belə məclisləri həsrətlə, həyəcanla gözləyirdilər. O gün Şuşada yenə toy-büsat vardı. Murtuza məclisdə olanları yaxşı görmək üçün yaşıdları ilə birlikdə yaxınlıqdakı iri tut ağacının şaxələnmiş budaqları arasında özünə yer seçdi. Məclis başladı. Bu zaman ustad xanəndələrdən biri muğamdan-muğama keçid edir, hamı susub onu dinləyirdi. Sanki balaca Murtuzanın ürəyi köksünə sığmırdı. Yaşıdları da bir yandan onu ürəkləndirirdilər: "Sən də oxu", - deyirdilər. Murtuza oxumağa başladı. Artıq onun üçün nə zaman, nə də məkan vardı. Xanəndənin də susub toy əhli ilə birgə onu dinlədiyindən xəbərsiz idi. Bir də gördü ki, toybəyi özündən çıxıb. Ağacdan düşüb qaçmaq istədi. Ancaq imkan vermədilər. Xanəndə onu yanına çağırıb dedi: "Bu ki, əsl bülbüldür". Murtuza bu dəfə xanəndənin istəyi ilə bütün toy iştirakçılarının qarşısında oxudu.

Azərbaycan muğamlarını, Azərbaycan xalq musiqisini dərindən, bütün incəliklərinə qədər bilənlərin yaşadığı Şuşada tanınmaq asan məsələ deyildi. Balaca Murtuza həmin gecə toy məclisindəki ifası ilə şuşalı musiqisevərlər qarşısında sanki sənət imtahanı verdi və sınaqdan uğurla keçərək istedadını təsdiqlədi. İlk dəfə o məclisdə alqışlandı. Və həmin gündən öz adı unuduldu. O, Şuşanın, sonralar isə Azərbaycanın Bülbülü oldu.

İlk təhsilini Şuşada mollaxanada aldı. 1909-cu ildə Gəncəyə köçdü. Gənc xanəndə şöhrətlənməyə başladı. 1911-ci ildə ictimai yığıncaqlar keçirilən yay binasında çıxış etmək üçün Tiflisə dəvət olundu. 1916-cı ildən səhnə fəaliyyətinə başladı.

1920-ci ildə "Əsli və Kərəm" muğam operasında baş rolu ifa etmək üçün Bakıya, Opera Teatrına dəvət edildi. Kərəm rolu ilə opera səhnəsində ilk yaradıcılıq uğurunu qazandı. Səhnəyə çıxdığı ilk tamaşadan ifası ilə fərqlənə bildi. Onu gördülər, tanıdılar və sevdilər.

Bülbül 1920-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının (o zamankı Birləşmiş Dövlət Teatrı Opera truppası) solisti oldu. Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" (İbn Səlam), "Əsli və Kərəm" (Kərəm), Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operalarında rol aldı.

### Vokal üzrə təhsil alan ilk azərbaycanlı tələbə və ilk professor

1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olan Bülbül həmin ali məktəbdə vokal üzrə təhsil alan ilk azərbaycanlı tələbə idi. 1927-ci ildə konservatoriyanı müvəffəqiyyətlə bitirdi. Vokal bacarığını təkmilləşdirmək üçün Azərbaycan hökumətinin qərarı ilə İtaliyaya, Milan Konservatoriyasında təhsilini davam etdirməyə getdi.

1931-ci ildə təhsilini tamamlayıb Bakıya döndü. Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başladı. Bir il sonra - 1932-ci ildə Bülbülün təşəbbüsü ilə yaradılan Azərbaycan Dövlət Konservatoriyası nəzdində Elmi-Tədqiqat Musiqi Kabinetində musiqi folklorumuzun ən yaxşı nümunələrinin toplanması, tətbiqi, tədrisi ilə məşğul oldu. Qara Qarayev xatırlayırdı: "Elmi-tədqiqat kabinetinin rəhbəri Bülbül məni xalq musiqisi üzrə işləməyə cəlb etdi. Mən aşıq yaradıcılığını, muğamları, xalq mahnılarını və oyun havalarını fonovaliklərə yazıb onların üzərində işləyirdim. Şəki şəhərində ekspedisiyada olduğum zaman bir sıra qeydlər etmişdim. Bu səfərin nəticəsi çox əhəmiyyətli oldu. Çünki mənim eşitdiyim xalq mahnılarından biri Rəsul Rzanın sözlərinə yazılmış "Könül mahnısı" kantatının əsasını təşkil etdi. Bu əsərin yüksək bədii dəyərə malik olması onun ən kiçik detallarına qədər Azərbaycan xalq musiqisi ilə bağlılığından irəli gəlirdi".

Bəstəkarların yaradıcılığında əhəmiyyətli rol oynayan Elmi-Tədqiqat Musiqi Kabinetinin bazası əsasında sonralar Azərbaycan Milli Elmlər Akademiyasının İncəsənət və Memarlıq İnstitutu yaradıldı.

1933-cü ildə Bülbül pianoçular, skripkaçılar, violonçel ifaçıları və vokalçıların Birinci Ümumittifaq Moskva Müsabiqəsində iştirak etdi və ilk azərbaycanlı laureat oldu.

O, opera studiyasının, səsyazma kabinetinin, not nəşriyyatının yaradılması, istedadların üzə çıxarılması üçün Azərbaycanda I Musiqi Olimpiadasının çağırılması, musiqişünaslığa vahid rəhbərliyi təmin etmək məqsədilə SSRİ-nin ən məşhur musiqişünaslarının geniş müşavirəsinin keçirilməsinin təşəbbüsçüsü və təşkilatçısı oldu. Bülbül milli musiqi mədəniyyətimizin inkişafında xidmətlərinə görə 1935-ci ildə Əməkdar artist adına layiq görüldü.

Müğənninin repertuarı olduqca zəngin idi. O, Azərbaycan xalq mahnılarını, ariyaları, dünya və Azərbaycan klassik əsərlərini, opera səhnəsində müxtəlif xarakterli, rəngarəng rolları ustalıqla ifa edirdi. "Koroğlu" operasında Koroğlu rolu isə Bülbülün yaradıcılıq zirvəsi oldu. 1938-ci il aprelin 5-də Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyü də "Koroğlu" operası ilə açıldı. İlk andan Bülbül tamaşaçıları öz ifası ilə heyran qoydu. Moskva mətbuatında onun çıxışından bəhs edən məqalələr dərc olundu. Həmin il Bülbül opera sənətinin inkişafı sahəsində görkəmli fəaliyyətinə görə SSRİ Xalq artisti adına layiq görüldü.

Onun adı Azərbaycan musiqi tarixinə həm də simfonik muğamların yaradılmasının təşəbbüskarı və iştirakçısı kimi yazıldı. Fikrət Əmirovun "Şur" və "Kürd-ovşarı" simfonik muğamları Bülbülün təşəbbüsü ilə yarandı. Müəllif Bülbülə ünvanladığı "Şur" və "Kürd-ovşarı" partituralarının üzərində qeyd etdi: "Mən Bülbülə iri simfonik əsərlərin yeni forması - simfonik muğamların yaranmasına görə borcluyam". Bu simfonik muğamlardan sonra Niyazi "Rast", Süleyman Ələsgərov "Bayatı-Şiraz" simfonik muğamlarını bəstələdilər.

1938-ci ildən ömrünün sonunadək Azərbaycan SSR Ali Sovetinə bütün çağırışlarda deputat seçilən Bülbül seçicilərinə əlindən gəldiyi qədər kömək göstərir, xahişlərini, şikayətlərini əlaqədar təşkilatlara, məsul şəxslərə çatdırır, sonra məsələni diqqətdə saxlayır, həll edilib-edilmədiyi ilə maraqlanırdı.

1941-ci ildə İkinci Dünya müharibəsi başlayandan Bülbül döyüş bölgələrində, arxa cəbhədə, hospitallarda, çağırış məntəqələrində çıxış edir, insanları qələbəyə ruhlandırırdı.

1950-ci ildə o, uzun illik zəhmətinə, konsert fəaliyyətinə görə "Stalin" mükafatı ilə təltifləndi.

"Sənsiz", "Sevgili canan", "Ölkəm", "Segah təsnifləri", "Xumar oldum", "Süsən sünbül", "Yaxanı düymələ", "Qara gözlər", "Çaloyna" romans, təsnif və xalq mahnıları Bülbülün avazında könüllərə yol tapdı. Deyirlər ki, Bülbül dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin cənazəsi önündə onun "Sənsiz" romansını müşayiətsiz, elə yanıqlı oxuyub ki, ifası Azərbaycanın ozamankı rəhbəri Mircəfər Bağırovu da ağladıb.

Azərbaycanın zəngin musiqi xəzinəsinin dərindən öyrənilməsində onun xidmətləri böyük oldu. Konservatoriyada vokal üzrə ilk azərbaycanlı professor olan Bülbül istedadlı müğənnilər yetişdirdi. Görkəmli rus bəstəkarı Dmitri Şostakoviç bildirirdi: "Bülbül yerli bəstəkarların opera və romanslarının geniş təbliği üçün nələr etmir! Sözsüz, Azərbaycan bəstəkarları bu baxımdan daha münasib şəraitdə yaşayırlar".

İllər öncə Bülbülün həyat yoldaşı Adilə xanım bizimlə söhbətində demişdi: "Bülbül təkliyi sevmirdi. Evimiz həmişə qonaqla dolu olurdu. Akademik Yusif Məmmədəliyev, Məmməd Səid Ordubadi, Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Rəşid Behbudov, Tofiq Quliyev, Süleyman Ələsgərov və o illərin bir sıra görkəmli şəxsiyyətləri evimizin əziz qonaqları olardılar. Gənc bəstəkarlar üçün də qapımız həmişə açıq idi. Bakıda qonaq olan dünyanın ən məşhur sənət adamları da mütləq bizim evə gələrdilər". Adilə xanım Bülbülün düzgünlüyü sevdiyini və yalanı bağışlamadığını deyirdi: "Bülbül dostluqda möhkəm idi. Kiminlə dostluğu kəsirdisə, demək, orada yalan axtarmaq lazım idi".

Bülbül qastrol səfərlərinə gedər, bəzən də istirahət üçün müxtəlif ölkələrə səyahət edərdi. Ancaq Şuşa onun üçün dünyanın ən gözəl məkanı idi. Bitib-tükənməyən işlərinin arasında Şuşaya getməyə həmişə vaxt tapırdı. Adilə xanım xatırlayırdı ki, Bülbül ölümündən bir az əvvəl də Şuşaya baş çəkib. O, 1961-ci il sentyabrın 26-da vəfat etdi. Bülbül yalnız ifasında lentə alınmış bənzərsiz mahnılarla yaddaşlarda qalmadı, o həm də məktəb yaratdı. Gənc müğənnilər bu məktəbdən təkcə ifaçılıq sənətini deyil, səhnə mədəniyyətini, tamaşaçıya hörmət etməyi də öyrənə bilərlər.

1982-ci ildə Şuşada və 1983-cü ildə Bakıda Bülbülün memorial ev-muzeyi açıldı. Bakıda onun adını daşıyan prospekt var. Müğənninin adını daşıyan musiqi məktəbi uzun illərdir ki, fəaliyyət göstərir.

1992-ci ildə Şuşa erməni təcavüzkarları tərəfindən işğal olundu. Dini, tarixi, mədəni abidələrimiz düşmənlər tərəfindən məhv edildi. Bülbülün Şuşada dünyaya gəldiyi, uşaqlıq illərini keçirdiyi, 1982-ci ildən ev-muzeyi kimi fəaliyyət göstərən ata ocağı qarət olundu, dağıdıldı. Erməni vandallarının güllələdiyi üç abidədən biri də Bülbülün büstü idi.

Şuşa şəhəri də daxil olmaqla ərazilərimizin iyirmi faizi otuz ilə yaxın erməni istilasına məruz qaldı. 2020-ci ildə Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək torpaqlarımızdan qovdu. Ata yurdu, doğma evi, ocağı düşmənlərdən geri alınanda Bülbülün də ruhu rahatlıq tapdı.

Ötən il avqustun 29-da Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı oldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak etdilər.

Ev-muzeyinin həyətində Bülbülün yeni hazırlanan büstü ucaldıldı. Artıq Şuşa öz azad günlərini yaşayır. Bülbül kimi böyük sənətkarlar yetişdirən bu şəhər yenidən Azərbaycanın musiqi beşiyinə çevrilir...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Əbədiyyətə uzanan yol

# Tarixi görüşün şəkli



**Deyirlər, insanlar kimi şəhərlərin də taleyi olur. Kimlərsə şəhəri ərsəyə gətirir, ona şan-şöhrət bəxş edir. Taleyi doğru yol tutan şəhərlərdən biri də Sumqayıtdır.**

XX əsrin 40-cı illərində yaradılan Sumqayıt "Gənclər şəhəri" adını almışdır. Məhz 70-ci illərdən başlayaraq Ümummilli Lider Heydər Əliyevin qayğısı nəticəsində bu şəhər təkcə respublikamızda deyil, dünya miqyasında tanınan yaşayış və sənaye mərkəzinə çevrildi. Tikilən yeni zavodlarda, yaradılan müəssisələrdə on minlərlə insan işləyirdi. Həyatını bu şəhərə bağlayanlar "sumqayıtlı" pasportuna da yiyələnirdilər. Həmin dövrdə ikinci bir şəhər tapılmaz ki, Sumqayıt kimi inkişaf etsin və boz çölləri yaşayış binaları bəzəsin.

Ümummilli Lider Heydər Əliyev həmin dövrdə tez-tez Sumqayıta gələr, burada aparılan quruculuq işləri, mədəniyyət ocaqlarının inşası ilə maraqlanar, ictimaiyyət nümayəndələrini dinləyər, onlara öz dəyərli tövsiyələrini verərdi.

Ümummilli Lider bu şəhərdə tikinti, quruculuq işlərini necə yüksək dəyərləndirirdisə, mədəniyyət, istirahət guşələrinə də o cür diqqətlə yanaşardı. Sumqayıtın mədəniyyət müəssisələrinin fəaliyyətinə əhəmiyyət verən Ulu Öndər öz görüşlərində yenicə yaradılan şəhərdə mənəviyyat məsələlərinin yüksəldilməsinin, adət-ənənələrimizin qorunmasının vacibliyini əhaliyə tövsiyə edərdi.

Həmin dövrdə inşa edilən bir çox mədəniyyət saraylarından biri də H.Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının binasıdır. 1969-cu ildən fəaliyyətə başlayan teatrın səhnəsində təkcə Azərbaycan deyil, dünya mütəfəkkirlərinin də əsərləri tamaşaya qoyulardı. Şəhərə səfərə gələn Ulu Öndər aktyor heyətinə yerli yazıçıların əsərlərini tamaşaya qoymağı təklif edərdi. Heydər Əliyev vaxt tapan kimi məşqlərə baxmağa da gələrdi. Bu, teatrın aktyorlarına daha yüksək yaradıcılıq üçün stimul verərdi.

1981-ci ildə tamaşaya qoyulan əsərlərdən biri də Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" dramı idi. Vətənpərvərlik, yenilik, sabaha inam ideyaları ilə köklənmiş bu tamaşanın premyerasında Ümummilli Lider Heydər Əliyev də iştirak edirdi. Tamaşa sona çatdıqdan sonra səhnəyə qalxan Heydər Əliyev üzünü zala tutub dedi: "Baxın, bizim necə gözəl əsərlərimiz var. Belə əsərlərdən çox yazılmalı və tamaşaya qoyulmalıdır. Təkcə Şərq deyil, bütün dünya Azərbaycan mədəniyyətinin nəyə qadir olduğunu görməlidir. Biz azərbaycanlılar buna qadirik və bunu edəcəyik".

Həmin tamaşadan sonra Heydər Əliyev mədəniyyət ocağının tam şəkildə Hüseyn Ərəblinski adına Sumqayıt Musiqili Dram Teatrına (hazırda Sumqayıt Dövlət Dram Teatrı adlanır) verilməsini təklif etdi. Lakin Ulu Öndərin bu tapşırığı bir müddət yerinə yetirilməmiş qaldı. 2003-cü ildə Sumqayıta səfər edən Ümummilli Lider neçə illər öncə irəli sürdüyü təklifi reallaşdırdı. Həmin ildən teatrın binası tam şəkildə kollektivin ixtiyarına verildi.

Xatırladaq ki, teatrın binasının təməlini qoyanlardan biri də Heydər Əliyev olub. Sumqayıtın şəhər kimi formalaşmasında, təşəkkülündə Ümummilli Liderin əvəzsiz xidmətləri olmuşdur.

Sumqayıt Dövlət Musiqili Dram Teatrı səhnəsindən onlarca sənətkar pərvazlanmış, teatr məktəbinin korifeylərinə çevrilmişlər. Muxtar Dadaşov, Barat Şəkinskaya, Afaq Bəşirqızı, Valeh Kərimov və digərləri bu mədəniyyət ocağının yetirmələridir.

*Vidadi MƏMMƏDOV,*
*Sumqayıt Dövlət Dram Teatrının direktor əvəzi,*
*Əməkdar artist*

● Mədəniyyət paytaxtımız

# Qala şəhərimizin mədəni mühitini canlandıran tədbirlər davam etdirilir

**2020-ci ildə 44 gün davam edən və müzəffər Azərbaycan Ordusunun böyük qələbəsi ilə nəticələnən Vətən müharibəsindən sonra düşmənin nə qədər qəddar, amansız olduğunu daha aydın gördük. Otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalında qalmış Qarabağ və Şərqi Zəngəzurda qarşılaşdığımız mənzərələr sözlə ifadəsi mümkün olmayacaq qədər acınacaqlı idi. Erməni vandalları bu illər ərzində heç zaman onlara məxsus olmamış və görünür, özlüklərində olmayacağını da yaxşı bildikləri yaşayış məskənlərimizdə daşı daş üstündə qoymamışdılar.**



Tarixi-mədəni, dini abidələri, müasir tikililəri eyni amansızlıqla uçurub dağıtmışdılar. Kəndləri, qəsəbələri, rayonları, şəhərləri xarabalığa çevirmişdilər. Mənfur ermənilər insanlıq duyğularından elə məhrum oldular ki, təbiətin gözəlliklərinə də qıydılar. Dünyanın ən əsrarəngiz guşələrindən olan Qarabağın, Şərqi Zəngəzurun zəngin meşələrini ağaclarsız qoydular, bulaqlarını qurutdular, təbii sərvətlərini daşıyıb apardılar, talan etdilər. O yerlər erməni vandallarının əlləri ilə saralıb-soldu, xarabalığa çevrildi.

Bu mənzərələr Vətən müharibəsinin qalibiyyəti ilə sevincə bürünmüş Azərbaycan xalqını qubarlandırsa da, hər kəs gələcək üçün ümidli idi. Şübhə yox idi ki, işğala son qoyulduğu kimi, uzun illər sağalmaq bilməyən, qövr edən mənəvi yaralar da sarınacaq, Qarabağ və Şərqi Zəngəzur yenidən öz növrağına qayıdacaq. Təbiəti dirilləcək, işğaldan əvvəlki illərdə olduğu kimi, gül gülü, bülbül bülbülü çağıracaq. Yeni meşə zolaqları salınacaq, bulaqları çağlayacaq. Ərazinin infrastrukturu qurulacaq. Təzə yaşayış evləri, inzibati binalar tikiləcək. Bu yerlərin sakinləri geri qayıdacaq, həyat yenidən başlayacaq. İndi Qarabağ və Şərqi Zəngəzurda sürətlə həyata keçirilən tikinti, bərpa-quruculuq işləri söyləməyə əsas verir ki, o günlər uzaqda deyil.

Həmin ərazilərdə hazırda geniş infrastruktur layihələri ilə yanaşı, mədəni dəyərlərimizin yenidən əzəli yurd yerlərimizə qaytarılması istiqamətində də davamlı iş aparılır. Bu baxımdan dövlət başçısı tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində xüsusilə mədəni mühitin yenidən canlandırılması ilə əlaqədar məqsədyönlü işlər görülür. Vətən müharibəsində torpaqlarımız azad edildikdən, ərazi bütövlüyümüz bərpa olunduqdan sonra həyata keçirilən böyük quruculuq layihələri inzibati, tarixi və mədəni abidələrin bərpası ilə yanaşı, tarixi ərazilərimizdə illərdir keçirilməyən mədəni tədbirləri, ənənələri də reallaşdırdı. Qarabağın incisi Şuşada ötən ilin mayında "Xarıbülbül" Musiqi Festivalı və avqustda Vaqif Poeziya Günlərinin, eləcə də digər möhtəşəm tədbirlərin keçirilməsi bunun təzahürüdür.

Bu il Prezident İlham Əliyevin sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan edilməsi ilə əlamətdar olub. Bu münasibətlə ölkəmizdə, eləcə də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada silsilə tədbirlər təşkil edilir.

Hələ ötən il iyunun 22-də Prezident İlham Əliyev Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında fərman imzalayıb. Fərmana əsasən, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi publik hüquqi şəxs yaradılıb. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi təsdiq edilib. İdarənin fəaliyyət istiqamətləri müəyyənləşdirilib: Şuşa şəhərinin ərazisində yerləşən abidələrin həcm-planlaşdırma quruluşunun qorunmasını və toxunulmazlığını, habelə bərpasını, öyrənilməsini, məqsədyönlü istifadəsini təmin etmək; Şuşa şəhərinin bərpasını, yenidən qurulmasını, öyrənilməsini, inkişafını və təbliğini təmin etmək; müvafiq ərazidə mədəniyyət fəaliyyətini və mədəniyyət xidmətlərini təşviq etmək; Şuşa şəhərinin tarixi, mədəni, turizm və istirahət (rekreasiya) potensialından tam yararlanmaq üçün əlverişli şərait yaratmaq. Bu ilin fevralında "Müharibə cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi kontekstində" adlı XI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Ermənistanın işğalından azad olunmuş Şuşa şəhərinə səfər ediblər. Əvvəlcə Azərbaycanın görkəmli sənətkarları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri olan Şuşa şəhərinin mərkəzi meydanında olublar. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları Qış Məktəbinin iştirakçılarına şəhər və güllələnmiş heykəllər barədə ətraflı məlumat veriblər.

Sonra Qış Məktəbinin iştirakçıları Xurşidbanu Natəvanın evi və Xan qızı bulağı olan ərazi, Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Yuxarı Gövhər Ağa məscidi, Qazançı kilsəsi ilə tanış olub, Cıdır düzünə gediblər.

Bu il 12-14 may tarixlərində Şuşada V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı keçirilib. Azərbaycanın mədəniyyət paytaxtında düzənlənən beynəlxalq tədbirin açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilərin, rəqs kollektivlərinin, eləcə də Azərbaycanın müxtəlif regionlarından olan folklor kollektivlərinin iştirakı ilə düzənlənən beynəlxalq tədbirin təşkilatçıları Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğu olub.

İyunun 1-də Şuşada məktəblilər arasında "Şuşa ili"nə həsr olunmuş "Könlüm keçir Qarabağdan" adlı respublika incəsənət festival-müsabiqəsinin yekun konserti olub. Tədbir Şuşa Real Məktəbinin qarşısında təşkil edilib. Konsert proqramında 150-yə yaxın məktəbli çıxış edib, şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyib, mahnılar oxuyub, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər. Təhsil Nazirliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə düzənlənən tədbirin sərgi hissəsində müsabiqə qaliblərinin rəsm və əl işlərinə baxış keçirilib.

Qarabağa dəymiş misilsiz ziyanın aradan qaldırılması istiqamətində mühüm işlər həyata keçirilməkdədir. Bu istiqamətdə layihələrin reallaşdırılmasında dövlət başçısının sərəncamı ilə yaradılmış Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin üzərinə böyük işlər düşür. Təqdirəlayiqdir ki, idarə vəzifəsini layiqincə yerinə yetirir.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Dünya olduğu kimi**

# Rasionumuzun ayrılmaz qidası

**Qədim zamanlarda insanlar meyvələrdən yalnız müxtəlif xəstəliklərin müalicəsi məqsədilə dərmanlar hazırlayıblar, təbabətdə istifadə ediblər. Meyvə insanların gündəlik qida rasionuna zamanla daxil olub. Bəs dünyada ilk meyvə necə yaranıb və hansıdır? Təbii ki, bunu tam dəqiqliyi ilə demək mümkün olmasa da, bu barədə müxtəlif fikirlər səsləndirilib.**

## *Dünyanın ilk meyvəsi ilə bağlı mülahizələr*

Misir inanclarına görə, dünyada ilk meyvə nar olub. Qədim Misirdə savaşdan əvvəl döyüşçülər nar yeyirmişlər, bu, onları daha güclü və yenilməz olacaqlarına inandırırmış. Nar Şərqdə meyvələrin şahı sayılırdı.

Digər əfsanəyə görə, nar ağacını ilk dəfə sevgi ilahəsi Afrodita əkib. Buna görə nar suyuna çox vaxt "sevgi eliksiri" də deyirlər. Bəzi dini mənbələrdə Adəmlə Həvvanın cənnətdən qovulmasına səbəb olan meyvənin alma deyil, nar olduğu göstərilir.

Klassik Yunan, Roma və İbrani dini inanclarına görə, ilk meyvələr kahinlərə, tanrıya qurban olaraq verilirmiş. Bəzi dini inanclara görə isə qədim zamanlarda təsərrüfatla məşğul olan əhali ilk yığdığı məhsulu ona görə qurban verirmiş ki, növbəti dəfə məhsuldarlıq çox olsun.

Narın elmi adı iki latın sözünün birləşməsindən əmələ gəlib ki, bu da "Punica" - tünd qırmızı və ya parlaq qırmızı, "granatus"



isə dənə deməkdir. Narın ən qiymətli sortunun eramızdan əvvəl Qədim Yunanıstanın Karfagen vilayətində becərildiyi deyilir. Vətəni isə Kiçik və Orta Asiya, Cənubi Qafqaz sayılır.

## *İlk qurudulan meyvələr*

İnsanların rasionuna daxil olduqdan sonra qida ehtiyatı məqsədilə meyvələrin daha uzun müddət saxlanması üçün qurudulması ənənəsi yaranmışdır. Ağacdan torpağa düşən üzüm, xurma və əncirin suyunu itirməsi və quruması tədricən ovçuların marağına səbəb olmuşdur. Sonradan insanların özləri bununla məşğul olmuşlar...

Meyvələrin ilk dəfə qurudulmasına daha çox İran, İraq, Türkiyə, Suriya və Livanda rast gəlinibdir. Qurudulmağa yararlı ilk meyvələr isə albalı, alma, üzüm hesab olunurdu, çünki onların daha tez quruması, gec xarab olması digər ölkələrə daşınmalarını asan edirdi.

Qədim dövrlərdə meyvələr müxtəlif üsullarla - günəşdə, eləcə də ocaqda qurudulurmuş. Günəşdə qurutmaq üçün əsasən saplardan istifadə olunurmuş. Köçəri ərəblər quru meyvələrin suda isladıldıqdan sonra daha tez quruduğunu anlayaraq bu metoddan istifadə etmişdilər.

Aralıq dənizi sahillərində yaşayan əhali müxtəlif xəstəliklərin müalicəsi zamanı da qurumuş xurma, ərik, almadan istifadə etmişdilər.

Qədim Çində isə quru meyvələr ipək kimi bahalı toy hədiyyəsi hesab olunurdu. Hədiyyə kimi verilən qurudulmuş armud cütlüyün daim birlikdə olmasını, ərik ailənin uğurlu, evin bərəkətli olmasını simvolizə edirdi.

Misirdə quru meyvələr fironlar ilə birlikdə qəbrə qoyulurmuş. Qədim Romada qurudulmuş üzüm ödəmə vasitəsi kimi istifadə olunurdu. Belə ki, 2 banka kişmişlə qul almaq mümkün olurmuş. Eyni zamanda quru meyvələr dənizçilərin uzun səyahətləri zamanı onların həyatda qalmalarında böyük rol oynayırmış.

Günümüzdə isə meyvələr müxtəlif texnologiya və avadanlıqların köməyilə qurudulur və onlar təzə meyvələrdən dəfələrlə baha qiymətə satılır.

## *Azərbaycanda meyvə festivalları keçirilir*

Zamanla meyvələrlə bağlı müxtəlif festivallar keçirilməsi ənənəsi də yaranmışdır. Hazırda müxtəlif bölgələrə xas meyvələrin nümayişi, onlardan hazırlanan müxtəlif məhsulların tanıdılması, eyni zamanda insanların həmin məhsullardan dadması üçün hər il müxtəlif meyvə festivalları keçirilir.

Sevindirici haldır ki, meyvə festivalları ilə bağlı ən gözəl ənənələr məhz Azərbaycanda yaranıb. Belə ki, Azərbaycanda ilk dəfə 2006-cı ildə Göyçayda "Nar bayramı" keçirilib. "Nar bayramı"nda rayonun ayrı-ayrı kəndlərində yetişən nar növləri və onlardan hazırlanmış məhsullar nümayiş etdirilir. Məlumata görə, Azərbaycanda ümumilikdə 65 nar növü var ki, bunun 10 növü Göyçayda yetişir.

2012-ci ildən Qubada "Alma bayramı" keçirilir. Festivalda rayonda becərilən alma sortları, bu meyvədən hazırlanan şirniyyat və içkilər nümayiş etdirilir.

Lənkəranda isə 2017-ci ildən "Çay, çəltik və sitrus meyvələri"nin festivalı keçirilir. Rayonun sənaye müəssisələri, kəndli-fermer təsərrüfatları, turizm obyektləri tərəfindən pavilyonlarda festival iştirakçıları üçün yerli, təbii çay və müxtəlif şirniyyatlar, çərəzlərdən ibarət çay dəstgahı təşkil edilir.

"Beynəlxalq xurma festivalı" isə ilk dəfə 2017-ci ildə Balakəndə keçirilib. Festivalda xurmadan hazırlanmış kulinariya məhsulları və kompozisiyalar, kənd təsərrüfatı məhsulları, o cümlədən alma, armud, qoz, fındıq və digər meyvələr, arıçılıq, ət, süd, tərəvəz məhsulları təqdim olunub.

2018-ci ildə Zaqatala rayonunda I Beynəlxalq fındıq, qoz və şabalıd festivalı keçirilib. Festival iştirakçıları fındıq, qoz və şabalıddan hazırlanmış geniş çeşiddə məhsulların sərgisi ilə tanış olub, "kənd evi"ndə fındıq və qoz qabığı ilə sobanın yandırılması, fındığın və şabalıdın qovurulması, şabalıdın saxlanma qaydası, təndirdə fındıq çubuqlarının yandırılması, at arabasının hazırlanması, müxtəlif milli xörəklərin bişirilməsi prosesini əyani izləyiblər.

2019-cu ildən Şamaxı rayonunda "Üzüm və şərab" festivalı keçirilir. Tədbirdə iştirak edən şərab istehsalçıları öz müəssisələri barədə təqdimatlarla çıxış edir, məhsullarının dequstasiyasını keçirirlər.

## *Meyvə muzeyi*

Meyvənin insanların qida rasionunda mühüm rolunu nəzərə alaraq dünyanın müxtəlif ölkələrində meyvə muzeyləri da yaradılıb. Bunlardan ən möhtəşəmi Yaponiyada Fuji dağının şimalında 195.000 kvadratmetr ərazidə salınan Yamanaşi Meyvə Muzeyidir. Bu bölgənin əsas meyvələrinə həsr olunmuş muzey üç əsas binadan ibarətdir. Binalar "Fruit Plaza", "Tropik istixana", "Meyvə emalatxanası" adlandırılır. Binalarda meyvələrin ilkin inkişaf dövründən böyüməsinə qədər bütün mərhələlər nümayiş etdirilir.

## *Meyvəli tortlar*

Meyvə tortu ilə bağlı ən qədim reseptlərin tarixi Roma dövrünə təsadüf edir. Bu reseptə nar dənələri də daxildir. Orta əsrlərdə hazırlanan belə tortlara bal, ədviyyatlar və konservləşdirilmiş meyvələr əlavə olunurdu. Döyüşçülər və ovçular evdən uzaqda uzun müddət qaldıqda meyvələrdən istifadə edə bilmək üçün onları özləri ilə daşıyırdılar.

XVIII əsrdə Avropada qoz və fındıq yığımının sonunda təntənəli meyvə tortu bişirilirmiş və yeni məhsulun başlanğıcını qeyd etmək üçün saxlanılıb növbəti ildə yeyilirmiş. Məhsul yığıldıqdan sonra qoz-fındıq qarışdırılaraq növbəti ilə qədər saxlanılan meyvəli tort halına gətirilirmiş. Bu, onları daha uğurlu məhsul əldə etməyə inandırırmış.

Amma XVIII əsrin əvvəllərində gavalıdan hazırlanan tort bütün Avropada tamamilə qadağan edilmişdi. Bu tortlar "günahlarla zəngin" hesab olunurmuş. Hətta gavalı tortunun istifadəsini məhdudlaşdıran qanunlar da qəbul edilmişdi.

XIX əsrdə meyvə tortu Avropada çox məşhurlaşır. Hətta Kraliça Viktoriyanın ad günü üçün hazırlanan meyvəli tortu yemək üçün bir il gözlədiyi deyilir. İngiltərədə toyda iştirak edən subaylara tort verilirmiş.

## *Ən kiçik və ən böyük meyvələr*

Dünyanın ən kiçik meyvəsi hesab olunan "Wolffia globosa"nın balaca yaşıl dənəcikləri var. Həmçinin bu, dünyanın ən kiçik çiçəkli bitkisi hesab olunur. Meyvənin ölçüsü 0.7 və 1.5 millimetr arasında dəyişir. Əsasən Asiya ölkələrində yetişdirilən meyvə protein ilə zəngindir. Bitkinin meyvəsinin dünyanın ən kiçik qarışqa növlərindən biri olan "Oğru"nun ölçüsünə bərabər olduğu qeyd olunur. Bu meyvədən Asiya ölkələrinin mətbəxində geniş istifadə olunur.



Dünyanın ağacda yetişən ən böyük meyvəsi olan "Jackfruit"in vətəni Hindistan yarımadası və İndoneziya sayılır. Əncir və tutkimilər sinfinə daxil olan meyvə yağışlı və rütubətli meşələrdə öz-özünə yetişir. Meyvənin hündürlüyü 1 metr, diametri 20 santimetr, çəkisi 50 kiloqramdır. Bu xüsusiyyətinə görə o, dünyanın Təbiət elmləri ədəbiyyatına daxil edilib. Dadı ananas, banan, manqo meyvələrinin qarışığını xatırladan "Jackfruit"dən müxtəlif yemək və salatlarda, eyni zamanda tibbdə dərman hazırlanmasında geniş şəkildə istifadə edilir.

## *Ekzotik meyvələr*

Bəzi meyvələr isə qeyri-adiliyi ilə göz oxşayır. Bunların arasında tropik meyvələrə daha çox rast gəlinir. Ekzotik meyvələrdən hesab olunan durian meyvəsi dairəvi şəkildədir və çox iti iynələri var. Qabığının altında isə unikal dadı olan ləti yerləşir. "Meyvələrin kralı" adlanan bu meyvədən kəskin ammonium qoxusu gəlir. Qoxusuna görə onu təyyarədə daşımaq və ya hotel nömrələrinə aparmaq qadağandır. Tailandda bitən bitkinin meyvəsi vitaminlərlə və qidalandırıcı maddələrlə zəngindir.

Ekzotik meyvələrdən biri də cekfrutdur. Sarı-yaşıl qabığının altında tikanlı qalın meyvəsi olan bitkinin şirin dadı və armudun ətrinə bənzər qoxusu var. Cekfrutu digər meyvələrlə birlikdə dondurma və kokos südünə əlavə edirlər. Toxumları isə bişirilmiş halda yeyilir.

Pepinonu şirin xiyar, qovun armudu da adlandırırlar. Giləmeyvə olsa da meyvələri böyükdür. Meyvələri ölçü, forma və renginə görə müxtəlif olur. Bəziləri qırmızı, digərləri tünd sarı rəngdədir. Meyvənin dadı qovun və xiyarı xatırladır. Bu meyvəyə əsasən Peru, Çili, Yeni Zelandiya, Türkiyə, Misir və İndoneziyada rast gəlinir.



Liçi meyvəsinin digər adı litçi, yaxud Çin gavalısıdır. Ürəkşəkilli və ya dairəvi meyvə salxım şəklində olur. Qırmızı qabığının altında şəffaf, sulu və şirin lət olur. Asiya ölkələrində tropik meyvəni konservləşdirilmiş şəkildə və plastik paketlərdə satırlar. Meyvənin mövsümü isə maydan iyula qədərdir.

Ekzotik meyvələrdən olan mameyanın digər adı sapotadır. Dəyirmi formalı kiçik meyvənin rəngi narıncıdır. Ərik dadı verən meyvədən şirniyyatların hazırlanmasında istifadə olunur və yetişməmiş meyvələrindən jele hazırlanır. Meyvə əsasən Kolumbiya, Meksika, Ekvador, Venesuela, Antil adalarında, habelə ABŞ-ın bəzi ştatlarında bitir. Mövsümü sentyabrdan noyabra qədər davam edir.

Lonqan da ekzotikliyi ilə seçilən meyvələrdəndir. Meyvənin digər adları lam-yay, yaxud "əjdaha gözü"dür. Dairəvi və çəhrayı rəngdə olan lonqan zahirən kiçik kartofa bənzəyir. Qabığının altında olan parlaq ağ və ya çəhrayı lət yumşaq jeleni xatırladır. Meyvənin ortasında böyük qara dənəsi var. Lonqan sağlamlıq üçün faydalı hesab olunsa da, çox yeyildiyi halda bədənin temperaturunu yüksəldir. Lonqanın yayıldığı ərazilər isə Tailand, Vyetnam, Kamboca və Çindir.

Tüklü pomidora bənzəyən narahilla lulo, And dağlarının qızıl meyvəsi də adlandırılır. Dadına görə isə ananas və çiyələyi xatırladır. Onun şirəsindən və ətindən meyvə salatlarının, dondurma, kokteyllərin hazırlanmasında istifadə olunur.

Venesuela, Panama, Ekvador, Kosta-Rika və Çilidə rast gəlinən bitkinin mövsümü sentyabrdan noyabra qədər çəkir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

**Sağlıq olsun**

# Yayın şəfa verən meyvələri

**Çiyələk, tut, albalı, ərik, şaftalı, qarpız, qovun… Yay fəslinin ləzzətli və sulu meyvələri… Xüsusilə qızmar istilərdə susuzluğumuzu yatırtmaq üçün bizə inanılmaz kömək olan bu meyvələr həm də bol vitamin və mineral maddələrin qaynağı olması baxımından da sağlamlığa böyük fayda verir.**



Mütəxəssislər bildirirlər ki, yay meyvələri də yüksək antioksidant tərkibli olması ilə orqanizmi ürək, xərçəng və diabet kimi metabolik xəstəliklərdən qoruyur. Meyvələr tərkiblərindəki lif sayəsində həzm sisteminin sağlam olmasına təsir edir.

Vitaminlər, minerallar, su ilə zəngin olan meyvələri xüsusilə mövsümündə istehlak etmək sağlam həyat üçün çox vacibdir. Buna görə də müxtəlif növ və rəngarənglikdə olan yay meyvələrindən bəhrələnmək lazımdır.

Türkiyəli uzman-diyetoloq Çisem Gündüzün sözlərinə görə, meyvələrin hər birinin fərqli rəngdə olması, onlarda vitamin və mineralların da fərqli olduğunu göstərir. Bu səbəblə seçim edərkən mümkün olduqca müxtəlif rəngli meyvələrə üstünlük vermək məqsədəuyğundur. Meyvələrin lifli olmaları isə bağırsaq sağlamlığının qorunmasına çox kömək edir. Bununla qəbizlik başda olmaq üzrə, həzm sistemindəki bir çox problemlərin qarşısını almaq mümkündür. Eyni zamanda meyvələr yoğun bağırsaq xərçənginə tutulma riskini də azalda bilir.

### *Çox yeyiləndə zərər verə bilər*

Lakin diyetoloq xəbərdarlıq edir ki, meyvələrin tərkibindəki şəkərin miqdarına görə bəzilərini çox yemək məsləhət deyil. Xüsusilə də yayda sərinləmək üçün həddindən çox istehlak edilən bu meyvələr artıq çəki yarada bilər. Buna görə də meyvəni miqdarında yemək daha faydalı olur: "Orqanizmdə enerji olaraq yandırılmadıqda meyvənin tərkibindəki şəkər yağ formasında yığılır və buna görə də artıq çəki almağa səbəb olur".

Eyni zamanda yay meyvələrinin tərkibində meyvə şəkəri olaraq bilinən fruktoza yüksək qan şəkərinə, qarın ağrılarına, insulin müqavimətinin düşməsinə və piylənməyə qədər bir çox hallara səbəb ola bilər.

## Albalının yaddaşa yaxşı təsiri var

**Araşdırmalar göstərib ki, albalı beyinin fəaliyyətini və yaddaşı yaxşılaşdırır. Bu səbəbdən yaşlı insanlar üçün çox faydalıdır.**



Tərkibində A, C, B qrupu, PP vitaminlər, dəmir, mis, maqnezium minerallar, antosianlar, kumarinlər, bioflavonoidlər, orqanik turşular olan albalı zəngin kimyəvi tərkibi sayəsində artrit və podaqradan əziyyət çəkənlər üçün çox faydalıdır. Eyni zamanda ürək əzələlərini və damarları möhkəmləndirir, trombların əmələ gəlməsinin qarşısını alır, ürək tutması, infarkt və insultun riskini azaldır.

Albalının tərkibində olan antosian maddələri mədəaltı vəzin fəaliyyətinə də müsbət təsir edir və bu səbəbdən şəkərli diabetdən əziyyət çəkənlər üçün əvəzolunmazdır. Maqnezium və B qrupu vitaminləri ilə zəngin olduğundan sinir sisteminə müsbət təsir edir, sakitləşdirir, gərginliyi azaldır, yuxunu tənzimləməyə kömək edir. Albalı qanın tərkibinə müsbət təsir edir, qanazlığını aradan qaldırır, orqanizmdə iltihabları azaldır, görmə qabiliyyətini yaxşılaşdırır.

## Zərif dərman

**Zərif görünüşü, gözəl rəngi, xoş ətri və özünəməxsus dadı ilə yay mövsümünün ən sevimli meyvəsi olan çiyələyin faydası saymaqla bitmir. C vitamini deposu olan bu meyvə xərçəngə qarşı mübarizə aparan antosian, ellagik asit, kaempferol, kuersetin kimi antioksidantlarla zəngindir.**



Çiyələk infarkt riskini 30 faiz azaldır və ürəyin sağlamlığını qoruyur. "Pis" xolesterolun səviyyəsini aşağı salır, damarları gücləndirir, gözə fayda verir. Çiyələyin su və lif tərkibi yüksək, kalori səviyyəsi aşağıdır. Çiyələk həzm sisteminə müsbət təsir edir, qəbizlik problemini həll edir. Qanı təmizləyir, şəkər xəstəliyi riskini azaldır. Potasium və antioksidantla zəngin olan meyvə qaraciyər xəstəliklərinə də fayda verir. Qarnında su toplanan, böyrəyində qum və ya daşı, damar sərtliyi, yüksək təzyiq problemi olanlar çiyələk və onun yarpağından dəmlənmiş çaydan yararlana bilərlər.

Bunun üçün 300 qram çiyələk yarpağını və kökünü bir gecə suda saxlamaq, ertəsi gün 1 litr suda 20 dəqiqə qaynadıb çay kimi içmək lazımdır.

## Ürəyin dostu

**Kaliumla zəngin ərik ürəyin dostu sayılır. Bu orqanın fəaliyyətini yaxşılaşdıran, ödəmləri azaldan, arterial təzyiqi və ürək ritmini tənzimləməyə kömək edən ərik sidikqovucu effektinə görə böyrəklər üçün əvəzolunmaz şəfa mənbəyidir. Beta-karotinlə zəngin olan ərik görmə qabiliyyətini artırır. Həmçinin beta-karotin sayəsində orqanizmdə A vitamininə çevrilir. A vitamini qocalmanı ləngidən, xroniki xəstəliklərin inkişafından qoruyan ən güclü antioksidant sayılır.**



Beyinin fəaliyyətini yaxşılaşdıran bu meyvə yaddaşı möhkəmləndirir. Ərik qanın tərkibinə də müsbət təsir edir.

Flavonoidlərlə zəngin ətirli meyvə damarların sağlamlığını qoruyur, varikoz xəstəliyi zamanı və bu xəstəliyin profilaktikası üçün çox faydalıdır. Tərkibindəki zəngin qidalı liflər və pektinlər nəticəsində qanda xolesterinin səviyyəsini aşağı salır, orqanizmi ziyanlı maddələrdən təmizləyir.

## Bir çox xəstəliklərin dərmanı



**PP, C, D, B1, B2, B6 vitaminləri, dəmir, mis, sink, kalium, fosfor, kalsium duzları və fol turşusu ilə zəngin olan qarpız bütün bu vitamin və mikroelement bazası sayəsində qaraciyərdə mübadilə prosesini stimullaşdırır, ödün tərkibini yaxşılaşdırır, öd kisəsi və kanalda daşların əmələ gəlməsinin qarşısını alır. Tərkibindəki xeyli miqdarda fol turşusuna görə qan azlığı və dəmir defisitli anemiya zamanı tövsiyə olunur.**

Qarpız likopin (antioksidləşdirici maddə) sayəsində qida borusu, prostat, mədə, süd vəziləri, mədəaltı vəz və digər xərçəng növləri ilə savaşır.

Qarpız güclü sidikqovucu vasitədir. Buna səbəb kalium duzlarıdır ki, bu həmçinin böyrəkdən, sidik kisəsi və sidik axarından daşların çıxarılmasına və parçalanmasına, həmçinin sistitin müalicəsinə kömək edir. Zəhərlənmə prosesində bağırsaqlarda yaranan toksinləri özünə hopduraraq bağırsaq mikroflorasını yaxşılaşdırır.

Bu giləmeyvədən həmçinin pektin əldə olunur. Pektin isə orqanizmdən toksik maddələrin, duzların və ağır metalların çıxarılmasında istifadə olunur. Buna görə də qarpız cərrahi əməliyyatlardan sonra xəstələrə məsləhət görülür. Xüsusilə narkoz altında keçirilən əməliyyatlardan sonra istifadə edilir.

Qeyd edək ki, qarpız yalnız mövsümündə yeyildikdə xeyirlidir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Günəş zərbəsindən qoruyur



Yayın sulu və ləzzətli meyvəsi sayılan şaftalı vitaminlər, minerallar, orqanik turşular, efir yağları, qidalı liflər və digər faydalı maddələrlə zəngindir. Şaftalının tərkibində olan sərbəst radikallar günəş işığından orqanizmə dəyən zərərləri aradan qaldırır, onu bədəndə baş verən fərqli xəstəliklərdən qoruyur.

Tərkibindəki C vitamini sayəsində travma zamanı toxumalarda meydana gələn zədələrin sürətlə sağalmasına yardım edir. A vitamini ilə zəngin olan dadlı meyvə sümüklərin möhkəmlənməsinə yardım edir və sümük xəstəliklərinin artması riskini azaldır. Şaftalı yemək yaşlanmanın da qarşısını alır.

Bu meyvənin şirəsinin tərkibində də A, C, B3 vitaminləri, betakartoten, fol turşusu boldur. Saftalı şirəsi qanı təmizləmək qabiliyyətinə malikdir. O damarlarda spazmların baş verməsinin qarşısını alır, qanın yaxşı işləməsinə yardım edir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5975
Sifariş 1734
Qiyməti 40 qəpik